

MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# Rəsul RZA

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

Ш6
R99

RƏSUL RZA

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

III CİLD

2397481

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2005

Tərtib edəni: **Anar**

Redaktoru: **Arif Əmrahoğlu**

**894.3611 - dc 21**
**AZE**
**Rəsul Rza. Seçilmiş əsərləri.** Beş cilddə. III cild. Bakı, "Öndər nəşriyyat", 2005, 256 səh.

Xalq şairi Rəsul Rza dərin və humanist poeziyasında novator kimi, milli şerin, onun poetik sisteminin ardıcıl və yorulmaz islahatçısı kimi çıxış edirdi. Dünyanı, insan həyatını bütün rəngləri və boyaları ilə əks etdirmək, geniş və əhatəli göstərmək üçün şair yorulmadan axtarır, lirikanın yeni vasitələrinə üz tuturdu.

Seçilmiş əsərlərinin bu cildində şairin gərgin axtarışlarının nəticəsi olan poetik-fəlsəfi düşüncələri – lirik silsilələr toplanmışdır. "Qarabağ – baba yurdum" şeirlər silsiləsi ilə açılan cilddə, həmçinin müəllifin xarici ölkələrə səfərlərdən aldığı təəssüratlar nəticəsində yazılan və müxtəlif iqlimlərin təzadlı həyatından bəhs edən çox sayda şeirləri, eləcə də milli poeziyada yeni mərhələnin başlanğıcından xəbər verən "Dəniz haqqında nəğmələr", "Rənglər" və b. silsilələr yer alır.

Əsərlərin hər biri öz əlvanlığı və poetik çaları ilə diqqəti cəlb edir.

**ISBN 9952-416-67-8**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Şeirlər

# *Qarabağ – baba yurdum*

## SƏNİN ADIN

Sənə Qarabağ dedilər,
Bəlkə "qara bax!" dedilər,
dağlarında
yaylayan qarına görə
Bəlkə "Qara bağ" dedilər,
kölgəli bulaqlarına görə.
Bəlkə
dodaqları susuzluqdan
cadar-cadar yolçu,
ətəyində duman sürünən,
ağ zirvəsi arandan görünən
Kirsə baxıb,
həsrətlə, ümidlə
dedi: – Qara bax!
Qara bax!
O gündən adın qaldı
Qarabağ.
Adın qədimdir,
xalqımın mübarizə tarixi kimi.
Nəğmələrin
qürurla doldurur qəlbimi.
Ömrün yollarında arzuları yağır olmuş,
möhnətdən, dözümdən
qarabağır olmuş,
alnı açıq, üzü ağ yaşayan,
Səksəkəli ürəyində
arzusunu, ümidini daşıyan
insanlar dedilər:
"Silinsin tarixdən

nəsillərin qara baxtı!"
Gözəllər gözəli,
Qarabağım mənim!
Nənəmin köçəri yolları,
babamın çirməkli qolları,
elin neçə igid oğlu, qızı
səndə olub,
yenə neçə qəhrəmanı səndədir.
Neçə şirin nəğmənin dadı, duzu,
göy ulduzu, yer ulduzu
sinəndədir
Qranitə dönmüş qoşası da,
Tək-tək qızılı da,
Tanıyır adam
qanadlı şahini də,
adı nəğməyə dönmüş qızını da.
Qəlbimdəsən, gözümdəsən
hara gedim, hara baxım,
Mənim doğma Qarabağım!
Qarabağım!

*1970*

## DAŞ ÜSTÜ

Bir yanı uçurum qaya,
bir yanı çəmənlik – saya.
Gündüzlər günəşə tamaşa,
gecələr – aya.
Qaya daşlarında
dırnaq yeri
köhlən atların,
Dərələrində sərin mehi
yelkən budaqlı
bağ-bağatların.
Daş divarlarında



igid nərəsindən qopan
qəlpələrin yeri,
Kölgələrində
Üzeyirin nəğməsi
Vaqifin, Natəvanın şeri.
Kim sənin bir çimdik torpağına,
bir üskük suyuna,
bir ovuciçi yarpağına qıyar,
Doğma diyar!

*1970*

## BULAQ SUYU

"Varımdı sinədə
dərdi-qəmi-nəhan,
ölürəm".
Həzin bir qadın səsi
məclisi heyran qoydu.
Bir qəm tişəsi
ürəkləri oydu, oydu.
Məclis qalxdı ayağa
qocalı, cavanlı.
Sinəsi ürək döyüntülü,
sükutu həyəcanlı.
Pəncərə qabağında
fəvvarə su dağılır
çıldır-çıldır.
Hələ Muğan düzündə
yanır torpaq.
Mil düzü quraqlıqdır.
"Fəda olum sənə,
gəl, eylə imtəhan,
ölürəm".
Axır gəlir adamlar
Xan qızının bulağına.

Axır gəlir ürəklər
Natəvan şerinin sorağına.
Artıq olmaz bu gün də desək:
– Ürəklər, qızının!
Sözlərinin hərarətində Xan qızının.

*aprel, 1970*

## NƏĞMƏLƏR DOĞULANDA

Nə "Koroğlu" vardı,
Nə "Arşın mal alan",
ahəngə düzülmüş
quşların nəğməsi,
bulaqların səsi vardı.
Bir qara gözlü uşaq,
söykənib qaya daşına,
dinləyirdi tütək səsini
və ara-sıra gələn
qırıq kəlmələri tək-tək:
"Kərə, tayın gördüm,
Kürə, tayın görmək gərək".
Bir "Kəsmə şikəstə"
"Yandım" – deyib,
enirdi yamaclara
Üzeyir adlı
Bir qara gözlü uşaq
heyran-heyran baxırdı
quş nəğməli ağaclara
Beşik başından
axırdı ana laylaları
axşam-səhər,
Bir qara gözlü uşaq
dinləyirdi, dodağında
körpə zümzümələr.
Hələ nə "Koroğlu" vardı,



nə "Arşın mal alan".
Bir qara gözlü uşaq vardı.
Bir könlü nəğməli insan
Bir gün gəldi
"Arşın mal alan"da var oldu,
"Koroğlu"da, "Sənsiz"də
Bir də acı bir duyğu,
yanıqlı bir həsrət
qəlbimizdə.

*1970*

## TONQAL YERİNDƏ ÇİÇƏK[1]

*"Kabab yanar köz üstdə!"*

Burda torpaq yanmışdı
qapqara.
Tonqal tüstüsü yayılmışdı
yaxınlara, uzaqlara.
Havadan asılmışdı
yanmış ət qoxusu.
Gözlərdə közərmişdi
qurbanlıq olmaq qorxusu.
Torpaq dözdü
atəşin ağrısına,
inciyinə.
Yanıq qalıqları
qalmışdı ikinci günə.
Üçüncü gün yağış yağdı,
dənəvər, gurşad
Yudu tonqalın külünü.
Nə ah qaldı, nə fəryad.
Keçdi bir neçə gün,

[1] Bu şeir Xankəndində "məhkəmədən" sonra vəhşicəsinə diri-diri yandırılmış üç nəfər azərbaycanlıya həsr olunmuşdur.

Tonqal yerində çiçək əkdilər.
Ancaq deyən olmadı, burda
qırmızı qərənfillər
tonqaldan qabaq gərəkdilər,
yanıq ət qoxusundan qabaq,
qurbanlıq qoxusundan qabaq.
Soruşan olmadı,
tonqalı kimlər qaladı,
çiçəkləri kimlər əkdi?
Bu işin yaxşı tərəfi nə,
pis tərəfi nədir.
Yoxsa bu qan rəngli qərənfillər
sallaqların şərəfinədir?

*1968*

## PİRİ BABANIN BAĞI

Piri babanın yaşını bilən yoxdur.
Kirs dağının dumanlı başı vardı,
Piri babanın neçə yaşı vardı.
Hamı onu burda görüb,
qoca, cavan.
Burda onun səpdiyi
toxumlar cücərib.
Burda cığırları yol eləyib,
burda bağ-bostan becərib
Piri baba-bağban.
Burda ilk ağac əkən,
burda ilk ev tikən,
burda sevişən, dərd çəkən
Piri baba olub.
Qabarlı əllərindən
çöllərə, düzlərə
bahar verib,
Bağından meyvə dərib,



yolçulara nübar verib.
Yaşını bilən yoxdur onun,
Kimi deyir neçə yüz,
kimi deyir neçə min ildir,
Keçmişdən könlündə qalan
həsrət, arzu, nisgildir.
Bu günü – ümid dolu,
Bu günü – qoca torpağın
gənclik yolu.
Burda anadan olub,
burda ata olub,
burda baba olub
Piri baba.
Ölüm yoxdur ona,
torpağa ölüm olmayan kimi.
Zirvəsi buludlarda gizlənən
dağa ölüm olmayan kimi.
Dünən də vardı Piri baba,
bu gün də var,
sabah da olacaq.
Nə qolu girdən düşmüş,
nə bir gün naçaq.
Hər çimdik torpaqda,
hər damcı suda,
hər aydın havada,
hər gün,
yenidən doğulur
Piri baba.
Dost gözləri görəsi
çəmən-çəmən düzləri var,
Nəğməli gecələri,
işıqlı gündüzləri var
Piri babanın.
Dost əlləri dərməli
meyvələri çeşid-çeşid,
rəng-rəng,
dad-dad.

Qulaqları oxşayan
nəğmələri var,
qanad-qanad.
Əlindəki dostluq camı
süfrəsi açıq.
Onu tanıyır hamı.
Tanımayanlar varsa,
aşıq demiş:
"Dalınca qara palçıq!"
Piri babanın hörməti
doyum-doyumdur.
Qəzəbinə dözmək zor olar.
Piri babaya dost gözüylə baxanlar
mehribanlıq, ülfət görər.
Bəd nəzərlə baxanlar
kor olar.

## NƏSİLDƏN-NƏSLƏ

Anam Qaradolaq obasındandı,
Kürün sağ sahilindən.
Yaşayırdıq Göyçayın
çinarlı bir küçəsində.
Hələ uşaq idim mən.
Hərdən yaz başı
aranın yumşaq gecəsində,
babam gözlərini yumar,
xəyala dalardı.
Bir müddət belə qalardı.
Sonra deyərdi:
– İgid oğlum!
Atlar içində
döl seçməli olsan,
o yerlərə get!
Göllər içində



göl seçməli olsan,
o yerlərə get!
Bağları-bağlar bağı,
Dağları-dağlar dağı.
Qalasının hər divar daşı
düşmən gülləsinə qalxan olub.
Gümüş-gümüş ulduzları
dan sökəndə axan olub.
Dərələrin dərini
ordadır.
Bulaqların sərini
ordadır.
Ovlaqları geniş-geniş,
İstəsən ovla, quşla,
istəsən çaylağa en.
Yolun eniş.
İstəsən buludlara qalx
ilan-cığır yoxuşuyla
Üç ay sürüləri başıyuxarı gedir,
İki ay başıaşağı,
Yamacları əlvan xalı!
Şırranları – nənə qurşağı
Çörəyi az olsun, ya çox,
süfrəsi dost üzünə açıq olur.
Orda ürəklər
mərd sözünə açıq olur.
Nəğmələr nəğməsi
ordadır.
Cabbarın, Seyidin səsi
ordadır.
Çox vurğundu baba yurduna
babam, nənəm.
İndi nəvəmin babası
mənəm.

*1970*



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

## ŞUŞAM MƏNİM

Sinəsi qabarıq,
nağıllardan gəlmiş
pəhləvandır
Şuşam mənim;
Mərdliklə, gözəlliklə
qoşam mənim.
Azərbaycan torpağının
nur parçası.
İncə mahnılar yuvası,
Pənahların yadigarı,
Alagözlü,
qarasaçlılar diyarı
Səndə Cabbarın, Seyidin,
Nəvvabın, Üzeyirin, Bülbülün,
neçə-neçə nəğməkarın,
qoç igidin
nəğməsi var,
nərəsi var.
Könüllərdə
neçə-neçə mahnıların
zümzüməsi,
sözü qalıb,
Sənin doğma torpağında
neçələrin gözü qalıb.
Vətən adlı doğma yurddan
püşk olarmı?!
Pay olarmı?!
Yüz bir şəhər adı çəkim,
Gözəllikdə,
biri sənə tay olarmı?!
hər qarışın şair qızın
Natəvandan xəbər verir
Sən nəğmələr beşiyisən,
sən muğamlar keşiyisən.
Bəd əməllərin kükrətdiyi



alovlardan diri çıxdın.
Ey Səməndər – Həyat quşu!
Tarixindən səhifədir
hər enişin,
hər yoxuşun!
Torpağın da,
ləçək-ləçək çiçəyin də,
pıçıl-pıçıl yarpağın da
xəbər verir
ibrət dərsi bu olmuşu.
Tarixdə baş əyməmisən
bir fatehə, müxənnətə
Bir qonşunun, bir qonağın
könlünə də dəyməmisən.
Alqış sənə!
Bu qüdrətə!
Doğma yurdum,
gözəl Şuşam.
Fəsil-fəsil görüb səni,
Doyum-doyum gəzib
dağı, göy çəməni
yenə səndən doymamışam.
Haqqım vardır
şer, əmək diyarına
bəstə-bəstə mahnı qoşam.
Tarix sənin
torpağında, daşındadır,
hər yan-yörən,
hər dolayın,
hər cığırın
Azərbaycan – Vətən dadır.
Dost gözüylə sənə baxan
hər kəs əziz qonağındır.
Sənə əyri baxanları
qəzəbinlə külə döndər,
yaxıb-yandır.
Dünənində



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Qəhrəmanlıq zirvəsi var,
Bu gündə
dostluq, ülfət havası var.
Bu gün aləm səndən alır
Vaqiflərin sorağını.
Sən yandırdın neçə-neçə
milli sənət çırağını.
Cıdır düzü
şəfəqlərə boyananda
səhər-səhər,
Qoynundakı
hündür qatlı binalarda
çiçəklənir pəncərələr.
Öyünürəm
tarixinlə,
bu gününlə
Vətənimin şəfa yurdu,
məni dinlə!
Səni bircə dəfə görən,
bir könüldən, min könülə
sənə aşiq, bənd olmuşdur,
Qarabağın yaraşığı!
Sənə saysız nəğmə qoşub
neçə-neçə el ozanı,
el aşığı.
Yüz bir tərif desəm, azdır
bu gününə;
qoynundakı toy-düyünə.
Nəğmələrin qanad çalır
Bakıya da, Şirvana da,
qədim əziz Gəncəyə də.
"Nankor" dedim
bu gününə xor baxana,
səndən küsüb inciyənə.
Üz tuturam sizə sarı
Vətənimin allı-güllü
əlvan-əlvan çiçək xallı,



göy dağları!
Kirsin sərin mehi gəlir,
sığallanır Cıdır düzü.
Dan yerindən qalxan günəş
xəbər verir,
zəfər dolu bir gündüzü.
Danış-danış Cıdır düzü,
Nə zamandan qalıb səndə,
sərt qayalı daş sinəndə,
ağ köpüklü köhlənlərin
qaynar, iti
nal imzası!
İgidlərin
cığır izi.
Sən mətanət, mərd dostluğun
səngəri, həm qalasısan.
Kim nə deyir, desin,
Sən beləsən,
bu adla da qalasısan
Köhlənlərin su içdimi
şair qızın bulağından?
Maral, cüyür ürküşdümü
tərlanların qıy vuranda
sürülərin oylağından?
Tarixinlə öyünürəm.
Bu gününlə sevinirəm.
Fərəhinlə fərəhliyəm.
Yorulmaram,
gəlhagəlli,
incə telli
büsatından yüz gün deyəm.
Şuşam mənim!
Mətanətlə, dəyanətlə
səxavətlə qoşam mənim!

*avqust, 1980*



M.F.Axundov adına Azərbaycan Milli Kitab

## BİR HEYKƏL, İKİ QOCA VƏ MƏN

Şəhərin başucunda
qəzəbli yumruq kimi
dikəlmişdir göylərə,
Tamaranın qalası.
Buludlar topa-topa.
Sanki, gəzməyə çıxıb
qıvrımsaç, sarıköynək
neçə gürcü balası.
Yatağında çırpınır Kür,
qızdırmalı kimi.
Qranit sahilləri,
bəlkə də ona dardır.
Bəlkə də bu gecəyə,
bir evə, bir küçəyə
deməli sözü vardır...
Bütün günü işləyib
yorulmuş adam kimi
küçələr bircə anda
batır dərin sükuta.
Xiyabanın başında
dörd bir yanı gül, çiçək
durub qranit Şota.
Dalğındır Rustaveli,
Köçəri quşlar kimi.
Bəlkə keçir gözündən
əsrlərin gur seli.
Gah Nizami soraqlı,
Gah Gəncə ismarıclı.
Bəlkə Leyli-Məcnunun
qəmli hekayətini xatırlayıb.
Odur ki, dayanıb Şota qəmgin,
alnı dərin qırışlı.
Gecə.
Göy ulduz-ulduz.



Sarıkürk çoban kimi,
mavilikdə gəzir ay.
Sənan dağı boyunca,
buludların kölgəsi,
axışır alay-alay.
Şəhər, sanki, dincəlir
gündüzün səs-küyündən.
İnsan əliylə söndü
pəncərələrdə işıq...
İki qoca,
bir də mən
bu gecə küçələri
gəzməkliyə çıxmışıq.
Bir qocanın əynində
vəznəli çuxa vardır.
O biri, ortaboylu,
geyimi də müasir.
Ayrı-ayrı şəhərdən,
ayrı-ayrı əsrdən
gəlib bura qocalar.
Bir qoca on doqquzun
ortalarından gəlib...
O biri, iyirminin
birinci yarısından.
Hər ikisinin ömrü
dedikcə de, tükənməz;
yarı dərd, yarı zindan.
Qısılıb hündür evin kölgəsində
bir tinə,
Qulaq asdım
möhtərəm qocaların
bu həzin,
maraqlı söhbətinə.
Əvvəl salam verdilər Şotaya.
Sonra dərin və ağır
sükut çökdü ortaya.

Elə bil ki, əyildi
dağların kölgəsi də
onları dinləməkçin.
Miyana boylu qoca
Uzadaraq əlini
Hündür qalaya tərəf
dedi:
– Necədir yerin,
hündürdə, dağ üstündə?
Deyəsən, ləng oldu çox
o yoxuşa qalxmağın.
Deyəsən, bir balaca
incidin də, küsdün də.
Müsahibi dinmədi.
Bəlkə də heç sualı
eşitmədi, duymadı.
Bəlkə də, özü qəsdən
sözə məhəl qoymadı.
Yavaşcadan soruşdu:
– Sənin küçən hardadır?
Qəzetxanan səmtində,
yoxsa ki, kənardadır.
Ay gizləndi buludda.
Kölgə düşdü,
görmədim mən qocanın üzünü,
Səsindən duydum, ancaq.
Gülümsünüb söylədi,
qoca cavab sözünü:
– Bura qonaq gəlmişik,
giley-güzar nə gərək.
Nə mən şöhrət sevmişəm,
nə də sən.
Bizə qürbət deyil heç
bu küçə, bu səki də.
Fərz et, Naxçıvandayıq,
ya da sizin Şəkidə.



Ay buluddan çıxanda
asfalt üstünə düşdü
qocaların kölgəsi.
Səslər gah aydın gəlir.
Qəflətən bıçaq-sükut
səsləri birdən kəsir.
Dinləyirəm söhbəti:
– Bakıda bir küçə var mənim adıma, bəsdir
Nə xalqdan gileyliyəm,
doğrusu, nə baxtımdan.
Hayıfımı almışam
mən dövrandan, vaxtımdan.
Ancaq bircə arzum var:
köçürəydilər məni
illərlə yaşadığım,
yaratdığım küçəyə.
Bu sözləri eşitdim.
Elə bildim acı bir sazaq doldu,
torpaqdan göyə qədər
gecəyə
Səssizlik axdı, axdı
doldu qulaqlarıma,
ağır qurğuşun kimi.
Qaldım bu səssizlikdə,
qalınqabıq meyvənin
içindəki tum kimi.
Yenidən bir səs gəldi...
İkinciydi danışan:
– Mənim də nisgilim var.
Doğrusu, musiqiyə
çox da bələd deyiləm.
Bu sənətə, bu işə
kəm baxıb, pis demirəm,
ancaq ki, operada
özümü qərib kimi,
narahat hiss edirəm.

Sonra xeyli danışdı qocalar.
Şəhərin yaraşıqlı qoynunda
gəzə-gəzə.
Söhbətləri maraqlı,
zarafatları təzə.
Mənə elə gəldi ki,
yeni kitablarından
bir-birinə qocalar
hədiyyə də verdilər.
Eybəcər tərcümələr,
ala-bəzək cildlər,
qəzet kağızından da
nə isə deyirdilər.
Qocalar ayrıldılar
dan yeri söküləndə,
tanıdım onları mən;
biri coşqun, qəzəblə
təmkinlə danışanda,
o biri, acı-acı güləndə.

*yanvar-aprel, 1967*



# Mirzə Cəlilin nisgilləri

## ÖLÜLƏR

*Mirzə Cəlillər yetirmişdir bu torpaq*

Gecədən xeyli keçmiş
döyüldü qapım.
– Kimsən? – dedim.
Səs gəldi: – Mənəm!
Ətim ürpəşdi
səsi eşidib.
Baxdım, saat beş idi
Dedim: – İskəndər, bu nə gəlişdi belə?
Dedi: – Yubileyə gəlmişəm,
Mirzə Cəlilin yubileyinə
Başımı qaldırdım miz üstündən,
Gözlərimdə yuxusuzluğun
ağır göynəyi,
Əynimdə gecə köynəyi,
Miz üstündə varaqlar,
payız yarpağı kimi.
Nə qapımı döyən var,
nə İskəndər.
Yan-yana, üst-üstə
yazılıb, pozulmuş sətirlər,
ağlı, qaralı səhifələr.
İskəndər çağırdı məni uzaq,
yolları dolambac, qarışıq,
havası bürkü,
özü bədqılıq
bir yerə.
Ölülər dünyasıdır bu!

Baxdım vahiməli, səksəkəli
qorxulu bu mənzərəyə
İskəndərin əlində
modern elektrik fənəri,
Bir-bir işıqlandırırdı
üzləri:
– Bu, Hacı Həsən əmi!
Bu, Şeyx Nəsrullah!
Bu, Mir Bağır ağa...
– Bəs, bunlar?
Aman, allah!
Bunlar ki, lap yaxından
tanışdır mənə.
İskəndər baxdı üzümə,
maraqla, diqqətlə
İstehzalı qəhqəhələrlə
dedi: – Görürsən,
ölülər
ölüb qurtarmayıb hələ.

*1967*

## NAZLILAR

Səhnə.
Elçinin evi[1].
Kölgələr başdaşına girir.
Kölgələr başdaşından çıxır.
Səhnədə Nazlı.
Gözü yaşlı.
Qısılıb anasının balağına,
ağlayır hıçqıra-hıçqıra,
Ağlayır zar-zar.

[1] "Ölülər tamaşasının rəssamı Elçinin dekorları nəzərdə tutulur.



Solunda sıra-sıra, yan-yana
nazlılar.
Heyrətlə baxırlar Nazlıya –
səhnədə ağlayana.
Salonda nazlılar
dəstə-dəstə
Səhnədə tək Nazlı,
körpə Nazlı,
bikömək Nazlı,
ölü Hacı Həsənin qızı,
diri İskəndərin bacısı.
İçi özünü,
çölü özgələri yandıranlardan
biri – İskəndərin bacısı.
Səhnədə dünənimiz –
Uzaq, yaxın illərin
göynəyi, acısı.
Nazlılar arasında
uzun bir yol;
dünyalar arasının
bir yönə yolu.
Nə illər,
nə əsrlərlə ölçülə bilən,
nə karvanla,
nə raketlə keçilə bilən
bir yol.
Bu yolun iki başında
nazlılar;
bu başda yeni dünyanın balaları,
o başda ölülər aləminin qurbanı.
Baxdıqca səhnəyə, salona,
çəkdi xəyalımı
sazaqlı günlərə
Cəlilin balaca Nazlısı,
Sabirin bədbəxt Tükəzbanı.

*1967*

## ZEYNƏBİN QİSASI

Yolum dünənə düşdü.
Danabaş kəndinə gəldim.
Zeynəbi gördüm.
Əhvalını sordum.
Ağladı yana-yana:
– Alan oldumu, – dedi, –
Xudayardan qisasımı?
Dedim: – Sakit ol, bacım!
Sən bir ömür çəkdin
həyatın zillətini, yasını,
Xudayar əsrlər qarşısında
alnı damğalı qaldı.
Sənin hayıfını
Mirzə Cəlil aldı.
Amma gözünə dönüm,
aldı, nə aldı!
Qayıtdım bu günə.
Zeynəbi gördüm Arazbasarda,
yeni məktəb binasında.
Sinif uşaqlarla dolu idi,
"Danabaş kəndinin əhvalatları" idi
bu gün dərsləri.
Ayaq saxladım, qulaq asdım.
Ləzzət verdi mənə, uşaqların
"Zeynəb müəllim, mən deyim,
mən deyim!" səsləri.

*1967*

## BƏLKƏ DƏ QAYTARDILAR

Nə çərkəzi çuxalı,
gümüş vəznəli,
nə sür papaqlı,
nə sabiq hörmətli,



sabiq torpaqlı...
Ancaq
dərdi dərdlər dərdi,
Ümidə haqlı
neçə ata, ana,
neçə övlad,
qardaş, bacı
qucaqlayıb dizlərini
yola dikib gözlərini
neçə qış,
neçə bahar
inlədilər:
– Bəlkə də qaytardılar!
Bəlkə də qaytardılar!
Bu, nə mülk-maaş,
nə yatır,
nə dəyirman dərdi idi.
Bu, sorağı qanlı yollarda itən
insan dərdi idi.
İndi də o günlərdən
ürəklərdə bir nigaranlıq,
bir səksəkə var.
İnsanlığın qəzəbi
sədd çəkməsə,
O ağır, o acı günləri,
bəlkə də qaytardılar,
bəlkə də qaytardılar.

*1967*

## KAMANÇA

Deyirlər, iki qardaş varmış:
Habil, Qabil.
İlk dəfə Qabil qardaş qanı töküb.
O gündən insanlıq üstünə

cinayət qarası çöküb.
Yəqin kamança çala bilmirmiş Habil.
Yoxsa çalardı.
Nə araya qan düşər,
nə kin-küdurət qalardı.
Qulaq asın Mirzə Cəlilin sözünə!
Nə ədavət saxlayın,
nə dava-dalaş salın!
İnsanda insan oyadın!
Kamança çalın!
Kim sındırsa kamançanı,
halaldır qanı!

*1967*



# *Təyyarədə düşüncələr*

## QANADLAR AMANINDA

Oturmuşam dörd motorluda,
Böyründə yazı: "Aer – İndi".
Ayaqlarım üzülüb yerdən
doqquz min, neçə metr.
Beş min neçə metr sudur,
Məni torpaqdan ayıran indi
dörd min metr hava.
Uçuruq;
buludları qanadlaya-qanadlaya,
şəfəqləri qova-qova.
Təyyarəmizin
üç qanad yolu var:
Sinqapur – Madras.
Madras – Bombey.
Bombey – Dehli
Üzümü yavaş-yavaş sığallayır
təyyarənin adambaşı bölünmüş
xəfif yeli.
Üstüm hava, yanım hava,
Aşağı baxıram, su, su.
Göz işlədikcə səyrişir
sürü-sürü dalğa quzusu...

## FİKRİM TƏLƏSİR

Suyu kəsilmiş bulaq kimi
dodaqlarımda qurudu,
Üzeyirin "Sənsiz"i.
Elə bil, nəğmə küsdü məndən.

Kim oxuya-oxuya çıxar yola
ucu-bucağı görünməyən
dəniz üstündə!
Bir dəniz ki, adı
"And-aman" ola.
Bu sahildən o sahilə
yolumuz yeddi hovur.
Xəyal xəyaldan qaçır.
Fikir fikri qovur.
Yaman işə düşdük, yaman.
Kim qoyub bu dənizin adını
"And-aman"?!
Bir inandığım yoxdur, and içəm.
Kimdən istəyim amanı?
Ömrümdə aman deməmişəm.
İstər vuruş olsun,
istər küsü,
istər barış.

Dəniz nə bilir,
And-aman nədir,
Yaxşı-yaman nədir?
Qarşımızda
kölgəsiz yolu təyyarəmizin.
Arxamızda ekvator.
Təki, qurtarmasın benzin.
Təki, sönməsin motor.
Qurtarsa belə,
sönsə belə,
fələk də bacara bilməz
insan qüdrətilə.
Düşünürəm:
Kimik? Nəyik? Hardayıq?
Öz-özümə deyirəm:
Bir xatırla, yada sal!
Nəhayətsiz boşluqda,
kiçik bir insan adası.



Biz olmasaq da,
uçacaq təyyarələr,
Yayılacaq fəzaya
motorların uğultusu.
Sədd çəkə bilməz insan iradəsinə
nə torpaq, nə hava, nə su...
Düşünürəm qürurla:
Mən insanam!
Ayın sinəsinə
bayraq asanam!
Ayağımın altında bir pillədir,
tarixin hər mərhələsi.
Zaman nə ağır gedir.
Fikrim nə yaman tələsir.

## QÜRUBU QOVA-QOVA

Günəş batanda görüb hamı,
Ancaq bu göy yolunun
dəniz axşamı
nə uzun olurmuş.
Elə bil, üfüqə ağır-ağır enir
qanlı qanad nəhəng bir quş.
Yolumuz günbatanadır.
Buludlardan süzülən şəfəqlər,
elə bil,
iplikləri yerdən göyə
tarım çəkilmiş
bir hanadır.
Sürətimiz dörd yüz doxsan.
Buludlar gah topa-topa görünür,
gah göylə yeksan.
Uçuruq qüruba sarı.
Çəkilmək bilmir üfüqdən
qürubun qanqırmızı işıqları.

# QƏLBİN DİLİ

Qurcuxur yerində
kürsübir qonşum.
Yata bilmir,
gözlərini yumsa da.
O kimdir?
Bəlkə intizarlı bir bacının qardaşı,
Bəlkə əziz bir ata;
barmağında üzük,
gözündə çeşmək,
şüşələri yepyekə.
Elə bil gözlərinə bərkidiblər,
həmişə gözündədir eynək.
Əynində dakron kostyum,
neylon köynək.
İngiliscə qırx üç kəlmə bilirəm.
Yığışdırıb
bu lüğət ehtiyatımı,
dodaqaltı deyirəm:
– Veri qut[1]
Sonra soruşuram:
– Yu lav?[2]
Lənətə gələsən şeytan!
Sevirsinizmi uçmağı?
Əllərimi yana uzadıb
işarə ilə başa salmaq istəyirəm:
Uçmaq, qanad!
O, bir müddət baxır üzümə
mat-mat.
Sonra ağzı dolu adam kimi,
nə isə deyir.
Ya mənim ingiliscəm

[1] Çox yaxşı (ingiliscə)
[2] Siz sevirsinizmi?



tərcüməyə möhtacdır,
ya o, keydir
Elə "ay si"[1] deyir,
"Yes"[2] deyir,
kəlməbaşı "okey"[3] deyir.
Anlaya bilmirik –
məni o, onu mən.
Sonra rəngli bir şəkil çıxarır
qoltuq cibindən.
Göy gözlü, sarı saçlı,
doqquz-on yaşlı
bir qız şəkli.
Qonşum
gülümsəyir və deyir:
– May dauhter[4]
Tez əlimi salıb cibimə
mən də bir şəkil çıxarıram:
– Bunlar da mənim
uşaqlarımdır, mister!
Gülə-gülə deyir: – Okey.
Ver qut.
İndi tərcüməsiz,
insan qəlbinin diliylə danışırıq
yavaş-yavaş
Gözlərimdə açılır çiçək-çiçək,
ümidli bir gələcək.
Yəqin o da belə düşünür.
Açılır alnının qırışıqları.
Salonda söndürürlər işıqları.
Qonşum girir qaranlığa.
Elə bil, yanımda yoxdur daha.
Qalıram tək-tənha.

[1] Görürəm
[2] Bəli
[3] Yaxşı
[4] Mənim qızımdır

Qəlbim, nanə yarpağı kimi əsir.
Qabaqda bahar var, çiçək var.
Qabaqda gələcək var.
Təyyarəmiz nə ağır uçur!
Fikrim nə yaman tələsir!
Qulaqlarımda oyanır
yeni bir nəğmə səsi.

## FİKRİM ÇIRPINIR

Görəsən, Bakıda xəzridir,
ya gilavar?
Görəsən, nə qədər hələ
sahilə var?
Görəsən, Mildə, Muğanda
novruzgülü açılıbmı indi?
Görəsən, burda okeanın dərinliyi
neçə mindir?
Görəsən, Neft daşlarında
qazım, dolum necədir?
Görəsən, Havanada indi işlər necədir?
Görəsən, üşümür ki, Bakıda,
Sahil parkında gəzişən körpələr?
Görəsən, Cakartanın
buxarlı havasında
yenə qar-qar qaynaşırmı
körpülər?
Görəsən, Bakıda, Qurucular
küçəsində
tikilib qurtardımı
o geniş pəncərəli bina?
Görəsən, bu il yenə
aclıq üz verəcəkmi Hindistana?
Görəsən, şair dostlarım
yeni nə yazıb?



Görəsən, Kəlküttədə o qoca riqşa,
nəfəsini dərə bildimi, yazıq?
Görəsən, qaranquşlar gələnə
nə qalır?
Zaman keçir,
"İndi"lər "bayaq" olur.
"Gələcək" yenə qalır.
Saat yeddidir – Moskva vaxtı.
Göylərdə qalmayıb gündüzün bir əsəri.
Kainatı doldurub indi yəqin
vətənimin "son xəbərlər"i.
Heyf ki, cihazım yoxdur
onları tutam.
Beynimi incidən fikirləri
bir az unudam.

## MƏNİ HUŞ APARMIŞDI

Dalğa quzuları hanı?
Qaranlıq udub okeanı.
Göydə ay,
yenicə yağlanmış, rənglənmiş
təkər kimi.
Aydan o yana ulduzluq.
Ay durub ulduzluğun qapısında,
sarı köynəkli əsgər kimi.
Hər yan ucsuz-bucaqsız fəza.
Bu fəza içində
təyyarəmiz toz boyda.
Dörd yandan bürüyüb məni
ulduzlar,
hərəsi,
novruz xonçasından asılmış
gümüş kağıza bükülü,
qoz boyda.

## TORPAQ HƏSRƏTİ

Üç saat qabaq qalxdıq
Sinqapurdan,
elə bil ki,
yüz ildir insana həsrətəm.
Torpağa həsrətəm.
Həsrətəm daşa, ağaca.
Tənhalıq qovur fikirlərimi
yol boyu,
arxamca qaça-qaça
həsrətim artır sinəmdə,
böyüyür,
vahiməyə dönür.
Gözlərimi yumuram
Gözümə göy zəmilər görünür.
Dostların üzü,
Vətənimin gündüzü görünür.
Balaca qızımın
nigaranlıq dolu
bir cüt qara gözü görünür.

## TƏNHALIQ

Göyün tənhalığı
nə yaman olurmuş.
Adamı dəli eləyər.
Göyün tənhalığı
hər sınaqdan yamandır,
hər qorxudan qorxuludur,
Min bir sualla doludur
göyün tənhalığı.
Nə bir insan səsi.
Nə bir ağac kölgəsi.
Ancaq nəhayətsizlik,
səssizlik...



## ARZU

Sərnişinlərdən yatan kim,
mürgüləyən kim.
Ancaq mənə elə gəlir ki,
bir qanadlıq yolu
yeddi saat sürən
bu təyyarədə bir mənəm,
bir də
beynimə qısılmış heyrətim.
Bircə səs eşidəydim.
Bircə anlığa indi
sevgilimlə qol-qola gedə biləydim.
Uzun bir ömür boyu
deyib, qurtara bilmədiyim
sevgimi bir də,
yenidən etiraf edə biləydim.

## İKİ NÖQTƏ ARASINDA

İnsan ömrü nədir?
İlk qışqırıqdan
son sükuta qədər bir yol.
Bu "ilk" və "sonun" arası doludur:
Ana şəfqəti,
vüsal,
intizar,
düşmən nifrəti,
məhəbbət acısı,
dost əlinin hərarəti,
arzuların ağrısı,
ümid qüvvəti.
Nə qədər çox olsa yenə,
az olan sevinclə,
nə qədər az olsa yenə,
çox olan kədərlə.

Nə bilim nələrlə.
Bəlkə sığallı, ətirli əllərin
unuduluşu qabil olmayan
təkrarsızlığı,
bəlkə bir sözün,
bir cüt mehriban gözün,
ağlı-qaralı ömrümüzün
təsəllisiylə, iynələriylə.
İlk qışqırıq
gələcək günlərin
vahiməsidir bəlkə?
Son sükut –
ömrün yorğunluğuna məlhəm –
sakit, sərin bir kölgə?!

## BAĞIŞLAYIN MƏNİ

Başımın üstündə
Heç kəsin olan göy.
Ayağımın altında
Heç kəsin olan okean.
Torpağın həsrətiylə –
bir yaşıl yarpağın həsrətiylə,
"Əzizim!" deyən
bir cüt solğun dodağın həsrətiylə,
o ki alış, o ki yan!
Yadıma dörd sətrim düşür:
"Mən hansı xanədə tutdumsa qərar,
Hər yetən piyadə bir şah elədi.
Neyləyim ki, belə kur taleyim var,
nadanları mənə ürcah elədi".
Hər sətrim, hər sözümçün
çəkin məni dara!
Ancaq qoparın məni,
bu göylərin boşluğundan,



bu tənhalığın sərxoşluğundan!
Yetirin məni,
yer üzünün yaraşığı,
gözlərində həyat işığı
insanlara!..

## YENƏ QANADLAR AMANINDA

Nə ümidsizliyin dilidir bu,
nə qorxunun.
Nəbzim də sakit vurur.
Gəlin, yoxlayın
barmağınızla toxunun.
Boynuna almasa da,
beyni bu fikirlərlə,
qəlbi bu hisslərlə dolu olur
ayağı yerdən üzülənlərdən çoxunun
Bəs, azı necə?
Təbiidir bu sual.
İnsan da müxtəlif olur
ağac kimi.
Barlısı, barsızı var.
Könlü qubarlısı var,
qubarsızı var.
Arlısı, arsızı var.
Ağrını alım,
qanadına dönüm,
Aer-İndi.
Şığı, get!
Ulduzlar arxadan
baxa-baxa qalsın.
Yaman acmışam,
hər şey bir qırağa qalsın.

*yanvar, 1961*

# *Hindistan dəftərindən*

## TAC-MAHAL

*Bir rəvayətə görə, Tac-Mahalı yaradanlar arasında bir azərbaycanlı memar da varmış.*

Hindistanın yolları
qorxulu nağıllara bənzəyir;
həm maraq doğurur,
həm vahiməlidir.
Hər döngəsi
gözlənilməz bir aləmə
açılan qapı.
Hindistanın yorğun gündüzləri,
nigaran gecələri var.
Hindistanın yollarında
dolaşıq düşür xəyal.
Dinlədim daşların
səssiz nəğməsini –
Tac-Mahalı!
Dayandım
insan əlilə yaranmış
mərmərlərin əfsanəsi ilə
üz-üzə.
Biri bura "Daşdan yonulmuş
şer" dedi,
biri "Görülməmiş möcüzə".
Gözlərimlə dinlədim
daşların ahəngini.
Burda gördüm
gecənin ala-bəzək rəngini.
Sənət mürgüləyir
mərmərin nur laylasında.



Ay işığı qalxır
dumanlı divarlara.
Kölgələr
səcdəyə düzülür
daş hasarlı suyun
aynasında,
yavaş-yavaş qalxıb
astana küncündən
xəstə hindli kimi.
Qolları ümidsizliklə bağlı,
dodaqları sükutla kilidli kimi.
Birdən açılır
əfsanələr qapısı;
ağ mərmər bir fəvvarə!
Tac-Mahal!
Salam! – dedim, –
soyuq və lal
gözəlliyin heykəli!
Səsim qat-qat dalğalandı.
Şirvanlı memarın
hənirtisi gəldi qulağıma.
Bir həzin qürbət nəğməsi oldu,
qondu dodağıma.
Dedim:
– Nə qəribədir sənətin yolu.
Daşların sükut nəğməsində yaşayır
uzaq keçmişin Vətən oğlu.

*1976*

## FİL VƏ FİLBAN

Caypur qədim şəhər deyil.
Bəlkə də filbanın yedəyindəki,
ağır-ağır addımlayan fil
Caypurdan çox-çox qocadır.

Baxırsan, xortumu yeddi qarış.
Üstündə zərli-zibalı kəcavə.
Ayaqları tir kimi.
Hər qulağı bir çadır.
Başını salıb aşağı,
Hər şeyə biganə,
gedir qoca fil.
Caypur elə köhnə deyil.
Demək olar, köhnə Dehli
onun ulu nənəsidir.
Caypur küçəsində gedir fil.
Baxırsan,
sallaqxanaya da aparsa,
onu bu yol,
Nə dönəsi,
nə dirənəsidir.
Filban istəsə "xıx" deyib
çökdürür onu dizi üstə.
İstəsə, xortumuna basıb,
tozlu ayağı ilə
qalxır onun belinə.
İstəyəndə, oxşayır, sığallayır,
İstəyəndə, toxmaqla vurur başına.
Nə gövdəsinə baxır,
nə yaşına.
Gedir Caypur küçəsində
qoca fil.
O, filbandan xeyli böyük,
dönə-dönə güclüdür.
Belindəki ağır yük
ömrünü saat-saat,
əsr-əsr çürüdür.
Gedir dinməz söyləməz.
Ovsarı filbanın əlində.
Düşünürəm yana-yana,
göynəyə-göynəyə:
Niyə, axı, niyə?!



Gözlərimdən gəlib keçir
Tarix, həyat varaq-varaq.
Görürəm ki,
zülmə qarşı mütilikdir dayanan
Ən qədim, ən modern
köləlik təməlində.
Yoxsa
xortumunu dolayıb filbana,
sıxıb suyunu çıxarmaq nədir ki,
ləpiri çala-çala
asfalta düşüb qalan
qoca filin əlində,
mütilik dayanmasa,
köləlik təməlində.

## ƏLLƏR İŞ İSTƏYİR, AĞIZLAR ÇÖRƏK

Hindlilər, nədənsə,
başlarını bürüyür;
yalın ayaq, açıq baldırsa da.
Biri başında aparır yükü;
üçü güclə onu yerdən qaldırsa da.
Şəhərlərdə küçələr, səkilər bölünüb.
ta ata-babadan.
Hər parçası bir külfətin
həm evi, həm həyatidir.
Bu səkidə, bu küçədə doğulur hindli,
burda boy atır,
burda ömrü başa vurub gedir.
Belə həyat neçə-neçə hindlinin
adi həyatıdır.
Belə yaşamayanlar da var.
Hamı üçün eyni həyat harda var!
Bir səs eşidirəm:
– Sahib! Sahib!
Baxıram mənə tərəf uzanmış ələ!

Elə bil, bir-birinə yapışmış
barmaq sümükləridir.
Elə bil, əl deyil,
quru ağaca çəkilmiş
qapqara dəridir.
Günlər, aylar, illərlə
işsiz qalmış insan əli.
Qara daşdan heykəl kimi,
dayanıb hindli.
Gözləri qəm dəryası,
dodaqları isitməli.
İnsan doğulur,
yaşayır,
ölür.
Bu hallardan ikisi az-çox
bənzəyir bir-birinə.
Əsl mətləb yaşamaqdadır.
Necə?
İnsan kimi?
Yoxsa bütün ömrü boyu,
hər gün,
ölüm körpüsündən keçə-keçə.
– Sahib! Sahib!
Verirəm xırda-xuruş nəyim var.
Alır, ölümdən möhlət alır, elə bil,
yorğun bir təbəssümlə.
Cadar-cadar dodaqları yalayır
qupquru dil.
Nə çıxar bu filantrop mərhəmətindən!
Qarın illərlə doya bilmirsə,
əlin hərəkətindən.

...Kaman çalınmasa, kökdən düşər,
toz basar.
Kotan işləməsə, paslanar.
Bəs insan əli?
İnsan əli işdən ayrılmasın, gərək.



Əllər iş istəyir,
ağızlar çörək.
Bəs iş hanı?
İş hanı?
Ürəyim şan-şan olur,
belə işsiz əllərlə
gördükcə Hindistanı.

*Dehli, 1963*

## DİLƏNÇİLƏR

### BİRİNCİ DİLƏNÇİ

Kəlküttədə,
tin başında durub, əllərində
taqəti qırılmış ömrün titrəyişi,
gözlərində qürub.
"Allah yolunda!" deyir.
Nə qollarının qüvvəti,
nə gözlərinin ümidi,
nə fəri qalıb.
On dörd baş külfətdən
üççə nəfəri qalıb.
Neçə gündür, dayanıb
bir doyumluq ruzi dilənir.
O tində şikəst qızı,
bazar başında arvadı,
bu tində özü dilənir.
– Var-yoxum beş rupidir.
Al, qoca, al!
Niyə üzümə baxırsan
belə heyrətlə, belə lal?
Al, qoca!
Olanım budur;
üstü beş yazılı bu rupi.

Bəlkə beş gün yubandı
ömrünün qürubu.
Deyəsən, qoca istəyir nəsə deyə.
Deyəsən, qoca inana bilmir
bu sədəqəyə.
Göz yaşları süzülür
tozlu yanaqlarından onun,
düşür üstü boş,
tozlu dəsmala.
Bəlkə də
əl açmazdı tin başında o
bir işi,
ya bir kəsbi ola.
Bilmirəm adamların
yaxşısıdır, ya pisidir.
Görürəm, qoca,
çörək dilənçisidir.

İKİNCİ DİLƏNÇİ

Gördüklərimi danışdım
bir dostuma.
Dedi: – Yazıq qoca!
Zavallı qoca!
Ancaq,
həzər eləsindən ki, ömrü boyu
yer davası çəkə,
rütbə axtara,
post uma.
Belə birini tanıyıram;
yaxşı evi-eşiyi,
oğul-uşağı.
Nə hörməti kəsirdir,
nə mövqeyi aşağı.
Ehtiyacı olmayıb
çörəyə, aşa.



Ancaq ömür sürür
deyinə-deyinə, dalaşa-dalaşa.
Boyu miyanə, özü şişman.
Allah əsirgəsin, dilinə düşməyək;
ömür boyu əl çəkməz yaxamızdan.
Kök dedim, arıqlaya da bilər.
Ağırlığı boyundan
az gələ də bilər.
Rahat yaşaya da bilər,
dincələ də bilər,
qoysa içi;
bir an aram olsa
ürəyində, beynindəki
pıç-pıçı.
Həm əzvaydır, həm qarayaxa.
Bir tərif üçün
günlərlə donub qalar –
ağızlara, əllərə baxa-baxa.
Fotoobyektivə yaman hərisdir.
Yay ola, qış ola,
üç gün ac qalar, beş-on tərif xətrinə,
ya bir çimdik alqış ola.
Qəzet oxusa,
maraqlandırmaz onu hadisə, fikir.
Ancaq adının kimdən qabaq,
kimdən sonra gəldiyinin dərdini çəkir.
Deməm adamların
yaxşısıdır, ya pisidir.
Bu da bir növ dilənçidir;
şöhrət dilənçisidir,
tərif dilənçisidir.

*1962*

# *Suriya dəftərindən*

## ƏRƏB QIZI

Ala gözlü ərəb qızı!
Baxışında o qəm nədir?
Yoxsa ömrün səadəti
əlçatmaz bir əfsanədir?

Kim apardı gülüşünü,
sənə verdi göz yanığı.
Yanağında od görürəm,
Dodağında söz yanığı.

Ala gözlü ərəb qızı,
nəğmələrin nə duzludur.
Yoxsa sənin əkizindir,
Belə yanıq susuzludur.

Ala gözlü ərəb qızı,
kim qaraltdı gündüzünü?
Ahın bir qəm küləyidir,
gəzir-gəzir yer üzünü.

Vida etmə xoş arzuna!
Qarşıdadır həyat, qızım!
Çətin sınaq günlərində
Ümidini oyat, qızım!

Ala gözlü ərəb qızı,
baxışında qəm olmasın.
Yeni həyat yollarında
Kirpiklərin nəm olmasın.



## PALMİRA

Səhra!
Səhra!
Nə ucu var, nə bucağı.
Günəş yandıra-yandıra
qovurub daşı, torpağı.
Hər damcı su – qan bahasına.
Üfüqdə, ilğım üstündə
dəvə karvanları –
sapa düzülmüş
kələ-kötür muncuq.
Hərdən, bu boz,
bu quru düzəndə
görünür bir damcı yaşıl –
qızıl sinəbənddə
zümrüd üzük qaşı.
Yol gedir, getdikcə
nə duracağı var,
nə qurtarır.
Başı örtülü sürücü ərəb
dililə isladır
qupquru dodaqlarını.
Tez-tez, göydə par-par yanan
günəşə baxır.
Siqaret verirəm ona.
"Şükran" deyib
alır, qoyur döş cibinə.
Orucdur.
Versin, gərək.
Bu, müqəddəs borcdur.
Yol uzanır uzandıqca.
Qıp-qısalmış kölgəmiz
yanımızca gəlir,
qaça-qaça.
Birdən sürücü basır əyləci.
Əlini götürür sükandan.
Düşür maşından.

Açır bir əlcə canamazını,
Sərir yol kənarına.
Başlayır günorta namazını.
Ağzı oruc.
Ümidi yorğun.
Dilində "Allahü-əkbər!"
Nəsil-nəsil ərəb oğlu
bu yoldan keçib gəlib,
Meracdan bu günə qədər.
Bu da onlardan biri.
"Nə gəlsə allahdandır,
bəla, səadət,
sevinc, fəlakət"
Bəlkə də belə düşünmür
yolçumuz – sürücü.
Bəlkə də onu oyatmışdır
sürəti yüzdən artıq avtonun gücü.
Baxdıqca onun bu 38 dərəcə istidə
Başına bərk-bərk bürüdüyü
lapar-lapar şalına,
arıq, yanıq sifətindəki
çil-çil xalına,
köhnə, yamaqlı canamazına,
qulaq asdıqca onun
pıçıltılı, etiqadlı "Allahü-əkbər"inə –
bir anlıq qoyuram özümü
sürücü ərəbin yerinə.
Neyləsin, neyləsin inanmasın.
Torpaq ac!
Suya möhtac,
əkin yeri bir qulac!
Özü, il boyu yalavac!
Nəsil-nəsil
ağır vergi, zalım xərac!
Zaman-zaman kürəyini yandıran qırbac!
Varını, yoxunu yadlar aparıb;
"minnətdar ol bizə", – deyə.
"Mədəniyyət yollarında



almışıq səni yedəyə.
Ev-eşikdə işlət ana dilini.
Ali məclislərdə ağa dilini.
Taleyinin qəyyumu – darğa dilini!
Sən, bir ovucsan,
biz koloniyaçı ağalar,
bir dünya, bir okean!
Neyləyəcəksən qüvvətə qarşı,
o ki yıxıl, o ki yan!"
"Çək bu dünyada əzabı, deyiblər.
O dünya var,
cənnət var.
Hurisi, qılmanı ilə.
Keçəcəksən qıl körpünü
qəlbinin etiqadı, imanilə.
Bu gün qırmısansa da,
köləlik zəncirini;
hələlik ata bilməmisən
beyninə həkk olunmuş
qorxu, nigaranlığın
yüzdə birini".
Qurtardı namaz.
Büküldü canamaz.
Sürücü qoşdu radiocihazı.
Başladı uzaq ölkənin
şit, şılıq cazı.
"Əstəğfürullah", – deyib,
sürücü dəyişdi dalğanı;
süzüb bizi yanı-yanı.
Qurtaran deyil, deyəsən,
mürgülü səhranın
acı bağırsaq yolu.
Baxdıqca göz qaralır,
səbr, dözüm yorulur.
Üfüqlər bılbıla tor olur.
Birdən
alçaq təpələrin
aşırımından o taya

başladı bir nağıl,
açıldı əfsanə mənzərəsi.
Yaşıllığa bürünmüş binalar,
Küçələr, meydanlar, xurma bağları.
Yeni Palmira!
Umsuq olduq, deyəsən,
Hanı adı dillərdə gəzən qədim Palmira!
Hanı uzaq keçmişin
ölümsüz abidələri!
Fikrimi duymuş kimi,
sürücü əlilə göstərir
qarşıdakı ağacsızlığı,
dağınıq daş bozartısını.
Maşından endik.
Elə bil qaynar paltar geyindik.
Ayaq saxladıq bir an
dərək nəfəsimizi.
Çəkdi qüvvətli maqnit kimi bizi,
əfsanəvi keçmişin
daşlarda donub qalmış izi.
Qarış-qarış gəzdikcə
üzlər görmüş
bu daşlar xərabəsini.
Seyr etdikcə,
daş sütunlar, divarlar
möhtəşəm sarayların
qartımış qalığını,
Gördükcə buqələmunların
əqrəblərin, hörümçəklərin ağalığını,
xəyal aparır məni
əsrlərin uzaqlığına.
Gözlərimdə canlanır
mərmər sütunlu,
gümüş fəvvarəli neçə bina.
Əlvan güllərin, çiçəklərin naxışı.
Boynu kündəli əsirlər.
Alnı damğalı qullar.
Ağır yüklü dəvə karvanları,



çeşmə-çeşmə tər.
Çoxların iztirabı, azların nəşəsi.
Rəqqasə qızların
əyləndirmək peşəsi.
Sanki, aydın görürəm
Palmiranın qalxımını, düşümünü,
gecələrin şam alovu – qızılını,
Gündüzlərin günəşli gümüşünü
Hər yanda insan əlilə cilalanmış
daşların səltənəti.
Bir zaman çiçəklənən Palmiranın
dilsiz şahidləri.
Hanı o təmtəraq!
Hanı bir zaman qüdrətli Romanın
qılınc cəngavərləri,
basqın igidləri!
Yoxsa bu sığallı mərmər məhəccərlər
incə gözəllərin
rəqsdə qaldırdıqları biləklərdir;
heyrətdə donub qalıb.
Sanki eşidirəm qanlı döyüşlərin
fəryadını, harayını;
qılınc, qalxan səsini.
Görürəm qan dəryasında söndürülən
üsyanların şöləsini.
Düşünürəm, həm yaradan,
həm dağıdan – insan!
Yaratmaq nə çətindir,
dağıtmaq nə asan!
Hər sınıq daş sütunda
daş oyumlarının
əsr-əsr sükutunda
Nə qədər insan zəkasının
izi qalıb.
Nə qədər insan faciəsinə
şahid olub,
bu qəlpə-qəlpə daşlar,
bu şırımlı yollar.

Üç min illik uzaqlardan
sorağı gəlir Palmiranın.
Acı, şirin olumlarla
Dopdoludur hər yüz ili,
hər bir anı.
Vahiməli məbədlərdən,
gözəl, qorxunc saraylardan.
Təntənəli bayramlardan,
o illərdən, o aylardan nə qalıb?
Bir xərabə səltənət,
qəmli viranə qalıb.
Bəlkə sürücümüz ərəb oğlunun
ulu-ulu babası,
Palmiranı tikənlərdən,
bəlkə yıxanlardan olub.
Bəlkə gecəsi, gündüzü iztirab,
adi bir kölə olub.
İllər keçib,
o kölənin sümükləri,
qolundakı zəncirləri
torpaq altında külə dönüb.
Bəlkə bu kölə əllərinin məharəti
indi mərmərlərin üzərində
yarpaq-yarpaq
rəngi solmuş gülə dönüb.
Biz gəzdikcə Palmiranı
görürəm ki, sürücümüz
dərin fikrə qərq olmuşdur.
Bəlkə gördükləri onu düşündürür.
Bəlkə uzun yolçuluqdan yorulmuşdur.
İstəyirəm deyəm ona:
Ağzı oruc ərəb oğlu!
Mən bilmirəm,
sən də yəqin bilmirsən ki,
burda insan övladının
xoşbəxt günü
necə olmuş,
haçan olmuş.



Mən bilirəm,
sən də bil ki,
nə ibadət, nə mütilik
insanlara
xilas yolu
açan olmuş.

*1967–1976*

## DAŞ İZDİHAM

Torpaq acı, qəhvəyi.
daşlar qara, qırmızı.
Ucu-bucağı yoxdur səhranın.
Elə bil ki,
dalğasız okeanın üstüdür.
Elə bil,
neft daşıyan
neçə min tonluq gəmi
qəzaya uğramışdır;
acı-qəhvəyi mazut
tökülüb bu yerlərə.
Hər tərəf daş,
daş
və daş.
Yığılıb qatar-qatar.
Düzülüb alay-alay.
Axıb çıxmaq istəyir,
yollara.

## İNSAN

Ərəb!
Başında solğun bir yaylıq –
kərpic-kərpic.
Başındakı bu parça
ərəbin həm yaylığı,
həm yazlığı, qışlığı,
həm də payızlığıdır.

Ərəb yol üstə tənha
bardaş qurub oturub,
əli qoynunda.
Dərin fikirlərə qərq olub.
Yorğun gözü yol çəkir.
Nə dəvəsi var onun,
nə qatırı var onun,
nə atı,
nə çantası,
nə yatırı var onun.
Bir dözümsüz həyatı!
Bir dözümlü ürəyi!
Vəssalam!
İki gözdə
bu qədər qəm, kədər
necə, necə sığışıb?
Baxırsan əllərinə;
iki əlin üstündə
ağır illər dərdinin
dərin-dərin qırışı,
necə, necə yığışıb!

## TORPAQ VƏ DÜŞÜNCƏLƏR

Bəlkə bu quru torpaq
bir zamanlar yaş olub.
Bəlkə bu səhralara
ziyil-ziyil yayılmış
daşlar, göz yaşı imiş,
qanlı göz yaşı imiş;
insanların ahından
yanıb, yanıb
daş olub.
Bu torpaqdan bir ovuc,
alıb qoxla, a qardaş!
Gözlərində canlanar
qərinələr, əsrlər.
Ayaqlarının izi



torpaq altında qalmış,
gözü qanlı fatehlər,
uzaq elli əsirlər.
Şair "ənəlhəq!" – dedi,
dərisini soydular.
Bəlkə bizim ellərin
əsir gözəlləri də
bu torpağın üstündə
qat-qat qabıq qoydular.
Bu torpaq nə çəkmədi
və nələr çəkdirmədi,
bir daş olana qədər!
Torpaq dincəlməyəcək?
Gözləsinmi baharı
dünyanın insanları
qardaş olana qədər?
Bu gün uzaqdır, uzaq,
Uzaqda qaldıqca biz;
azadlıq yollarında
birləşməsə əlimiz.

## SƏSLƏR

Partlayış səslərindən
tez-tez göylər titrəyir.
Gurultular içində
nəğmə səsi bitməyir.
Burda döyüş nəğməsi,
məhəbbət nəğməsi var.
Burda qurur, yaradır
torpağını, adını,
tarixini, dilini,
bu günün gerçəyini,
arzuların, inamın,
ümidin çiçəyini,
sabahını qoruyur
insanlar.
Gurultu gah bombadır,

Gah mərmi, gah qumbara.
Gah adi partlayışdır.
Fərata "dayan!" deyir,
səhraya "oyan!" deyir.
Yollar açır yollara.
Bir yanda gurultular
insana qəsd üçündür.
Güllələr alovundan
yollar düyün-düyündür.
Bir tərəfdə quruluş,
yeni həyat səsləri.
Bir yanda silahlı xalq
ayıq-sayıq gözləyir,
soxulmasın bu yerə
yad elin nakəsləri.
Partlayış səslərinin
yönü başqa-başqadır.
Birindən yeni aləm, –
bəndlər, evlər yüksəlir,
birindən qan, kül, cəsəd,
parça-parça daş qalır.

## ÜMEYƏ MƏSCİDİ

Nələrə qadir deyil
yaradan insan əli.
Ümeyə məscidində
nələr yoxdur görməli.
Tava daşlar, sütunlar
illərdən qaralmayıb.
Tarixin keşməkeşli,
fırtınalı günləri
böyük sənətkarların
əllərilə yaranmış
gözəlliklər üstünə
bir kölgə də salmayıb.
Sənətkar qocalmayıb,
sənəti qocalmayıb.



## DƏMƏŞQİ GÖRMƏYƏ YÜZ GÜN GƏRƏK

Dəməşqin küçələri
bir-birindən fərqlidir.
Biri xəfə, qaranlıq,
o biri şəfəqlidir.
Mehmanxana – fünduqlar
hər tingədə az qala.
Bir küçədə baxırsan
modern evlər,
bir küçə
min bir "Min bir gecə"ni
çəkib, çəkib gətirir
xəyala.

## TƏZADLARDAN BİRİ

Dəməşqin civarında
Zeynəbin məqbərəsi
alışıb par-par yanır.
Ətrafda neçə aciz,
neçə qaçqın, didərgin,
neçə yurdsuz, yuvasız
boynu buruq dayanır.
Fələstindən gələn də,
Ürdündən gələn də var.
Keçmişdən burda sakin,
bu gündən gələn də var.
Deyirlər, Həzrət Zeynəb
əfsurdələrdən olub;
layiqdir ehtirama.
Sözüm yox! Olsun!
Ancaq
on üç yüz il keçmişdir,
onun müsibətindən.
Fələstinli, ürdünlü
bu zavallılar, amma

ac-yalavac qalıblar
bu günün canlı, müdhiş,
çılpaq həqiqətindən.
Altı milyon xərclənib
məqbərənin içində
zər-minalı günbəzə.
Altı həftə yol gəlib
ürdünlü qız Səkinə
ayaqyalın, başıaçıq,
aclığa, susuzluğa
qorxuya dözə-dözə.

## YOLLAR

Yollar müasir, asfalt.
Evlər müasir – onqat.
Təyyarə meydanları.
Dəzgahlı fabrik, zavod.
Tumanı qısa qızlar.
Vitrindən gəl-gəl deyir.
Yerli qılınc, qalxanlar.
Yadelli üz qırxanlar.
Mənimsə xatirimdə
dərin iz salıb qalan
nə əlvan mağazalar,
nə sürməgöz qızlardır,
nə qövsi-qüzeh elan.
Yollar boyu
torpağın sinəsindən
qalxaraq,
dinməz-söyləməz duran
daşların qatarıdır.
Mənə elə gəldi ki,
Onlar Suriya xalqının
düşmənə qarşı qalxmış
qəzəb yumruqlarıdır.

*1969*



# *İraq xatirələri*

## BAĞDAD

Bir dekabr günü gəldim Bağdada.
Havası mülayim, istisi babət;
otuz dərəcə.
Həm də gündüz yox, gecə.
Gündüzləri bir az qalxır
hərarət.
Nə Şəhrizad var,
Nə Harun ər-Rəşid.
Müasir evlər, meydanlar.
Beş mərtəbəli bina boyu
kinoreklamlar –
tük ürpədici və şit.
Harun adına
Uzun bir küçə qalıb.
Küçədə yeni otel –
"Findiqul – İraq".
Bağdadı gəzdikcə,
şəhər maraqlı bir kitab kimi
açılır varaq-varaq...
Əsrlər dayanıb yan-yana.
Bir küçədə iyirminci,
o birində onuncu əsr.
Birində liftlə qalxırlar
yeddi mərtəbəyə.
Birində daxmalar:
yanı qamış,
üstü həsir.
Dəclə!
Dəmir körpü!

Hər tağı yüz qulac.
Körpü başında əl açır,
keçib gedənə,
yüz yetim, yüz ac.
Bir yanda Kazimeyn;
üstündə aypara.
Qızıl minarələri qalxıb
buluda həsrət göylərə,
şəkli durğun gölə düşmüş
nəhəng şamların
narıncı şöləsi tək.
Minarələrdən
radio gündə beş dəfə yayır
əzan səsini,
adicə bir nəğmə səsi tək –
həzin, kədərli,
Radioya nə var.
Caz da verə bilər,
namaz da.
Saksafon da çala bilər,
saz da.
Bağdad söhbəti uzundur,
"Min bir gecə" kimi uzun.
Hələlik mənzərələrindən deyim,
Bağdad – Kərbəla yolumuzun.

## ÜMİD

Həzin olur Bağdadda
Dəclə sahilinin axşamları
Yaddaşımın qafiyəxanasından,
salamsız, kəlamsız,
düşür kağıza sözlər:
"ağ şamları".
Nəyin ağ şamları, atam?
Bağdadınmı?



Şamları niyə?
Axı Bağdad küçələri
Kəhrəba çıraqlarla doludur.
Qafiyəbazlığın elə
bu işi qorxuludur.
Nə isə süxən-kütah.
Qələmə pənah.

Sahil.
Qaranlıq udub Dəcləni.
Bəlkə yorğun sular
salıb üstünə qara gecəni.
Qarşı sahil görünmür.
Bu sahildə,
tonqal başında, oturub balıqçılar.
Tavada cızhacız
qovrulur balıq.
Alov yelpiclərdən
titrəyir kölgələr.
Qaralmış kösöv kimi görünür
yan-yana düzülmüş qıçlar.
Qoca bir xurma ağacı
başını salıb axşamın qoynuna
yatıb, sakit.
Qaranlıqda əriyib xurmalıqlar.
Köz yığılıb qan çanağı kimi
Balıqçıların ocağına.
Qoca ərəb
çağırır avazla:
– Balığa gəl, balığa!
Bişmişi var, çiyi var.
Böyüyü, kiçiyi var.
Balığa gəl, balığa!
Bu səs saxsı qab kimi
sınır, tökülür ortalığa.
Uzun sürür qocanın
öskürəkləri.

Alov işığında
qaranlıqdan gah çıxır
gah batır
yamaqlı qayıq və
yanından qırıq qol kimi sallanan
kürəkləri.
Balıqçılar yorğun-yorğun
dinləyirlər
bir cavan balıqçının
"Min bir gecə" hekayətini...
"Qızıl balıq" dəyişdi donunu,
qız oldu,
qız nə qız!
Dünya gözəli
Qızıldan başmağı.
Zərbafdan arxalığı.
Nar məmələri ipək köynək sıxır.
Qız nə qız?
Aya deyir sən çıxma, mən çıxım.
Günə deyir sən çıxma, mən çıxım.
Kim belə qızdan keçər?
Toy uzandı
qırx gün, qırx gecə.

Yavaş-yavaş kül örtür
ocağın közünü.
Qaranlıq daha yaxın verir özünü.
Gecə axşamdan alır
zülmət növbəsini.
Qoca xurma ağacı yatıb,
eşitmir qoca balıqçının
ümidsiz səsini.
Közü sönmüş ocağın
kösövlərini yığa-yığa
balıqçı inləyir:
– Balığa gəl, balığa!
Tava soyuq;



içində qızarmış balığı.
Qara bir sükut
qucaqlayıb ortalığı
Sükuta qüvvət verir
narın ləpələrin sahillə pıçıltısı.
Qoca Dəclə!
İstər sakit ax,
istər dalğalan,
bu axşam gəlmədi,
bu gecə gəlməyəcək
balıq alan.
Qurtardı "Min bir gecə" hekayəti,
Bəs min ikinci gecə?
Nəsil-nəsil başlanan ümid,
çıxarmı heçə!
Bir gün gələr
adi balıq
dünya gözəli bir qız olar.
Nə bilim, neçə min,
nə bilim, neçənci gecə...

*Bağdad, 1960*

## MAŞIN OLANDA NƏ OLAR

Bir maşına oturduq,
nə böyükdür, nə kiçik.
Üstü bütöv,
yanı calaq.
Ortaca bir kadillak
Qapısını açmışdılar
hər iki yandan.
Bir-bir dolduq içəri.
Beş turist, bir dilmanc,
bir bələdçi ərəb,
bir də onun on iki yaşlı oğlu.

Bir də...
Təəccüblə baxdıq biri-birimizə.
Neçə adam tutar bir maşın?
Bələdçinin bir tanışı da
girdi maşına.
Sürücü buz əridən bir nəzakətlə dedi:
– Lütfən, bir az sıxlaşın!
Hərəkət etdi maşın.
Nə işıqfor,
nə bir polis ki,
yol göstərə.
Sürücüyə nə var;
nə güc düşsə,
düşür təkərə.

*Bağdad, 1961*

## YOLDA

Günəşdə qovrulmuş qum səhrası.
Suyu qara bir kanal kimi
uzanıb gedən asfalt zolaq.
Üç aylıq yolunu dəvə karvanlarının
bir günlük eləyib
Şevrale, Ford, Kreysler.
Yolları büküb yığıb altına
hər yandan Bağdada uzanan relslər.
Yol boyu düzülüb dükanlar.
Hər dükanda nə desən var.
Sarıkök, baş yağı,
Qasimin şəkli,
çəkmə bağı,
əl-üz dəsmalı –
qırmızı xoruzlu,
əlvan çiçəkli.
Çini boşqab, saqqız.



Köhnə kitab.
Naməlum bir şirçinin çəkdiyi
mərmər hovuzda
"şümşad" bədənli qız.
Yol uzundur,
ayrıcları çox.
İstəyirsən Kərbəlaya get,
istəyirsən Nəcəfə.
Meylin var ziyarətə get,
meylin var kefə.
Ax, bu "Koka-kola",
"Pepsi-kola"
Hər yanı tutub,
yol vermirlər yola.
Zəvvarlar örtür üzünü əba ilə
reklam lövhəsində
yarıçılpaq qızların
adamı yüz fikrə salan
vücudunu görməmək üçün.
Təsbeh çevirir,
"sübhan-allah" deyir,
şeytana lənət oxuyurlar
imanlarına kömək üçün.
Buranın səliqəsi,
əsrlik qaydası var.
Hər şeyin özünə görə yeri,
öz faydası var.
İman öz yerində,
imam öz yerində.
Ticarət öz yerində,
qarət öz yerində.
Yenilik öz yerində.
Köhnə adət öz yerində.

## KƏRBƏLA

Kərbəla əlvan bir arı yuvasıdır.
Yüz Fəratın suyunu aç bura,
nə tozunu yatırası,
nə kirini yuyasıdır.
Baxdıqca heyrət bürüyür səni.
Bir imam,
minlərlə bekar adam.
Dörd yanı bəzəkli darvaza!
Geniş bir həyət.
Adam, adam, adam...
Hərədə bir arzu, bir niyyət.
Həyətin ortasında
qızıl qübbəli məscid.
Məsciddə məqbərə.
Məqbərənin dörd yanı gümüş hasar.
Qurd ürəyi yemiş olsan, yenə
burda səni dəhşət basar.
Məqbərənin dörd yanında
günlərlə üzüqoylu yatan kim,
diz üstə çökən kim,
saçların çəngə-çəngə yolub
yerə tökən kim...
Ağlayır qocalar,
ahıllar, cavanlar.
Ağlayır sonsuz gəlinlər,
əliuşaqlılar.
Ağlamayanlar da var:
qırmızısifət,
qara təsbeh,
göy qurşaqlılar.



## ANA, DƏRDİN NƏDİR?

Bir qadın qısılıb gümüş hasara.
Çəftədən tutub ağlayır.
Elə ağlayır ki,
elə bil,
qəlbinin tellərini
dəmir dişli daraqla
darayır ağır-ağır.
Qadın yana-yana ağlayır.
Elə ağlayır ki,
elə bil, göz yaşları
qaynar qurğuşun damcılarıdır,
qəlbinə yağır.
Qadın ağlayır.
Ərəb dili bilsəydim,
soruşardım: – Ana,
dərdin nədir?
Niyə ağlayırsan belə yana-yana?
Hansı yaradır səni
göyüm-göyüm göynədir?
Bir düşün, ana!
On dörd yüz il boyu
bura dəxil düşənlər
tapmış olsaydı dərdinin çarəsini,
diləyini almış olsaydı,
hamısını ağa burdan
gülər üzlə, doğrulmuş muradla,
yola salmış olsaydı,
dünyada kim qalardı
gözü yaşlı, ürəyi dağlı?!
Kim gələrdi, bəs indi bura,
illəri aşa-aşa,
yolları yora-yora?
Mən sənin inamına gülmürəm, yox!
Mən sənin imanına gülmürəm, yox!
Mən səni qınamıram.

Ancaq bu hikməti qanammıram.
Niyə sən,
diri canını
ölülərə qurban verirsən!
Bircə düşün!
O gümüş hasara sürtülüb
əridikcə döşün,
ümidlərin də əriyir, axı.
Xəstəsən, həkimə get!
Bekarsan, iş axtar!
Nə görmüsən bu ağlamaqda?
İş tapa bilmirsən,
səbəbini düşün!
Neçin, niyə?
Nə qədər dözəcəksən,
allahdan bildiyin,
möhnətli günlərə,
ömür dediyin
bu dünya cəhənnəminə,
həyat dediyin bu işgəncəyə?!
Burda arzular çürüntüsündən,
göz yaşı sulağından
doymuşdur torpaq
Gözlərini qaldır yerdən,
bir göyə bax.
Göydə günəş var, ana!
Gecələr bəzəyir aləmi
qızılı ay, gümüşü ulduzlar...
Dünyada yaşıl yarpaqlı ağac,
sərin, duru su var.
Dünyada insan həvəsi,
könül arzusu var.
Göz yaşından, yalvarışdan
qənaət və mütilikdən başqa
bir aləm də var.
Doğrudur, dünyada qəm də var.
Ancaq sevinci də var dünyanın,



mənası da var
hər günün, hər anın.
Yalvarmaq üçün yox,
yaratmaq üçün doğulub insanlar.
Qopar, ana,
əllərini o cəftədən, qopar!
Dərdini, ümidini
insanlara söylə,
insanlara apar!
Ölülər yox, dirilər
sənin əsr-əsr qövr eləyən
dərdinə çarə tapar.
Qopar, ana, əllərini
o gümüş cəftədən, qopar!
O əllər azad olsa,
Hər dərdə çarə tapar!

## SABİRLƏ GÖRÜŞ

İraqda bir şəhər var: Kərkük.
Bizimcə danışırlar orda.
Gah türkmən deyirlər onlara,
gah gəlmə, gah türk.
Bayatılarından deyim birini.
Özünüz açarsınız
bu bilməcənin sirrini.
"Oxuyandı.
Yar kitab oxuyandı.
Ox atdı məni vursun,
sinəmdə oxu yandı".
Aydın deyilsə məsələ,
bir sözüm də var hələ.
Kərkükdə kitab mağazasına getdim.
Azərbaycanca dedim: – Əmi,
köhnədən, təzədən nəyin var?
Cavab verdi:

– Tapılar.
Ən qiymətli kitablarımız burdadır:
aşağıdan üçüncü qəfəsə.
Kitabları araşdırdım bir nəfəsə.
Götürdüm onu, qoydum bunu;
hörmətlə, bir-bir.
Birdən heyrət aldı məni.
Bu nədir?
Şirvanlı Sabir!..
Gözümə inanmadım.
Açdım "Hophopnamə"ni.
Bir sevinc, bir qürur hissi
qanadında qaldırdı məni.
– Xoş gördük, əzizim!
Möhnətli ömrünün varaqları
bu dərdli ellərə də gəlib çıxıb.
Səni burda da oxuyurlar.
Bundan artıq ölümsüzlükmü olar!?
Qoca gördü həyəcanımı, sevincimi,
yavaşdan dedi: – "Əziz qonaq!
Hansı kitabı istəsən, qurbandır.
Ancaq
Sabiri istəmə.
Hər gün
neçə adam gəlir onunçün üstümə.
Demişəm, satmaram "Hophop"u.
Kim onu sat desə,
elə bil, ürəyim yerindən qopur".
Əl verib ayrılanda
dedim: – Sağ ol, əmi!
Elə bil, bağışladın mənə
sevinc dolu
böyük bir aləmi.

*1961*



## ŞƏTTÜLƏRƏB

Xurmaları daşıdılır
gəmi-gəmi,
Şəttülərəb!
Ərəbə bir qamış daxma qaldı
bir də dərdi, qəmi,
Şəttülərəb!
Durna keçir qatar-qatar,
kölgələri düşür suya,
Şəttülərəb!
Daha neçə il gərəkdir
bir ümidə, bir arzuya,
Şəttülərəb!
Suyun axır, axır, axır,
Şəttülərəb!
Ümidin də, arzunun da hüdudu var.
Səbrin yeri kasa deyil, dərya olsa,
o da bir gün daşar, axı,
Şəttülərəb!

*Bəsrə, 1960*

# *Yaponiya motivləri*

## ZƏLZƏLƏLƏR ÜSTÜNDƏ

Tokionun, elə bil, nə uzunu var,
nə eni.
Dalğalı bir dənizdir
Tokio, –
insan dənizi.
Buluddan baxsan,
bir qarışqa yuvasıdır,
ucsuz-bucaqsız
Tez-tez diksinir
altında torpaq.
Hər qarışı Yaponiyanın
ya vulkanlayıb,
ya vulkanlayacaq.
Tokio zəlzələlər üstündə
canbazdır.
Küçələri rəng-rəng fanarlı,
kafeli, kazinolu.
Bağçaları qara güllərlə bəzəklidir
Tokionun.
Keyşələrin çağırıcı baxışları.
Musiqi, rəqs, mahnı.
Piyalələrin cingiltisi.
Kimanoların əlvan naxışı.
Minlərin qazancı.
Milyonların itkisi.
Əzələlərin dartımı.
Ümid çırpıntısı.
İyenlərin quduz artımı.
Ən modern texnikanın
möcüzəsi.



Gülüşürlər.
Doğru, yalan sözlər.
Hamısı yer üzündə.
Yaxın-uzaq zəlzələlərin
əsəbi titrəyişi,
torpaq altında, dərində.
Hamısından da xəbərli yaşayır
tokiolular.
İnsanların
sevincdən, qəmdən keçən,
mübarizədən keçən
YAŞAMAQ adlı bir yolu var.
Bu yoldadır həyatın
müjdələri, tələsi.
Bu yoldadır canlıların,
vulkandan da qəzəbli
ölüm-dirim zəlzələsi.

*1974*

## KEYŞƏ

"Badam gözlü keyşə!
Belə məhzun dayanmısan,
kədərlisən, neyşə?"
Keyşə dinmədi.
Baxdı mənə
uzaq-uzaq baxışlarla.
O gözlərdə nələr vardı, nələr!
Qiymәti kəsilmiş təbəssümün
acısı.
Gözləri piyli ehtirasla
geyişə-geyişə,
eyham atanlara nifrət.
Bir də...
Adi insan məhəbbətinə
ümidsiz həsrət.

*1974*

## XİROSİMANIN İKİ YÜZ MİNLİK QURBANI HAQQINDA SƏTİRLƏR

Vardılar:
ağ çiçəkli vişnə ağacları,
küçəni əl-ətək keçən uşaqlar,
yol boyu dayanmış maşınlar.
Vardılar:
quş səsləri,
nəğmələr, gülüşlər,
insan nəfəsi.
Bir gurultu...
Günəşdən qopmuş işıq basqını...
Qaldılar:
Yerdən göyə sükut,
kömür, kül.
Qaldı: kündə-kündə
filiz, daş, torpaqdan yoğrulmuş
eybəcər sima –
Xirosima.

*1974*

## TƏZAD

Yaponiyada ən yeni
elektron maşınların
xırdası var,
irisi var,
Yaponiyanın bir də
qədimdən qalma
xarakirisi var.

*1974*

## TUFAN ÖNÜNDƏ

Külək əsir.
Uğultusu doldurub
qulaqlarımı.
Ağaclar əyilir yerə,



dikəlir tufan axını
ara verəndə.
İçimdə bir qəzəb baş qaldırır
qol-budaqlı ağacların
bu mütiliyinə,
qüvvət qarşısında bu acizliyə.
Düşünürəm: niyə, niyə?
Baxıram:
yan-yana sıx sıralarla
məğrur dayananlar var.
Kökü dərin torpaqda,
irigövdə
ağaclar.

*1971*

## GÖZLƏRİN MATƏMİ

*Xirosima!.. Xirosima!..*

Nəfəsi qaynar,
göyləri ulduzlu bir yaydı.
Uşaq pəncərədə oturmuşdu,
ana otaqdaydı.
Bir gurultu eşitdilər;
sonra dərin sükut oldu.
Nə göydə bulud,
nə yarpaqlarda külək.
Tıp, tıp, tıp...
Həyəcanla döyündü iki ürək.
Qız əliylə ovuşdurdu gözlərini,
dedi: – Ana!
Niyə söndürdün çırağı?
Bir sazaq duydu ana
körpənin sözlərində.
Bir nigaranlıq oyandı
ananın gözlərində.
Ancaq sezdirmədi körpəyə.
Qucaqladı onu.

Bürüdü bərk-bərk,
saçaqları qıvrım qara saç kimi
sallanan örpəyə.
Uşaq bağırdı:
– Ana! Ana!
Kim söndürdü çırağı?
Ana dinmədi,
dinə bilmədi.
Uşaq qışqırdı:
– Hardasan, ana?
Su tök, qoyma gözlərim yana!
O gündən,
sanki badam gözlərin yası,
qara bir matəm olub
çökdü bütün cahana.
Bu qaranlıqda itirdi bir-birini
bala, ana.
Gözlər gözlərə həsrət qaldı,
yaşasalar da yan-yana.
Kəsin, atom sınaqlarını kəsin!
Bir cüt gözün matəmi
Min-min gözə çökməsin!

*1960*

## BOMBARDMAN

*(Bir yaponiyalı ananın insanlara məktubu)*

Çəmən vardı.
Quzular, göyərçinlər vardı.
Salxım-salxım yasəmən vardı.
Əkinlər, biçinlər vardı.
Lal torpağın ağrısı,
kömür daşlar,
kül ağaclar yoxdu.
Çarhovuz başında
gülə-gülə çiləşən



körpələr vardı.
Üfüqdən-üfüqə yayılmış kədər yoxdu,
İnsanlar, evlər, çiçəklər vardı.
Altı üstünə çevrilmiş şəhər,
Yaralı torpağa çökmüş zəhər yoxdu.
Bahar geyimli uşaqların
əlvan səbətində,
ağac dibində,
məktəb həyətində
göbələklər vardı.
Yerdən şığıyıb göyə qalxan,
nəhəng göbələk yoxdu.
Nəğmə vardı,
insan səsi vardı,
həyatın nəşəsi, qüssəsi vardı.
Göz yandıran işıq,
dağları titrədən gurultu,
torpağın üfüqdən-üfüqə uzanmış
qara tabutu yoxdu.
Torpaq, cəsədlərdən doymuş kimi,
qaytarmamışdı geri
toza dönmüş binaları,
külə dönmüş sümükləri.
Nə xəyaldır bu,
nə uydurmadır.
Havanı qoxlayın!!
Təşviş, nigaranlıq qoxusu gəlir.
Bir qurtum yağış suyu,
fəlakət dadır.
İnsanlar!
Yer üzünün taleyi,
sizin əlinizdə,
insanlardadır.
Müharibə carçılarının
dilini kəsin!
Bir olmuş cinayət,
bir də baş verməsin.

*Oktyabr, 1962*

# Praqa xatirələri

## İLK TANIŞLIQ

Praqa böyük şəhərdir.
Piyada bir günə getmək olmaz
bu başından o başına.
Yaxşı ki, tramvayı, trolleybusu var.
Bir də böyük, kiçik maşınlar.
Gəzdim Praqanı maraqla, həvəslə.
Kremlini, panteonunu gördüm.
Vltava çayına baxdım.
Hər iki sahildən binalar, ağaclar
əyilmişdi suya.
Dedim,
yəqin onlar da insan kimi
susayırlar.
Çıxdım Karl körpüsünə:
İki yandan aldı araya məni
tunc praqalılar.
Dedim, yəqin bu gün
bahar adına
bayram keçidi var.
Körpünü aşdım,
tunelə girdim.
Tavanda işıq parıldaqları
düzülmüşdü sıra-sıra.
Dedim, mənim nərgizlərimdir,
deşib betonu çiçəkləyiblər.
Çıxdım tuneldən.
Küçələr yaşıl qollarını açıb
aldı qoynuna məni.



Danışdıqca: yarı rus,
yarı çex, yarı bizimcə,
çoxu him-cimlə;
tam anlaşılmasa da cümlədən.
İnsanların gözündə gördüm
vətənimə məhəbbəti.
Düşündüm: bura
ürək dolusu ülfət,
könül dolusu nəğmə,
göz dolusu mehribanlıq gətir.
İllər uzunu,
oxşasın xatirələrini
ilk dəfə gördüyün dostların
məhəbbəti.

*1959-1962*

## YAN QUS

Birdən meydanda Yan Qusu gördüm.
O, məni tanımırdı.
Nə millət ayrılığı,
nə müxtəlif dinə görə,
ancaq aramızdakı
zaman fərqinə görə.
Mən onu tanıyıram.
Bilirəm nə zaman olub.
Nə zaman yanıb.
Bilirəm niyə belə kədərli dayanıb.
Nəsimi, Sabir yadıma düşdü.
Onlar da yanıb, axı:
yanıblar odsuz-ocaqsız.
Cordano Bruno, Janna d'Arkı xatırladım
Bir də doğma yurdumun
məşəl gəlinləri, qızları

canlandı gözümdə.
Elə bil, ətimə köz basdılar.
Yanıq qoxusu duydum.
Sanki cızıltı eşitdim.
Bəlkə tramvay səsidi bu,
bəlkə uzaq əsrlərdən keçib gələn
zülmün vahiməsidi bu.
Yan Qus!
Babamın babasından qoca adam!
Səni yandıranların
qəzəbinə qadam.
Yüz min adamdan biri
adını belə bilmir onların.
Sən tunc heykəl olub
dayanmısan bu geniş meydanda.
Onlar toz-torpaq olub gedib.
Sən handa, onlar handa.
Sənə eşq olsun, Yan!
Zülmə baş əymədin
Ana dilini qorudun yadlardan.

Gəzirəm Praqanı.
Nə qədər göz oxşayan mənzərələri var.
Küçələrində, meydanlarında
nə qədər tuncdan tökülmüş,
daşdan yonulmuş sənət əsəri var.
Ancaq hər dəfə yenidən oyanır
qəlbimin həyəcanı, könlümün yanğısı,
xatırlayanda
Praqa meydanında
bir xəbərdarlıq heykəli kimi
qəzəbli, məğrur dayanmış
Yan Qusu...

*1957*



## QƏMLİ QÖRÜŞ

Ölülər, yəqin,
yerini rahat istəyir.
Ətraf yaşıllıq olsun.
Qəbirlər də sıra-sıra,
yan-yana.
Bəlkə də heç fərqi yoxdur orda yatana –
rahatdır yeri, ya yox.
Ətraf yaşıllıqdır, ya can sıxan.
Bəlkə bu ağaclar da,
bu üstü yazılı daşlar da,
bu çiçəklər də
sağ qalanlar üçündür!..
...Praqadayam üç gündür
Bu gün sükut xiyabanındayam.
Qəbirlər üstündə
qoşa göyərçinlər görürəm.
Bu mərmər göyərçinlərin biri
qanadları bükülü düşüb yerə,
biri boynu bükülü,
ayaq üstə;
duruşunda, baxışında kədər.
Biri yalqız gedib,
biri yalqız qalıb;
göyərçinlər!..
Baxıram qəbristana
ağlayan adam görmürəm;
bircə torpağı təzə,
üstünə səpilmiş çiçəklər
indi-indi soluxan,
hələ başdaşı qoyulmamış
qəbrin yanında diz çöküb,
üzünü torpağa qoyub,
həzin-həzin ağlayan qadından başqa.
Yəqin anadır.
Göz yaşları ürəyimi qanadır.

Bəs o cərgə-cərgə
başdaşlarının yanında
niyə heç kəs yoxdur?
Bəs niyə onları göz yaşları isitmir?
Niyə onların başdaşı soyuqdur?
Axı onların da isti qanı
bu torpağa axıb, bu torpağa!
Axı onlar da səni qoruyub, Praqa!
Qəhərlənirəm bu fikirdən.
Başımı qaldırıb birdən,
hər qəbrin üstündə
bir dəstə çiçək görürəm.
Dodaqlarım həyəcandan titrəyərək,
oxuyuram başdaşında yazıları:
"Qubad oğlu Həsən".
Bəlkə Şirvandandır, – deyirəm,
Bəlkə Kür qırağından.
Bəlkə Gəncəbasardan...
Sarmaşığın yaşıl pöhrələri,
ana qolları kimi, aşıb dəmir hasardan,
qucaqlayıb ən kənardakı qəbirləri.
"Əli Mustafa oğlu"nu,
"Məhəmməd oğlu Etibar"ı.
Deyirəm: – Salam!
Yurdumun qəhrəman oğulları!
Əzizlərim!
Yəqin siz cavandınız.
Yəqin boylu-buxunlu,
bığ yeri təzəcə tərləmiş oğlandınız.
Ümidləriniz, arzularınız vardı.
Hərbin zalım əli sizi
torpaqdan qopardı –
saldı torpaq altına.
Bəlkə tikə-parçanızı
tapıb yığan olmadı.
Ancaq bir zaman
qara, ya ağ bənizli,



sinəsində ürək çırpınan,
canlı bir insan olan sizin,
bir-iki parçanızı,
üstündə ad və sıra nömrəsi yazılı,
ipi qırılmış dəmir parçası ilə bir yerdə
basdırıblar bu torpağa!
Ölülər geri dönmür.
İziniz Vətən yolunda görünmür.
Bir qara kağız xəbər verdi:
"...Vətən uğrunda qəhrəmancasına..."
Neçə arzu, neçə ümid töküldü
yaralı yollara.
Analar dözdü bu dərdə ki,
yol açılsın bahara.

İllər keçir.
Gecələr yenə ay doğur.
Ulduzlar səpələnir,
kainatın soyuq boşluğuna.
Günəş çıxır yenə hər gün.
Bağışlayın, əzizlərim!
Bəlkə məzarınızın sükutunu
qoruya bilmədik.
Yenə dünyanı qarsır
qaynar nəfəsi yeni hərbin.
Ancaq inanın siz də,
inansın
həsrətinizi çəkib yananlar da.
Bir inam, bir qərar, bir əzm
get-gedə bərkiyir
sülhsevər insanlarda.
Həyat ölümdən qisas alır.
Yer üzündə hərbin
son gününə az qalır.

*1959-1962*

## BİR QÜLLƏ, BİR SAAT, AXIB GEDƏN VAXT VƏ ON İKİ HƏVARİ

Praqada meydanda bir qüllə var,
başında bir yekə saat.
Allahın ver günü, saat on ikidə
bu meydana toplaşır
yığın-yığın praqalılar.
Qülləyə baxıb həzz alırlar.
Qüllə adi qüllə,
saat adi saatdır, ancaq...
Saat on iki tamam olcaq
zəng dalbadal vurulduqca,
qüllənin dördkünc pəncərələrindən
tək-tük görünüb on iki qoca
salamlayırlar toplaşanları.
Bu on iki qoca –
on iki həvaridir.
Müdrik gözlərində
həyatın müəmmalı sorğuları,
xəbər verirlər ki, insanlar,
vaxt axşama keçib gedir,
gün yarıdır...
Praqa böyük, küçələr uzun.
Dedim, bu gün
saatlı qüllə yanından salaq yolumuzu.
Adamla dolu meydan.
Əqrəblər doğrayır vaxtı.
Gələcəkdən indiyə gəlir,
indidən keçmişə gedir
yorğunluq bilməyən Zaman.
Başını on ikinin üstünə qoyanda əqrəblər,
həvarilər göründü pəncərədə.
Salamlayıb izdihamı ədəblə
bir-bir yox oldular.
Baxdıqca birtəhər olur insan,
Həm gülməyin gəlir, həm məyus olursan.



Sonra bir qədid göründü:
əldə dəryazı ilə.
Bəlkə də bənzəri vardı əzrailə.
Bəlkə, demək istəyirdi: insanlar,
zaman var, həyat var, ölüm də var.
Nə deyim,
Nə öldüyüm olub,
nə əzrail görmüşəm.
Baxıram, qəzəbim artır
həyatı korlayanlara.
Mübarizələrdə keçib ömrün yolu.
Deyirəm: elə burda,
qarşıma çıxa bir fitnəqulu,
ya bir böhtançılar pənahı,
"Şeytani-əkbər", – deyib,
bir yumruqla kəsəm əhədini.
Deyəm:
– qaraltmayın adamların qanını,
pozmayın insanların səhhətini!
Bəli, nə görmüşəm, nə inanmışam əzrailə.
Bağlanmışam qəlbimlə
yolu şəfəqlər dünyasına gedən
bizim əsrə, ilə,
həyatda gördüyüm insan olub;
boyu, işi, rəngi müxtəlif.
Çoxunun sözü, özü yaraşıq.
Bir çoxu xoşqılıq.
Çoxu dost, qardaş.
Çoxu nəcib vətəndaş.
Çoxu sadə,
ən böyük hörmətə layiq,
Kimisi də...
bir növ xəlayiq.
Ömürdən doymamışam, qardaşlar!
Yaşayam gərək.
Əsrin insan yükünü daşıyam gərək.
İşim çoxdan da çoxdur.

Nə çətinlik, nə uzun yol
məni qorxudur.
Düşünürəm:
qüllə, saat, həvari, qədid.
Bir səs deyir:
Vaxtın keçdiyinə diqqət et!
Nə arxayınlaş,
nə qədidi görüb qorxuya düş.
Vaxta qalib gəlmək üçün
hər anı dopdolu doldur!
Zamanla ötüş!
Praqa böyük, adam çox.
Gəzirəm tək.
Küçələr hamar daşlarla örtülü.
Vitrinlər ala-bəzək.
Bu gördüyüm Praqanın saatlı qülləsidir.
"Gedək, gəzək", dedim qəlbimə.
Görək hələ neçə meydan, neçə küçə
bir dost kimi qollarını açıb,
üzümüzə şəfəqlərlə güləsidir.

*1960*

## GÜLLÜK

*Alman faşistləri Çexoslovakiyada Lidiste adlı bir kəndi bütün əhalisi ilə birlikdə yandırmışlar.*

Dünyanın bütün rəngləri burdadır;
sonsuz çalarları ilə.
Elə bil, çiçəklərin
bayram ziyafətidir.
Musiqisi – rənglər.
Mey-məzəsi – ətir.
Güllər yumaq-yumaq



oturub yaşıl budaqlarda;
müxtəlif yaruslarda.
Yarpaqlar iki yandan
düzülüb budaqlara;
yarısı burda, yarısı orda.
Əyilib başımı saldım
gül ətrinə.
Üzümü qoydum körpə budaqların
yaşıl sətrinə.
Bu gül,
Bəlkə Şopenin
tənha ağac altındakı,
heykəlindən alıb qoxusunu; –
belə həzindir.
Bu gül adaları il boyu yaşıl
İndoneziyanındır.
Bu gül yaponiyalıdır –
rəngi qara.
Elə bil, Xirosimanın
dərdi çöküb yarpaqlara.
Bu gül
Yarpaqları qan rəngli
qönçələri yaralıdır.
Biri Braziliyadan gəlib,
biri İraqdan.
Bu sıra gülləri də tanıdım
vətən ətirli yarpaqdan.
Qatarlanıb dayanıblar
qönçəli, əlvan.
İlk ünvanları
SSRİ – Azərbaycan.
Hara baxsan güldür;
sülhün gül xiyabanı.
... Xəyal aparır məni
iztirablı illərə.
Sanki bir qəzəbli səs
deyir,

qəmli hekayətini Liditsenin.
– Burda insanlar yaşayırdı – deyir, –
dinc, sakit.
Bax, bu gül topasının yerində
top-top oynayırdı uşaqlar.
Burda gülüş, sevinc, sevgi vardı.
Küçələr dolu günəş idi.
Gecələr pəncərədən ay girirdi
körpələrin yuxusuna.
Burda nəğmələr qarışırdı
isti çörək qoxusuna.
Burda insanlar
arzulardan danışırdı.
Bir gün...
Göylərdə səksəkəli
oyandı səhər.
Liditsenin dörd yanını
süngülərlə kəsdilər.
Dəmirdən hasar çəkdilər
yolların sinəsinə.
Ölümün çəngəlinə keçdi
qurtuluşun açarı.
Odladılar kəndi
qolu hörümçək damğalı,
qan və ölüm carçıları.
Yandı, külə döndü
ağac, daş.
Külə döndü insan;
qocalı-körpəli.

İllər keçib, indi belə,
xatırlasan, tük ürpərir.
Hər şey yandı, külə döndü.
Torpaq
əzəmətli bir tabut üstünə salınmış
qara örtük kimi göründü.
Torpaq susdu.



Susdu bahara qədər.
Küləklər qamçıladı onun
yarasını.
Keçdi qış.
Günlər keçdi üzü bahara.
İri damcılarla yağdı yağış.
Bir gün...
Gurhagur döyüldü
göylərin qapısı.
Bahar gəlir!
Bahar gəlir!
Şimşəklər qamçıladı buludları.
Bir gün...
Bu nə tarixi,
nə qeyri-adi bir gündü.
Qara torpağın sinəsində,
kaman səsi kimi həzin,
yaşıl bir ot göründü.
Torpağa salam! – dedi.
Mən, qoynumda baharı
qaldıracağam! – dedi.
İnsanlar eşitdi bu səsi.
Başladı yeni həyat nəğməsi.
Kim isə ilk gül qələmini
sancdı yerə.
Haray düşdü güllərə.
Haray düşdü ellərə.
Hərə bir budaq verdi.
Yarandı sülhün bu gül bağı.
Qəzəb, alov, qan, ölüm
öldürə bilərmi torpağı?!
Torpaq var, insan da var.
İnanıram yer üzünü bürüyəcək
gül-çiçəkli bağçalar!

*1963*

## BOLQARISTAN! BOLQARISTAN!

I

Qara dəniz qapqaradır;
adının oyatdığı təsəvvürdən qara.
Qəzəbini boğmuş adam kimi qara.
Dalğalar söykənib buludlara.

... O tayda sən və siz;
arada acıqlı Qara dəniz.

... Sonra sahillərin dolaşıq yaraşığı.
Dumanlı dağlar,
Kürün gümüş kəməri...
Sonra Mirzə Fətəlinin,
Cəlilin Tiflisi;
küçələrində Mingəçevir işığı.
Sonra Rustavi!
Yanıb-yanıb poladlaşan,
Daşkəsən filizi.
Evlərdə qaradağlı yaşıl alov.
Sonra dağlar arasında
nəhəng bir çalov.
Sol yanda
Bozdağın sinəsində durulmuş
Kürün ləngəri.
Sağ yanda
Koroğlu qalası,
dəlilər səngəri.



Sonra sağı Gəncəbasar, Qarabağ,
solu Ərəş, Şirvan,
Qafqazın qoynunda Azərbaycan.
Və uzaqlaşdıqca bir-birinə
yaxınlaşan,
birləşə bilməyən,
qovuşa bilməyən
dəmir zolaqlar.
Sonra mavi Xəzər,
Doğma, qumlu sahillər.
Gəncliyimin şəhəri.
Bu şəhərdə bir ev.
Ömrümüzün çoxunu qoynunda
keçirdiyimiz
insan yuvası.
Pəncərələri bağlı.
Sənsiz.
Mənsiz.
Balalarımsız.
Sonra Abşeronu cənubdan şimala bölən
bir yol.
Sahilə yaxın meynəlik.
Və... gözlərin.

... İndi Qara dəniz necə mavidir,
necə işıqlıdır.
Hanı dalğalar?
Qara buludlar hanı?
Bənövşə qoxusu
doldurub havanı.

II

Dalğalar dalda qaldı
Ömrün günləri kimi.
Qızılgül olmasaydı,
saralıb solmasaydı!..

İnsan necə dözərdi
sovuşan dalğaların əbədi hicranına,
qarşıda yeni-yeni
dalğalar olmasaydı...

III

Balıq olaydım.
Nə elə balaca ki,
böyüklərin yemi.
Nə elə böyük ki,
udduqca udub,
doydura bilməyəm gövdəmi.
Balıq olaydım;
adicə balıq.
Öz rəngim, üzgəclərim.
Nə kabablıq, nə şorbalıq.
Balıq olaydım.
Və danışa biləydim.

IV

Adi dənizdə
adi balıq olaydım.
Baş vuraydım dəryalara.
Üzümü tutardım
nəhəng balıqlara,
deyərdim: – Cənablar!
Üzün, nə qədər üzürsünüz.
Gəzin, nə qədər gəzirsiniz.
Hamıya yer çatar
planetin mavi su çanağında.
Özünüz də gəzin, dolaşın,
oğlunuz, qızınız da,
yeznəniz, oğlunuzun bacanağı da.
Ancaq məhv etməyin xırdaları!
Toxunmayın xırda balıqlara.
Onların da səbrinin
hüdudu var ha...



V

Torpaq harda başlayır?
Bilmirəm.
Torpaq harda qurtarır?
Bilmirəm,
Dağlar dağa söykənib.
Düzlər düzə calanıb.
Torpaq belə deyildi,
insanların əlində
bölünüb ölkə-ölkə,
kəsilib, parçalanıb.

VI

"Günəşli sahildəyəm".
Qarşıda Qara dəniz;
bir mavi pərdə kimi
asılmışdır üfüqdən.
Uzadıram əlimi,
qaldırım bu pərdəni.
Deyirəm,
pəncərədə göründü, bəlkə kölgən.
Əlim qalır havada.
Meh əsir.
Qara dəniz
səyriyir ləpələrlə.
Çıldır-çıldır şəfəqlər
sanki təbəssümündür.
Neyləyirəm dənizi,
neyləyirəm günəşi,
qəlbimdə yuvalanmış
bu həsrətlə, kədərlə?

VII

Üfüqdə göy gözlərin sarı həsrəti.
Bir səs:
– Oğlum, oğlum! – deyə,
çağırır Məməti...
Miz üstü – bir işıq gölü.
Miz arxasında Məmət.
Dəftər, kağız miz üstünə tökülü.

... Qara dənizin üstündən
qara yellər əsdimi?
Məmət gecikdimi?
Çağıran tələsdimi?

... Üfüqdə göy gözlərin sarı həsrəti.
Səhifələrdə yaralı qəlbin məhəbbəti.
Məmət dərs oxuyur
Lehistanın baş kəndində.
Şəkərim, qardaşım, ustad!
Bir də çağırma,
çağırma Məməti!

VIII

Qazanlıq.
Göz işlədikcə gül topaları...
Budaqlarda gül,
pardaxlanmışı, qönçəsi!
Rəngləri ağdan tutmuş qaraya qədər.
Gül qoxusu
asılmışdır havadan;
"iydə budaqlarının qotazı" kimi.
Şair deyirdi:
"Bəlkə asdım özümü
mən də bir gün astanadan..."[1]

[1] M.Rəfilinin misrasıdır



Asa bilmədi.
Ömrün yolu varmış belə qısa,
bilmədi.
Bunlar söz yaddaşının,
qoxu yaddaşının,
göz yaddaşının
bir lövhəsidir, –
gəldi, keçdi.
Yenidən oyandı qəlbimin həyəcanı.
Qazanlıq başdan-ayağa gülxanadır.
"Gülxanə parkı!"
"Gülxanə parkı!"
Bəs ceviz ağacı hanı?
Üç min gül ləçəyindən
bir gül yarpağının çəkisi qədər
gül yağı çəkirlər.
Gül yığanlar
gün çıxmazdan çıxırlar tarlaya,
güllərin yaxşısını,
tərlisini axtara-axtara.
Gül yağının hər qramı
neçə kiloqram çörək bahasınadır.
Ağ xalatlı qadınlar
əyri-üyrü boruların yanında durub
gül yağı çəkirlər.
Üzləri sarı.
Gözləri yorğun.
Kim bilir bu gül ətrindən
nə çəkirlər.
Kim isə mərmər sinəsinə
bir damcı səpəcək bu ətirdən;
onu daha çox sevsinlər deyə.
Kimsə dəsmalını ətirləyəcək.
Gül yarpaqları
zənbillərə yığılıb ləçək-ləçək.
Növbə gözləyirlər
ölüm qapısında;

gül yarpağından
ətrə dönmək üçün.
Bir dəvanın, dərmanın qatmasıdırsa
bu gül yarpağı,
mən də bağçamdakı güllərdən
üfüqdə səhər oyanmamış,
bir-bir dərim;
ovcumda verim sizə
ayrı-ayrı hər yarpağı.
Lakin bu gül yağı
işlənəcəksə
bir sərxoşun xumarı üçün,
ya kömürə döndərmək üçün
üstü sünbüllü,
sinəsi güllü torpağı,
toxunmayın gülümə, toxunmayın!
Qəlbimə toxunmayın!
Könlümə toxunmayın!

*Bolqarıstan, 1965*



# *Cəlladları durdur*

## ÇAPEY[1]

Daranırkən sahilin qumlarında
dənizin
qıvrım saçı,
Qan çiləndi
buludların bağrına,
Qırmızı bir mis kimi
Sularda gəzərdi ay.
Dalğalar dalğalandı;
Dəniz yandı,
Alovlandı,
yandı...
Yana-yana alovlandı.
Qara örtüsünü tulladı Şanxay.
Əriyən qaranlıqdan
yüksəldi binalar,
qat-qat günlüklər kimi.
Yarpaqlarda titrəyən rüzgar
uğuldadı,
uğursuz bir xəbər kimi.
Sularda uzandı
sarı işıq sütunları.
Göylər səssiz,
gecə yarı...
Gördünüzmü bu lövhəni:
sadə bir "romantika"!
Baxın...
Bu zəif xəyalatı yıxa-yıxa,

[1] Çapey – Şanxay şəhərinin bir adıdır

Gəlir acı üzlü
çılpaq həqiqət.
Bu həqiqət –
Sudan duru, aydan arı,
Bu həqiqət –
Çin sübhünün
qanayan damarı!
O deyir ki:
– Hey,
oxucu!
Çin qaşlarını qızardan
gümüş ay deyil.
O gördüyün lövhə
Bugünkü Şanxay deyil.
Dənizin dodaqları
torpağı öpən yerdə
Bir qul kimi bağlanmış
sahillərə
Ana yurdu
badam gözlü çinlilərin –
Şanxay!
Hay!
Hay!
Kanton sənə satqın çıxdı,
Qəti gündə
fəryadlara
Vermədi haray.
Dar ağacı kölgəsində
böyüyən Pekin
Güldü sənin matəminə
Bir xain təkin.
Şanxay!
Böyük Şanxay!
Yadları doğmasına yük Şanxay!
Maraqlı havası var
Şanxayda küçələrin:
Bir yan bürkü,



Bir yan sərin.
Bir tərəfdə Jenevanın
Xumar gözlü
gecələri
Qayğı bilməz gündüzləri,
nəşə dolu səhəri
Bir tərəfdə:
çörək dərdi,
işıq dərdi,
can dərdi.
Zəmi dərdi,
övlad dərdi,
haqsız axan
qan dərdi.
Yoxsul çinli qonaqdır
bu Çinstanda.
Çini çox dinlədik biz
çox dastanda.
Biri yazdı Çini
"Sehrli diyar".
Biri nəql etdi Çindən
xumar-xumar...
Yetər!
Aclıqla dostlaşana
danışdılar
Biçin dastanını.
Qoy yazsın bu qələmim
Çinin çin dastanını.
Gecə yarı.
Ağlayan gözlər kimi
Sakitdir Çin suları.
Yalnız qəlbi Çapeyin
çırpınır
yeyin,
yeyin.
Birdən, polad qabıqlı gəmilərdən
Göründü

qaralan ağzı topların.
Saysız qarğalar
bürüdü göyü:
– Yaponiyanın
İldırım qarğaları.
Əmr aldı zabitlər.
Quduz gurultuyla
titrədi hər yer.
Küçələrdə axdı
isti qan bulaqları.
Sanki yaralanmışdı
yerlərin şah damarı.
İniltilər qarışdı
pulemyotların "cazband" səsinə
Dalğalar qoşuldu
yüksələn alovların
"çarliston" rəqsinə.
Ölüm yağmuru yağdı
Çapeyin sinəsinə
Şrapnellər cavab verdi
"Bala" deyən
anaların səsinə
Doldu barrikadalar:
Uşaq,
gənc,
qoca,
qarı.
Ölümə tapşırıldı
Qurtuluşun açarı.
Tüfəng sıxdı sinəsinə
Körpə ayaqlı Çin qadınları.
Arxası satqın çıxan
ordunun nəfərləri
*Ölülərdən qurdu səngəri;*
Yenə çəkilmədi,
yenə dönmədi,
Nə yazıq ki,



Öz qüvvətinə çox öyünmədi.
Havalar dumanlandı,
bahar nisanı kimi,
Qurbanlar sonsuz idi,
bombaların sanı kimi.
Yandırıldı Çapey.
Dağıldı evlər.
Qara ölüm, yüksək səslə oxudu
təntənəli "qalibiyyət" marşını.
Arxa alovlanırkən,
süngü kəsdi qarşını.
Barıt və qan qoxusu
ağırlaşdı havada.
Daşlar belə qanadı
bu uğursuz davada.
Mavi nəhrin suları
sahillərini aşdı.
Göylərdə gurultular
quduzlaşdı.
Mərmilərdən dağıldı
qalın buludların dağı.
Sanki qoca boşluqda
qırılmışdı kainatın budağı.
İldırım qarğaları
alov qusdu torpağa.
Hansı ana axtaracaq balasını
göydən ölüm yağa-yağa?
Uçan divarlar əzdi
əzilən çinliləri.
Düşmən atıldı irəli.
Rüzgarlar kaman etdi
kükrəyən alovları;
Bükülərkən dik başlı
binaların vüqarı.
Qaynar havalardan dinlədim
dərdini Şanxayın
Şanxayın dərdi böyük,

Şanxayın dərdi yaşlı.
Uzun tarix boyu
kim onu gördü
Gülər üzlü,
açıq qaşlı?!
Hər yetən atlandı,
taladı Çini.
Yadlar quduz oldu
daladı Çini.
Almayanaq monqollar
Yel qanadlı atlarla
aşdılar Tibet çölünü.
Qaraxatay türkləri
Mancuriyada saldı dölünü.
Bir röya kimi
dağıldı
getdi
ümidli səhərlər.
Əllər qabarladı
Şişdikcə peysərlər.
İndi bax
bu canlanan mənzərəyə!
Gör boy atan alov budaqlarını,
Qanlı ət yemiş kimi qızaran
göyün dodaqlarını!
Qorxudan uçmuşkən
rəngi ayın,
Güllələrmi qızartdı
sinəsini Şanxayın?!
Hey,
hey,
Boynunda iki zəncir
daşıyan çinli,
Yapon kimi düşmən deyilmi sənə
səni içindən yeyən qurd?!
Öz çinlinin əlilə
cəhənnəm olmadımı



sənə bu doğma yurd?!
Qaldır başına!
Bax yaxından!
Kimdir
sənə "can" deyən homindan?
Bax, alnının xəyanət ləkəsinə.
Tüpür onun "qardaşlaşın" səsinə!
Bu gün
bağrından yaralandısa, Çapey,
Bax, Şimalın qızıl üfüqlərinə!
Uzat əlini kommunistlər Çininə!
Son zərbə vurmaqçın
Yad və doğma ağaların
varlığına, çininə,
qanında yu bayrağını!
Bir gecədə
min illik
qocaldısa Çapey, –
Durma,
atıl,
atını çap!
...Ey
Çinin günəşə, işığa
həsrət övladı!
Bax, köhnə dünya qocaldı.
Tanı dostu, yadı.
Bax qurtuluş gününün
üfüqləri qanadı.
Bəsdir,
illər boyu
Barmaqlarının qanı,
Allı-güllü
İpəkləri naxışladı!
Bəsdir,
Yadlar ömrünün
Tarlasını xışladı.
Bəsdir,

Səni qul etdi
Dzi-Dziyanlar.
Fin-Sun-yanlar!
Çan-Kay-şilər...
Bəsdir,
boynunda gəzdi
taleyinlə oynayanlar!
Belə bir çox dişilər.
Silah başına!
Eyyy...
Çinin mərd oğulları!
Qaldırın qan rəngli
bayrağı yuxarı!
Bağırın gur səslə:
"Çindən əlini çək!
Çin öz tarlasını
özü biçəcək!"
Sizin dilinizdən eşidək
Doğan qızıl Çin xəbəri!
Siz verin
Azad Çindən
Bizə çin xəbəri!

*1932*

## Sİ-AU

*Gecə idi. Qaranlıq hər tərəfi bürümüşdü. Balaca aktyor Si-Au ayağındakı yekə əsgər çəkmələrini şappıldada-şappıldada gedirdi. O, tək deyildi. Yanında yoldaşları vardı.*

*Bu dəstə cəbhədə Çin döyüşçülərinə tamaşalar göstərən könüllü aktyorlar dəstəsi idi.*

*Si-Au atasının üzünü görməmişdi. Anası vərəmdən öləndə Si-Au üç yaşında idi. Si-Aunun yaxşı səsi vardı. Bir gün o, aktyor dəstəsinə rast gəldi. Qoca aktyor Lin-Lu ondan soruşdu:*

*– Qoçağım, nə bacarırsan?*



*Si-Au cavab vermədi, bir az fikirləşdi. Sonra başını silkələyib, alnına tökülmüş saçını yuxarı atdı. Gözlərini bir nöqtəyə zillədi, gözəl, titrək bir səslə bir nəğmə oxumağa başladı. Bu nəğməni Si-Au özü qoşmuşdu. Bu, balaca partizan Dzin-Ay haqqında nəğmə idi.*

*Aktyorlar dayanıb Si-Aunun nəğməsinə qulaq asırdılar. Si-Au get-gedə daha həyəcanla oxuyurdu:*

Bir qaranlıq gecədə
Dzin-Ayım yola düşdü.
Ay çıxdı sağ tərəfdən
Kölgəsi sola düşdü.
Yol uzun, gecə qara,
Dzin-Ay, səfərin hara?
Ürəyin necə qızdı
Sirli qaranlıqlara?
Mənim dostum, həyanım!
Balaca partizanım!
Səngərdə atasıyla
Dzin-Ay üz-üzə gəldi.
Atası dedi: – Dostlar,
Bir əsgər bizə gəldi.
Uğurlu olsun sonu!
Oxşadı, öpdü onu.
Dedi: – Badamgöz oğlum,
Yaxşı tanı yaponu!
Mənim dostum, həyanım!
Balaca partizanım!
Bir gün qalın meşəyə
Böyük vəlvələ düşdü.
Aralıq qarışanda
Dzin-Ayım ələ düşdü.
Göy bulud, gecə yarı.
Düşmən kəsmiş yolları.
Dzin-Ayımı tutdular
Yapon qarovulları.
Mənim dostum, həyanım,
Balaca partizanım!

Yapon ona: "Din! – dedi, –
Kiminkisən? Nəçisən?
Bu cığırsız meşəni
Keçib gəldin necə sən?
Bizə qarşı Çin nədi?
Beş yüz nədi, min nədi!" –
Yapon çox hədə gəldi.
Dzin-Ayım heç dinmədi.
Mənim dostum, həyanım!
Balaca partizanım!

Ləpirinin yerində
Əriyəndə təzə qar,
Balaca partizanı
Boğazından asdılar.
Onu yuxuda bildi,
Körpə budaq əyildi;
Bu ağır yuxusundan
Dzin-Ay duran deyildi.
Mənim dostum, həyanım!
Balaca partizanım!

Gözlədilər yolunu,
Dzin-Ay geri gəlmədi.
Bir ilan vurmuş kimi
Adamlar dincəlmədi.
Döyüş yerində səhər
Düşmən öldü yüz nəfər,
Partizanlar Dzin-Ayı
Parça-parça gördülər.
Mənim dostum, həyanım!
Balaca partizanım!

Bir ağac kölgəsində
Qazdılar məzarını.
Tabutuna qoydular
Kiçik yaraqlarını.



Üstünə bir başdaşı,
Tökmədilər göz yaşı.
Dedilər: "Bitməmişdir,
Hələ Çinin savaşı".
Mənim dostum, həyanım!
Balaca partizanım!

*Qoca aktyor Lin-Lu nəğməni dinləyib Si-Aunu bağrına basdı. Onu dəstəyə qəbul etdi.*

*Az bir zamanda Si-Aunun nəğməsi dillərə düşdü. Bütün döyüşçülər Si-Aunu tanıdı... Cəbhə boyunda tamaşa göstəriləndə, adamlar tez-tez əl çalır, balaca Si-Aunu istəyirdilər.*

*Si-Au tez-tez alnına düşən saçlarını yuxarıya ataraq, səhnəyə çıxardı. Qıyıq gözlərini bir az da kiçildərək, gülümsəyə-gülümsəyə döyüşçüləri salamlayardı. Nəğmə oxumağa başlayanda, onun üzünü xəfif duman kimi bir kədər pərdəsi örtərdi. Onun qara oynaq gözləri bir nöqtəyə dikilib qalardı.*

*Bir gün yenə aktyorlar tamaşa göstərirdilər. Si-Aunu tələb edənlərə qoca Lin-Lu sevinclə:*

*– Si-Au, bu saat, bu saat, – deyirdi.*

*Ancaq bu gün Si-Aunun növbəsi gələndə o, səhnədə görünmədi. Hamı onu tələb edirdi. Səs-küy hər tərəfi bürümüşdü.*

*Birdən səslər kəsildi, gözlər səhnəyə dikildi. Qoca aktyor Lin-Lu ağır addımlarla gəldi, səhnənin ortasında dayandı. Qocanın qucağında bir uşaq vardı. Bu, Si-Au idi. Onun bədəni hələ soyumamışdı. Bir az əvvəl bir düşmən gülləsi balaca Si-Aunun sinəsini dəlib keçmiş, onun nəğmə deyən dodaqlarını əbədi susdurmuşdu. Bu mənzərəni görən döyüşçülər arasında bir zümzümə başladı. Bu zümzümə yalnız qalıb həzin-həzin ağlayan bir ananın iniltisinə oxşayırdı.*

*Səs get-gedə qüvvətlənir, get-gedə nəğmənin sözləri daha aydın eşidilməyə başlayırdı. Bütün döyüşçülər bir yerdə Si-Aunun nəğməsini oxuyurdular.*

Ləpirinin yerində
Əriyəndə təzə qar,
Balaca partizanı
Boğazından asdılar.

Onun nəğməsi qaldı
Cəbhədə yaraq kimi;
Səngər-səngər dolaşdı
Mübariz bayraq kimi.
Mənim dostum, həyanım!
Balaca partizanım!
Balaca partizanım!

*1935*

## CƏLLADLARI DURDUR

(*Alabama qurbanları*)

Ey əngin dənizlərin
dik başlı dalğaları,
ayrılın varaq-varaq!
Dost yolunda
bağrınızı yararaq,
gəmimizə yol açın!
Neçə günəş əllərində
bayraq açdı
yola Çin.
Almaz taclı başınızla
yüksəlin ulduzlara.
Nərə çəkin, boy atın!
Bağrında tufanlar gəzsin
O ağ yallı göy atın!
Yollar çıxsın bahara!
Səsimizə səs verin.
Elə,
elə bağırın ki,
qulaqları cingildəsin
qulağı kar göylərin!
Tir-tir əssin kainat,
vərəmli yarpaq kimi;



soxulsun hər sözümüz
qəlbə bir mizraq kimi!
Şimşək sürətimizdən
utansın Niaqara,
şığıyırkən gəmimiz
suları yara-yara!
Bulud minən binalar
düşsünlər səksəkəyə.
Qarğa kimi tökülsün
qəzet satan uşaqlar
küçələrdə səkiyə,
bütün dünya eşitsin,
vulkanlar bağırmasın.
Bağrı qaynar şəhərlər
sussun bir məzar kimi.
"İş başına gəl!" – deyə,
Fitlər də çağırmasın,
öskürməsin gecələr,
xəstə qocalar kimi.
yayılsın bu xəbərlər
tunelağız borunun
qalibiyyət səsi tək,
göy atlaz döşəməli
səhraları keçərək!

### XİTAB

Dinlə məni,
ey əsrdaş!
Söylə nədir bu təlaş?
O nədir, nə?
İldırıma buyruq verirsən yenə.
Diqqətlə bax,
kimdir onlar? –
Yeddi zənci!
Yeddi həyat!
Yeddi qardaş!

Yeddi qırpım keçmədən –
qara kömür olsunlarmı?
"Haqq" bağıran məhkəmənin
düşün, buna haqqı varmı?
Yeddi zənci!
Yeddi həyat!
Yeddi səhər!
Həyat sənin,
Səhər sənin.
Onlar sənin, səninkidir!
Yeddi zənci!
Yeddi qüvvət!
Yeddi yardım!
Dar çağında
Onlar sənin
döyüşdaşın –
Qəti vuruş ayağında.
Bu gün qatil
elektrik
stuluna oturanlar
Yeddi zənci,
yeddi sevinc,
yeddi bahar
Sevinc sənin,
Bahar sənin.
Sənin bütün
qucaq-qucaq gündüzlər!
Bəsdir! Yetər!
Ey əsrdaş!
Haydı, birbaş,
o qüvvəti bir ox kimi
toplayaraq,
ağaların bağrına tax!..
Sən də...
Ey əli qabarlı qara!
Əmr et qayışlara!
Əmr et,



daha fırlanmasın!
Daha bir də Nyu-Yorkun
ulduzları yanmasın!
Sən də ey...
azğın suları qantarğalayan!
Dur!
Dayan!
Siz hamınız,
sən,
O
və onlar,
dəmir təkərlərə qüvvət verən,
quduz ləpələrə sinə gərən
milyonlar!..
Sən də, ey
torpağın bağrını bıçaqlayan,
həyatını
yük kimi öz çiynində saxlayan,
kömür yeyən
məzar kimi şaxtalarda!
Sən də, ey
barmaqları balıq ovunda donan!
Ey maşın kimi tərpənən,
üsyanını içində boğan.
Ey mis bənizli əsgər!
Ey! "qanunla" tuşaqlı,
dəniz gözlü dənizçi,
O qaynar ocaq qarşısında yanan,
alovların silləsinə dayanan,
xəstə övlad qayğısıyla
gözünə zülmət çökən,
qəliblərə polad tökən!
Ey sizlər!
Ey şaxtaçı!
Ey əsgər!
O qoca Çin divarının
qızıllaşdığı yerdə,

uzaq-uzaq ölkələrdə,
qərib şüşə dənizlərdən
Bol mərcanlı sularatan,
bir ucu Braziliya,
bir tərəfi Hindistan,
xurma boylu
ərəblərdən,
eskimoslara kimi –
bir tərəfi Mərakeş,
Bir yanı soyuq Sibir...
Qıyıq gözlü monqollar
ömrünün acı rəngi
üzünə çıxmış qullar,
ağ rənglilər, sarılar,
yanki,
macar,
fin,
tatar,
yumaq başlı qaralar,
ildırımlı Tokiodan
qara gözlü Ruradək,
ağ saçlı, qarabirçək
insanların içində
milyonlarla elə bax,
yüksəklərə qalxaraq
odur,
Əmr edir:
"Cəlladları durdur!"

## ÇAĞIRIŞ

Elə isə, nə durdun?
Səndən başqa
varmıdır
qorucusu o yurdun?
Bax, sən təkərləri saxla!



Sən "qanunu" ayaqla!
Sən şaxtanı burax!
Sən də süngünü tax!
Sən torpaqları üsyana çağır!
Ey yoldaş fırtına!
Sən də
səsin gəldikcə bağır!
Bağır ki:
– Ey kəllələrdən bürclər quran
qanlı
möhtəris ifrit,
əlini saxla!
Dayan!
Kimdir onlar?
Ağır-ağır addımlayan?
Vansettinin,
Sakkonun
ayrılaraq dönmədiyi
qanlı yolla yeriyən,
barbar dövrü zəncirini
ayağında sürüyən
O deyilmi?!
Alabama ellərinin
torpaqlısı,
yeddi zənci?
Yetməzmi ki,
Skotsboro tarlaları
illər boyu
alınlardan axan tərlə sulandı?
"Qul doğulmuş" insanların
bədbəxt soyu
özü sulu torpaqlarda
susuz yandı?
Artıq bilsin Alabama:
göl yaranır dama-dama!
İllər boyu
zənci ağır əzabları

yağır belində çəkdi.
Qərinələr axdı keçdi,
damcı-damcı
kin və nifrət yığıldı.
İndi artıq bir göl deyil,
dərya oldu o damcılar.
Bir dərya ki,
Fırtınası səltənətlər uçuracaq,
Bir dərya ki,
yandıracaq,
dalğasından qopan
sonsuz qığılcımla
kəllələrdən,
sümüklərdən
yüksələn o sarayları!
Bir dərya ki,
damcıları min nəhrdən axdı gəldi.
Bir dərya ki,
əsrlərlə nə haqq aldı,
nə dincəldi.
Bir dərya ki,
dalğasında qan gəzər.
Bir dərya ki,
bağrında
"üsyan" – deyir ləpələr.
Bir dərya ki,
həyat verir
ölüm dolu qasırğası,
bir dərya ki,
hər damcısı
amansız bir kin parçası!..
Dinlə! Yoldaş fırtına!
Sıyrılırkən döyüşlərdə
xəncər, artıq girməz qına!
Uzun illər olmuşdursa
yerlər,
göylər



səsinə kar –
indi sən də,
çığır, bağır
Nə qədər ki, qüvvətin var!
Bağır ki:
Sən, ey əsrdaş!
Söylə nədir bu təlaş!
Bir dayan!
Buraxma topu!
Qara, qorxunc əllərindən ölümün
aldığın çörəyə bax!
Nədir o qan ləkəsi?
Hər loxmasında yüz min
Yetim dərdi, pul naləsi,
Tez ol, çaparaq,
onu əlindən burax!
Sabahın deyilmi bu
qarşında canlanan gün?!
Bəsdir,
yollarda gözü bağlı yürüdüyün!
Gecəni bir xatırla:
yalnız idin dərdin əzablarında!
Yadındamı?
Xəstə işıq fənərlə
qaranlığa endiyin,
ilk dəfə qazmaçı
köynəyi geyindiyin?
Divarlardan sızan sular
Göz yaşına qarışdı.
Hər gün bir az saraldın,
hər gün də rəngin uçdu.
Hər gün külüng səsləri,
dar qaranlıq qazmalar,
Girənlər – gənc,
çıxanlar –
qar saqqallı ixtiyar...
Bir gün oldu, atanı

torpaqlar qucaqladı.
Qaldı neçə min tonluq
torpaqların altında.
Ölməmişdi, bəlkə də...
Lakin
O duyğusuz ölkədə
onu kim axtarardı,
şaxtanın alt qatında!
Ev soyuq, uşaqlar ac,
sən də loxmaya möhtac.
Qəlbindəki,
uzaq ulduzlar təki,
dumanlı bir umudla
qalxdın, düzəldin yola.
Heyhat...
Yardım istədiyin ağa
baxdı gülə-gülə,
sənin tək sadədilə.
Sonra bir qab sınmış kimi,
pozdu atanın adını
dirilər sadalağından.
Dedi:
"Rəhmət etsin ona yaradan".
Sonra nələr oldu...
hey... nələr, nələr...
Buz dalğaları kimi sıxdı səni,
həyat adlı, ömür adlı məngənələr.
Sən ağlarkən güldülər,
dəmir əllərlə
qəlbindən sildilər
mərhəməti,
insanlığı,
sevgini...
Səadət, gözəl həyat
Qanad çaldı, keçdi yüksəkdə,
sən endikcə dərinliyə,



qaranlığa get-gedə.
Fəsillər qarışdı,
Nə qış?
Nə bahar?
İsitmədi qəlbini
bağrı qaynar havalar.
İşıq dolu gündüzlər
gözlərində qaraldı.
Ömrünün yollarını
Fırtınalı qar aldı.
İndi, bu gün
ağaların buyruğunu dinləyərək,
əmr edirsən
elektrik kürsüsünə.
Dur!
Dayan!
Görürsənmi,
o boynundan
qara yazı asanı?
Bir son bahar dərdi var gözlərində.
Sanki donmuş yerində.
Dünən Fordun zavodunda çalışırdı.
Böhran divi bir bağırdı.
Silkələndi Fordun-mordun təməli.
Bu bağırtı
qırdı,
tökdü
yüz min əli.
O gənc, gözəl qadına bax!
Hər keçəni saxlayaraq,
sövdalaşır bədənini.
Bax titrəyən dodaqlara,
Bax uzanan əllərə;
bax üzündə kölgələr gəzən
skelet heykəllərə.
Görürsənmi,

o boynundan
"Satılıram" deyə,
yazı asanı?
Diqqətlə bax!
Yaxşı tanı!
Yaxşı tanı bu diyarı!
Bax, buradır
"mədəniyyət" əllərinin
qul və bədən bazarı.
Ey əsrdaş!
Dur!
Dayan!
Kimdir o gözü yaşlı,
qəlbi qanayan!
Kimdir o boynuburuq analar!?
Bəsdir,
qara əllərini uzatdı
Çırpınan qəlbinə yurdunun
Ağlayan xarabalar.
Bax, nədir o,
viranədə yüksələn,
qış budağı kimi çılpaq,
o milyon başlı heykəl?
Bax, nədir
yığılmış qalaq-qalaq
o ayaqlar, o əllər?
Bu saysız qarğalar
orda nə gəzər?
Kimindir dəbdəbəli
o möhtəşəm abidə?
Milyon barmaqlı göydə?
Kimindir o
"Şah əsər"?
Kimindir göz qaraldan
ağlayan viranələr?
Bax, odurmu?



Tanıdınmı?
On dördüncü il "mehmanı!"
Soruş, hanı
qəmli üzlə
oxuyaraq tozlu yolda yeriyənlər!
Hanı
uzaq ölkələrdə
can qoyan on milyon əsgər?
Bax sümüklərdən yüksələn
o qülləyə!
Soruşsana:
- Neçin?
Niyə,
Alay-alay
işdaşının
sümükləri üzərində
ipəklərdən salon qurub,
bayram edir ağ əllər?
Bəsdir,
yetər!..
Hərbin söküb tulladığı
milyon-milyon insana bax!
Tunelağız boruların
gur səsinə qoşularaq,
odur, odur,
bax, əmr edir:
"Tez ol, cəlladları durdur!"

**MİLYONLARIN SƏSİ**

İndi bu gün
əmək çəkən
saysız insan yurdunun
hər yerindən –
vətənində dustaq olan

insanların əllərindən
tunelağız boruların
gur səsitək,
bir amir səs yüksələrək,
deyir:
– Uzun əsrlər boyu
azad çağladıqca niaqaralar,
kölə və qul
olsun niyə qaralar?
Yaxşı dinlə!
Yaxşı dinlə, o səsi!
Bax! Nə deyir,
onun odlu nəfəsi:
– Yaxın bir gün
ətəkləri
qan boyalı
səmaların səhərində
dünyanın
ən möhtəşəm,
ən görkəmli yerində,
boğazından asacayıq
Elektrik kürsüsünü.
Asacayıq
o cəlladlar sürüsünü!
O zaman
fərəhindən daşaraq
əmr edərsən qayışlara!
Əmr edərsən
qoşulsunlar
bütün cahan dinamosu çarxlarına,
işıq-qüvvə verməkçin,
Azad ellər diyarına!

*1932*



## ZƏNCİ BALASI VİLLİ HAQQINDA BALLADA

Səhər.
Üfüqdə qan ləkəsi.
Daxma qabağında
quru budaq kölgəsi.
Kölgə – zənci balası Villidir.
Günəşli göy ətəyi maviyə çalır;
bir az tutqun,
bir az lillidir.
Yol üstündə may çiçəkləri:
kəhrəba təri,
firuzə təri,
gilə-gilə mərcan.
Daxma qapısında zənci ana;
qoynunda əlləri,
gözləri nigaranlıq içində.
Qəlbində həyəcan.
Yolun iki yanı muz ağacları.
Yol başında qırmızı məktəb binası.
Yolda Villi.
Arxada, daxma qabağında, Villinin anası.
Polis rezin dəyənəyini qaldırdı.
Dayandı neçə qara baldırlı.
Keçdi maşın.
Şüşələrində günəş.
Baxdıqca göz qamaşır.
Keçdi maşın;
arxasınca qara kölgə süründü.
Qara təkərlərin ağ köbəsi
Villiyə qara boğaza dolanmış
sabun köpüklü kəndir göründü.
Villinin təzə köynəyi ağappaq;
yaxasında düymələr
gilə-gilə qandır.
Düymə ağ da ola bilər,

sarı da, yaşıl da.
Rənglərin taleyini
Villi nə bilsin
bu yaşında.
O, gedir.
Nə sağa, nə sola baxır.
Dünən ona:
– Daha məktəbə gəlmə! – demişdilər, axı.
Bu gün məktəbdə dil dərsi,
nəğmə dərsi var.
Villi neyləsin ki,
işıqlı arzuları,
qapqara dərisi var.
Villidə həm dil öyrənmək,
həm də nəğmə oxumaq həvəsi var.
Yol üstündə may çiçəkləri:
sarısı,
qırmızısı,
ağı.
Bir aləmdir Villinin nəğmə oxumağı.
"Nağara hey, nağara hey, nağara!
Yayıl, gurultu səsi!
Nağara hey, nağara hey, nağara!
Coşsun zənci nəğməsi.
Nağara hey, nağara!
Gurultu sal dərələrə, dağlara!"
İndi nəğmə oxumur, Villi,
ağır-ağır düşünür.
Bir maraq, bir vahimə yandırır döşünü
Məktəb bir əl uzadımında,
yol uzaq, uzaq.
Nə bir illikdir bu yol;
çatasan günü-günə calayıb.
Nə bir əsrlikdir bu yol;
bir gün yetəsən,
nəsil-nəsil qocalıb.
Villi gedir:



iki yandan baxışlar sancılır ona.
Villi keçir,
sanki tikanlar arasından.
Villi gedir.
Sanki alov tökülür canına
əlinin, üzünün qarasından.
Əvvəl tək-tək dəyir qulağına
sözlərin daşı.
"Əzişdirək yaxşı-yaxşı!"
Sonra, sözlər dolu kimi yağır
bir-birinə qarışaraq:
"Qoymayın, məktəbi murdarlayacaq!"
Birdən iti bıçaq kimi kəsir qulağını bir səs,
"Köynəyində qırmızı düymələrə bax!"
Villi tək.
Onlar çox.
Adı ağ, qəlbi qara "demokrat"
markalılar.
Amerikanın ləkəsi – irqçi
amerikalılar.
İrəli yol yox.
Geri yol yox.
Birdən qışqırıq töküldü yola:
tabağa dəmir üstünə tökülən çınqıl kimi.
Məktəb yolu
daraldı,
daraldı,
daraldı;
qaldı indicə qırılacaq qıl kimi.
Adam səsi,
it səsi,
ağac səsi,
daş səsi.
. . . . . . . . . . . . . . . . . . . . . . . .
Yerdə bir qara yumaq,
bir də quru budaq kölgəsi.
Gilə-gilə qırmızı düymələr

dağılıb hər yana:
ağ köynək üstünə,
saçlara,
qara dodaqlar arasına.
Villi qara.
Buludlar ağ.
Torpaq qırmızı,
Yol başında,
bir əl uzadımında –
məktəb binası.
Daxma ilə məktəb arasında,
uzun bir həsrət yolu.
ümid yolu.
Yerdə əlvan çiçəklər,
göydə günəş,
planetimiz dolu insan ola-ola;
Villinin qanını tökdülər
məktəbə gedən yola.
Nə gileydir bu, nə şikayət.
Burda bitmir hekayət.
Sevinməsin ağ kəfənli Ku-kluks-klan.
Bir mən deyiləm, bu ağrıdan
yuxusuz qalan.
Amerika böyükdür.
Xalq onun yiyəsidir.
Bu gün olmasa da, sabah
milyonlar son sözünü deyəsidir.
Uzaq deyil o gün:
nə ağı, nə qaranı
bir-birindən ayıran olacaq.
Kim bilir, bəlkə
balaca Villinin qanı tökülən,
elə bu yerdə, sabah
azadlıq nəğmələri üfüqlərə yayılan
böyük bayram olacaq.

*Bakı, iyun, 1963*



# ALMANİYA

Sarı göylər ardında
gizləndi günəş;
Yenə kükrədi, qalxdı
bağrımda yatan atəş.
Qarşımda qəzetlər
alman xəbərli;
Gözlərim sətirlərə dikili,
Alnım tərli.
Bu qara sətirlərin dili
yalayır gözlərimi;
yaralı bayraq ucuna oxşar
alovlar kimi.
Sətirlər üşüdür məni,
tikan-tikan qar kimi.
Alman xəbərli sətirlər
böyüyür gözlərimdə.
Sətirlər sirlər açır,
sətirlər nifrət saçır,
sətirlər hey qan verir
yaralı ürək kimi;
sətirlər fərəh kimi;
doğrulmuş dilək kimi.
Zənn etməyin,
sətirlərdən duymuşam
ağu rəngli bağçaların
sarı xəzan qoxusunu, –
günlər yazdı beynimdə
o torpaqda keçən ömrün
qara gözlü qorxusunu.
Qazma rəngli gecələrdə
damcı-damcı
axan, axan
məşəllərin qan-alovu
gözlərimdə canlandırdı bəşərin
daş yollarla keçib gələn

heykəlini.
Mən başlayan gündüzlərin
ocaq gözlü səhərində
sıxdım böyük dostumun
qabar-qabar əlini.
Xəyalım gəzişərkən
göy ətəkli göylərin
sinəsində,
üfüq pəncərəsində
gülür ay!
Car çəkilsin,
düşsün haray!
Niyə? Neyçin?
Göy üzündə ay olar,
ulduz olar...
Burda heyrətli nə var?
Yox, aldanma, aldanma!
Məni sadəlövh sanma!
Şairlərin əlindən
qurtarmışsa yaxasını,
ay tutmuşsa göydə qərar,
demək, cəhrə kimi sızıldayan
liriklərin əlindən
qurtaran da var!..
Çəkilib
bir daldaya,
göz qoyaram mən aya.
O gülür yenə.
Sevinməmək haramdır.
Can qurtarmış ay üçün
bu, böyük bir bayramdır.
Baxır, baxır,
gülür yenə;
Dəcəl uşaq kimi minib
dəniz ləpələrinə.
Uşaq kimi sevincindən
gözləri yana-yana,



sallanır iki yana;
düşünməyir: nədir mənim
həyəcanımın səbəbi.
Od göynəkli sətirlərin ətəyi
gəzir mənim beynimi,
isti bir xəyal təki.
Artıq səbrim iradəmin
çərçivəsindən daşır...
Dinlə, məni dinləyən!
Dinlə!
Qələm danışır.

## SƏHİFƏLƏR

Qarşımda açıqdır
cahan xəritəsi,
köksündə Almaniya –
qara bir ləkə.
Almaniya – yarasalar yurdu,
Almaniya – faşist ölkə...
Tarixin ağırlığı
Veddinqçilər belində.
Ölüm
alçaq evləri tanıyır Berlində.
Almaniya!
Ey Höte, Bethoven yurdu!
Söylə, neçin qoynunda
bayquşlar yuva qurdu?!
Almaniya, söylə, nədən,
tarix başlanırkən yenidən,
bağrında yurdlandı yarasalar?
Almaniya!
Tarixi varaq-varaq arasalar,
saya gəlməz cinayətlərin.
Qoynundakı zülmət dəryadan dərin.
Elm ocaqlarından

ibadət səsi gəlir.
Mədəniyyət yurdlarından
qandal, buxov qıcırtısı yüksəlir.
Girmiş öfkənə, yeyər səni böhran.
O, sənə yad deyil,
canı canından,
qanı qanından,
Öz doğma balandır.
Səni o vərəmli günlərə salandır.
Onu sən doğdun,
sən, Almaniya!
Qoynunda acı yellər əsən Almaniya,
Qoynunda böyütdün
cəllad ordunu.
Nədir bu qaranlıq
yolların sonu?!
İradən bir ovuc
quldur əlində.
Ölümün başlənir, bax,
onların əməlində.
Böhran girib qoynuna
səni içindən yeyir.
Qulaq as bir tarixə,
qulaq as bir, nə deyir!
Odur susuz dəyirmana çevirən
qaynar zavodlarını.
Odur quraqlıq kimi yandıran
tarlada otlarını.
Odur səni göndərən
ölümün qucağına.
Odur qoynunu döndərən
İşsizlər ocağına.
O sənin bəlandır.
O sənin balandır.
Onu sən doğdun, sən, Almaniya!
Gündüzünün yolunu dumanlar kəsən
Almaniya!



Gözlərində
səmaları dumanlı bir
xəzan ağlar.
Səndə daşlar əridən
matəmli sərgüzəşt var.
Açıqalın oğulların
zindanlara atıldımı?
Ala gözlü gözəllərin,
hər gecədə
beş markaya satıldımı?
Dərdin dəryalardan dərin,
söylə, hanı
böyük Telman?
Nədir o, bayquşların
dimdiklərindəki qan!
hey,
hey,
ölümlərlə dalaşan Almaniya!
Yalın ayaqla
daşlı yollar aşan
Almaniya!
Almaniya,
fərqin varmı
daş divarlı məhbəsdən?!
Qanlı xəbərlər gəlir
Qoynundakı
aysız dəmir qəfəsdən.
Qara gözlü gecələrin
cinayətlər bacağıdır.
Dünya görmüş qoca Berlin
ziddiyyətlər ocağıdır.
Sinəndə yüksəlir
dar gözlü qazamatlar.
Hər biri ömür yeyir –
amansız qan buruğu.
Ölür
sənin Leyptsiqin,

Darmştatın,
Hamburqun,
hər tərəfdə
sarı üzlər,
batıq gözlər.
Polis dabanlarında
parça-parça insan əti.
Neron belə ar edərdi
görsəydi bu cinayəti.
Bir yatalaq biti kimi,
faşizm daraşdı sənə.
Almaniya!
Rot-front yumruqları yüksəltsənə!
Diqqətlə bax, dünya olur
bizimlə şən, Almaniya!
Səadətə yol tutur
hər qəlbindən bizimləşən;
Almaniya!
Gəncliyini neylədin,
hanı Libknext, hanı?
Söylə,
söylə,
neylədin
Rozanı?
Döyçland, sən susursan,
demək, qaradır üzün?
Yoxdur deyəcək sözün?
Döyçland,
cavab ver!
Gülləyə tutulan
nəğmələr kimindir?
Zindana salınmış
səhərlər kimindir?
Kimindir ağlayan gecələr?
Kimindir süngüdə yırtılan bayraqlar?
Hər gecə
qoynunda



cinayət gecələr,
bağrında
ölümlər balalar.
Almaniya, zindana çevrilmiş ac diyar!
Hanı Hayne,
bəs hanı?
Hayne, hardasan.
Hayne!
Ey əl verib ayrılan,
qoca əsrlər oğlu!
Qalx bir,
o atəş dolu,
qaynar şerlərinlə
bu gün Berlin meydanında
gəl dilə!
Bax qanayan kitabların
büsatına.
Alovlar qalxırkən göyün
yeddi qatına...
Hayne, Hayne,
bir sor,
öyrən,
külə dönən kitabların sayını!
Alovlar yüksəlir,
alovlar axır...
Bax günlərin hikmətinə –
qan rəngli bu alovlar
tarixdə qətran kimi
qara ləkə buraxır.
"Nəğmələr" kitabçanı
görürsənmi ocaqda?
Qollarını uzadaraq
sarı,
alov dillərilə
çağırır səni,
Hayne, Hayne,
Eşidirsənmi onun

"qurtar" deyən
harayını?!
Bax, yellənən alova
Elə bil ki, ulduzlardan asılmışdır
çilçıraq,
əriyir əsrlərin böyük mədəniyyəti,
saniyələr içində yanaraq.
Bir mənfur səs dolaşır.
O səs dəmir burğacla
qulaqlarda yol açır:
"Eşidincə mədəniyyət sözünü,
Sarsıdır məni acı bir kin;
axtarır barmaqlarım
tətiyini brauninqin!.."
Tanıdınmı o səsi?
Tanışdırmı sənə o faşizmin ifritəsi?!
Bizmi qıracaqdıq
mərmər heykəlləri?
İndi gəl, axtar
qoca Vaqneri!
Gəl, Hayne!
Gəl, bax bir də
"Nəğmələr" kitabçana!
Mədəniyyətin kül oldu bu yerdə.
Axtardılar diri Vaqneri,
tapmadılar.
Eh,
onlara nə var!
Kəsdilər başını
meydandakı daş Vaqnerin.
Bir oğru kimi qovdular
Eynşteyni...
Dəyənəyə tutdular
düşünən hər beyni.
İnan Hayne! İnan Hayne!
Heç bir tövlə görmədi
faşist adlı bu məxluqun tayını.



Yayıldı Almaniyaya
faşizm adlı
bir çuma.
Kötək əl verməyəndə,
balta keçdi hücuma.
Qalxsın,
əsrlər oğlu –
Böyük, məğrur Bethoven,
yazsın ağır sonatını.
Qanlı günlər oynadanda
kirli tarix meydanında
son atını...
Dustaqların fəryadı
əvəz etdi onun simfoniyasını.
Göbbelsmi saxlayacaq
adı dara çəkilən
dühaların yasını!
Eşit sözlərimi, sən
yaxşı eşit, Almaniya!
Həm baharı,
həm qışıyla yaşıd Almaniya!
Yumruqlayır aydın günlər
qara əsrin qapısını.
Bu vuruşun əvvəlidir,
daha yaman olar sonu!
Havadan iyləyincə
qara ölüm havasını, –
araya buraxdılar
çoxdan sınaqdan çıxmış
fitnə, yalan qarğasını.
Az gördülər konslagerdə dustağı,
xəlvətcə yandırdılar
özləri, Reyxstaqı.
Yandırdılar, bilirik.
Qəzetlər düymələdi
cinayətin yaxasını.
Əvvəlcədən bərkitmişdi

canilər öz arxasını.
Bağırdılar:
– Kommunistdir!
Qırmızıdır!..
Əmr aldılar ağalardan:
"Durma, aralığı qızdır!"
Biz bunu yaxşı bildik.
Biz sinif qovğasında
naşı deyildik.
Sildilər sözlükdən
Marks, Engels adını,
Gərdilər Almaniyaya
"Qurtuluş" qəhrəmanının
bayquş qanadını.
Doğru deyib atalar,
belə gözəl məsəl var:
"Olmayanda yerdə yiyə,
donuz çıxar təpəyə!.."
Yox, yox Almaniya!
Yiyən də var,
səni əziz ana kimi,
ürəkdən istəyən də var.
Lakin,
fürsət düşüncə
o faşist "igidlərə",
tapşırdı səni onlar,
əli qanlı Hitlerə.
Almaniya!
Qoca ölkə!
Çox yaşlı Almaniya!
Tarixi ölüm dolu,
yolları da ölümlü, savaşlı Almaniya!
Sinəndə at oynadır
bu gün qanlı quldurlar.
Namuslu oğulların
dustaqdırlar, quldurlar.
Sabah, inan,



doğacaq
ləkəsiz günəşlər.
Boğacaq zülməti
nurlu bir səhər.
Hitler! Hitler!
Söyləyirlər, azğınlaşır
ölüm çağı quduz itlər.
Hitler!
Hitler!
Qanlı əlinlə bağlaya bilməzsən
sən dünyanın yarasını.
Kim tanımayır səni,
alnı çarpaz damğalı,
nurdan qorxan yarasanı?
Əvvəlcə cəza hazırladın
kommunistlərə.
Sonra "başla" dedin
doktor Byuknerə...

## "İŞ BAŞINDA"

Məhkəmə açılır:
hazırdır
müddəilər,
qorucular.
Almaniyada "insanlığa" hörmət var.
Nəzakət,
ədəb öz yerində.
Təmiz əlcək
polislərin əllərində.
Doğrudur,
yandan görünür rezin ağaclar,
lakin,
bundan ağalara nə var?
Salonun qapısında

əzmə-büzmə bir qadın
xumarlanıb söykəndi
baronun sağ qoluna.
Yavaşıtdı ayağını,
büzərək qan boyalı qırmızı dodağını,
dedi:
"Əhvalım qarışıqdır,
heç açılmayır könlüm,
xəstələnib "Yun-lüm" –
Dünən
quyruğunu bulayıb,
yıxıldı ayağıma.
Aman,
gözlərində necə məzəmmət vardı!
Sanki üzümə baxıb
gözlərilə yalvardı.
Baxışları,
məlul, məhzun.
Baxdı üzümə,
uzun-uzun.
Dedim:
– Yun-lüm!
Nə var gülüm?
Yıxılıb arxası üstə,
Ayaqları göyə qalxdı.
Sanki indi danışacaqdı.
İnləyirdi ağır-ağır,
Of... Baron!
Bilsəniz,
üç gün
Nə ağır dəqiqələr keçirdim!
Müalicə edəni doktor Foxtdu.
O da qorxdu.
Dedi: "Bəlkə...
Xatırlarkən gözüm dolur,
ürəyim xarab olur.
Hər gün üç dəfə dərman.



"Mənim allahım"
sözləriydi dilimdə dolaşan.
Bir həftə sürdü azar.
Gecələr tez-tez qalxar
çıxarardıq onu çölə.
İndi ölə... bir azca sonra ölə...
Rəhmlidir yaradan.
Ayırmadı məni ondan.
Artıq azar sovuşur,
görünür, böhran keçir.
Yavaş-yavaş
süd içir..."
Məhkəmə başlanır.
Salonda işıq yanır.
Oturmuşdur:
"müddəilər",
"qorucular",
"hakimlər",
Daha kimlər...
Almaniyada
"qanunlara" hörmət var.
Məhkəməçilərə məxsus
ayrıca yer qayrılmış.
Salonun baş tərəfi
barmaqlıqla ayrılmış
bir heyvanxana kimi.
"Müqəssirlər" sakitdir,
Şahidlər çox əsəbi.
Otaq təmiz və isti.
Salonun məhkəmə bölməsində,
dörd adam var,
qalanları faşistdir.
Məhkəmə başlayır;
qəzetlər, ağrı çəkən məhkəmənin
bic oğlunu əvvəlcədən alqışlayır.
Hər bir şeyi öz yerində,
hətta...

danışmağa "haqqı" var
burda "müqəssirlərin"də.
Lakin...
quldurlar sorğuçu.
Söz bilənlər, ağzında
qanlı "qanun" surğucu.
"Qanunun" hər sətrində
rezin dəyənək səsi.
Budur faşist məhkəməsi!
Üzlərdə bir intizar:
Görən, necə olacaq
məhkəmədə son qərar?
Məhkəmə başlanır.
Dörd bir yanda ovçular,
Ortada dayanmış ov.
Müqəssirlər durdular;
İlk sırada Dimitrov.
Gözlər zəli kimi dikildi ona.
Salonda:
bir-birinə toxuna-toxuna
ağalar özünə yer elədi.
Kim isə göstərərək Dimitrovu:
– Baxın, diqqətlə baxın,
o, kommunistdir – dedi.
Xanım lorneti taxdı,
Diqqətlə ona baxdı.
Heyrətdən çaşdı qaldı.
– Kommunist?.. Ola bilməz.
Mən buna inanmıram!
Mən kommunist görmüşəm...
bəli, kommunist, amma...
Baron sorucu gözlə
baxdı qoca madama.
Xanım duruxdu bir az.
Sığalladı bişmiş almaya bənzər üzünü
Bir az süzdü gözünü.
Dodağını büzə-büzə,



başladı sözə:
– Biz Her Henrixlə
dönürkən Darmştatdan,
yolda
üç polis gördük;
qarşılarında adam...
Fu... Gör, adam deyirəm;
bədheybət iyrənc məxluq.
Bizi gördü.
Bərk öskürdü.
Sonra durdu.
Biz də durduq.
Baxdım.
Qorxudan az qala ki, orda yıxılacaqdım.
Üzü pomidor kimi, qırmızı.
Qaşı, gözü torpaqlı.
Ağzında bir dişi yox.
Doğrusu, qorxuncdu çox.
Yanağı göy, alnı göy.
Paltarı tikə-tikə,
Bədəni başdan-başa
qara ləkə, göy ləkə.
Odun kimi sallanmışdı bir qolu.
Şübhəsiz ki, sərxoşdu.
Dayana bilməyirdi ayaq üstə.
İnsanmı?
Fu... barbar.
Henri də anlatdı ki,
Kommunist belə olar!..
Sonra pudralayaraq üzünü,
– Bu ki, adi adamdır, – deyə
xanım bitirdi sözünü.
Arxadan göy köynəkli biri,
yumruq bükülərək əlləri,
kinli gözlərlə baxdı,
sonra sakitcə dedi:
– Xanım,

səhv edirsiniz!
Gördüyünüz
kommunist faşistə
rast gəlmişdir.
Vəhşiyə rast gələnlər
əlbəttə ki, didilir.
– Səssiz!
Məhkəmə başlanır.
Dinləyiniz!
Doktor Byukner
Zilləyərək gözünü kağızlara,
dırnağı ilə
stolun kənarını qopara-qopara,
danışdı yavaşdan:
– ...Bütün bunlar, əlbəttə, səbəbsiz deyil.
Görürsünüz, bu il
kommunizm hücuma keçmişdir.
Məhkəmə hamısını aydınladar bir-bir.
Görün iş nə yerə çatdı,
səfil bolqarlar da, –
onlar da
vətənimizə doldular.
Bu yadlardan qorumaq vətəni,
buraxmamaq ora hər yetəni
vəzifəmizdir,
həm də müqəddəs.
Bunu bilməlidir hər kəs!
Özünü qoruya bilər
müqəssirlər.
Məhkəmə başlayır işə,
müttəhimlər razıdırmı bu gedişə?
Dimitrov gülümsəyərək
dedi:
– Başlayın görək!
Keçdi günlər, gecələr,
Ömrün ağlı-qaralı
köhnə zənciri kimi.



Bu gün də bir təzə şey vermədi,
faydasız keçən o biri kimi.
Məhkəmə uzandı, uzandıqca,
ancaq ki, görünmədi
sübut dolu sandıqça.
Əvvəlcədən düzəlmiş
qaydanı gözləyərək,
bir gün söz verildi "qoruyucu" Zaka.
O, yağlı gözlərilə salona baxa-baxa,
başladı "müdafiəsini".
Gah alçaltdı,
gah yüksəltdi səsini.
Doğradı – tökdü.
Kommunistləri söydü.
Sonra da dedi ki: – Mən
imtina eyləyirəm
kommunist müqəssiri müdafiədən.
Bir bolşevik kimi cəzalandırıb onu,
əlbəttə, vurmalıyıq boynunu.
Lakin hiss edən,
nəfəs alan bir can kimi,
müqəssir bir insan kimi,
bəraət ala bilər...
bəlkə də... almalıdır...
– Cənab Zak!
Müdafiə torbanız yamaqlıdır! –
deyə səsləndi Dimitrov, –
– Yırtığından görünür bəzi şeylər.
Sizin müdafiənizə
ehtiyac yoxdur. Yetər!
Sədr hiddətlə qalxdı.
"Müqəssirlərə" baxdı.
– Hüdudu keçirsiniz, müqəssir!
Bura böyük alman məhkəməsidir.
Sözünüzü kəsərəm!
– Kəsməkdə qəssablarındır birincilik!
– Otur, bolşevik!

Keçdi bir neçə gün daha.
Astar düşdü üzdən baha.
Günlərin birində,
zəng səsləndi sədrin əllərində.
– Drink...
Xarabalığa qonan bayquş kimi,
göründü kürsüdə Görinq,
fikri "aydın",
sözü qısa:
– Məhkəmədə kommunistlər
bəraət qazanarsa,
yol taparıq intiqama.
Mən göz yumub,
qol çəkirəm ittihama...
Salonda tərpəşdi bəziləri
tüfeyli qurdlar kimi,
Bəzisini sancdı sözlər,
tikan-tikan qar kimi.
Hər tərəfdə məzar keşikçiləri!
Düşdü xofa,
Söz verildi Dimitrova.
Dimitrov sakit durdu.
Bu rəzalət dünyasına
O, qərar oxuyurdu:
– Bizə vəhşi dediniz.
Bütün bolqar millətini
adlandırdınız barbar.
Yox, yox, cənab ağalar!
Bolqar işçisi bu gün,
böyük, yüksək əməllərə bağlıdır.
Onlar gözəl gələcəyə,
ümidlərlə yaraqlıdır.
Lakin, cənab ağalar,
mən etiraf edirəm:
Bolqariyada vəhşilər
və yırtıcılar da var.
Bunu hər kəs bilir:



onlar – bolqar faşistləridir!
Lakin... sizlər...
Axtarın ölkələri birər-birər,
harda faşist – deyil barbar?
Cavab verin, ağalar!
– Müqəssir, hüdudu aşmayın!
Mətləbdən kənar qaçmayın!
– Deyəcəyim azdır, az!
Bu keçən günlərdən aydın
səhifələr olmaz.
Uzun aylar göstərdi
qum üstündə binadır
Bu məhkəmə, bu oyun.
Bu fitnəyə son qoyun.
Mən firqəmin adını,
qoruyacağam son günə qədər.
Buna mənim iradəm,
gücüm,
həvəsim də var.
Cəzalandırın məni bir asi kimi,
çürüdün məhbəsdə
yüzlərlə başqası kimi!
Bunlar məni qorxutmaz,
qorxutmaz, cənab Görinq!..
Mənim bir məhkəməm var:
O da polad sıralı böyük Komintern!..
Sədr ayağa duraraq
deyir:
– Olmaz
Burda təşviqat aparmaq!
Tez-tez kəsirlər kommunistin sözünü
baltasilə məhkəmə qanunlarının.
Haqqı düşmən əlindədir
qanun açarının.
Beş gün, beş gecə
çimir etmədi ləpələr.
Mürgülü göylər də yummadı gözünü.

Sabahı diri açdı yorğun gecələr.
Yatmadı tellərdə ağlayan rüzgar.
Beş gün,
beş gecə
qaçdı buludların yuxusu.
Buludlar dolaşdı hər yeri,
bulanıq sellər kimi.
Böyük cinayət qorxusu
beş gün,
beş gecə
gəzdi ürəkləri,
tikanlı tellər kimi.
Veddinq qəlbi qanaya-qanaya,
İl sürən dəqiqələri
sanaya-sanaya,
gözlədi son qərarı...
Beş gün,
beş gecə
dünya proletarı
səsləndi:
– Kommunistlərdən əlini çək!
Onlara kim toxunsa,
bizə cavab verəcək!..
Havalarda gurladı
şaxtaların, mədənlərin
zavodların gur səsləri.
Qızartdı qan məşəllər
göydəki nərgizləri.
Beş gün,
beş gecə keçdi...
Ay yuxulu gözlərini qıyaraq,
üfüq ardında batdı.
Günlər keçdi, vaxt çatdı.
Daşa dəyib çovuyan
güllə kimi
bir xəbər gətirdi
23 dekabr.



Ağalar başını itirdi.
Veddinqi dolaşdı bir səs,
İsti mehriban nəfəs:
"Atılan böhtanlar qayıtdı geri,
məhkəmə boğazlaya bilmədi
kommunistləri!"
"Yetər bu komediya, yetər,
Azad olmalı kommunistlər!" –
deyə bağıranların səsi
qorxutdu...
Faşist məhkəməsi
verdi son qərarı.
Doktor Byukner –
o faşist qırmancı,
gülümsəyərək acı-acı,
qalxmış ayağa,
özü elan etmiş:
– Məhkəmədə bilindi iş,
əlbəttə, yanğın
kommunistlərin əməlidir.
Sakit yurdumuzun
istirahətini pozan
o allahsızların əlidir...
Məhkəmə hamısını aydınlatdı,
hər şeyin yerinə çatdı:
Yanğından faşistlərin xəbəri yoxdur!
Bunu isbat edən vəsiqələr çox-çoxdur...
Məhkəmə aydınlatdı.
Venderlubbe doxsanıncı illərdən
qatı bir bolşevikdir.
Məhbəsdə də, deyirlər,
Marksa səcdə edir...
Lakin...
Yanğından faşistlərin xəbəri yoxdur.
Bunu isbat edən vəsiqələr çox-çoxdur!
Kommunistlərə gəlincə,
aydınlaşdı bircə-bircə,

başqa sübut yoxsa da,
bir kibrit tapılmış Dimitrovun cibindən,
Demək...
yanğını odur törədən!
Şübhəsiz,
özünüz bilirsiniz,
yanğından faşistlərin xəbəri yoxdur,
bunu isbat edən vəsiqələr çox-çoxdur... –
Məhkəmə inanır,
məhkəmə isbat edir ki, bu iş
kommunistlərin boyuna biçilmiş.
Demək... Burdan aydın olur ki,
Dimitrov və onun təki
vəhşi irq nümayəndələri,
düşdükcə yeri,
öz kommunist fikirlərini yeridirlər.
Məhkəmə bunları aydınlatdı
birər-birər.
Lakin
Yanğından faşistlərin xəbəri yoxdur.
Bunu isbat edən vəsiqələr çox-çoxdur!
Məhkəmə,
şahidlər az olduğuna görə,
ən ümdəsi,
insanlıq adına,
bəraət verir kommunistlərə.
Yenə də qeyd edirik biz,
unudulmasın hərgiz:
yanğından faşistlərin xəbəri yoxdur.
Bunu isbat edən vəsiqələr çox-çoxdur.
Belə bitdi faciənin
komediyalı sonu.
Belə bitdi təlxəklərin oyunu...
Budur gülünc bir sonun başlanğıcı!
Faşizmin çürük dişli,
gözü qanlı qancığı
qapmaq istədi, dişi dəydi daşa.



İndi düşüb təlaşa.
Lakin Veddinq! Unutma!
Düşməni bir əlində tutma!
Son işbaşı köynəyini
yandırıb, eylə fanar.
Lazım gəlsə,
ayı da göydən qopar!
İşıqlat qaranlıqları!
Faşizm – o çəpəl qarı
pusur döngələrdə.
Yenə fürsət düşən yerdə
kəsməkçin səsini
ölməz qəhrəmanların,
Yoldaş Dimitrov kimi
sarsılmaz insanların.
Veddinq!
Qarovulda möhkəm dur!
O, gələcək günlərin
Böyük, nəcib oğludur!

*Bakı-Moskva, 1933-1934*

## İNQALESYO

*İnqalesyo ispaniyalı bir pionerdi. Mən onu Misxorda (Krım) uşaq sanatoriyasında gördüm. O axşam pionerlər tonqal qalamışdılar. İnqalesyo mənim diqqətimi cəlb etdi. Onu çağırdım. Çox qəribə bir ləhcə ilə danışırdı. O, İspaniyadan, faşizmin qanlı çəngəlindən qurtarmış, indi Sovet İttifaqında yaşayan yüzlərlə uşaqlardan biri idi. Ancaq o, qəmli idi. Onun bütün ailəsini faşistlər qırmışdı.*

Göy Misxorda günəş sönür,
sarı qumlar alovlanır.
İnqalesyo! Körpə qardaş,
gözlərində alov yanır!

Qıvrım başın əyilmişdir,
doluxsunmuş qara gözün.
O həsrətli baxışlarla
dikilmişdir hara gözün?

İnqalesyo! Ruhundakı
o həsrətin adı nədir?
Bir "İspaniya" sözü hər an
dodaqlarını titrədir.

İlk oğlumun adı Anar,
sən ikinci övladımsan!
Mən bilirəm, könlündəki
dərdə dözmək deyil asan.

Keçir yoxsa xəyalından
Asturiya – ərlər ölkəsi?
Hər yerdə qanlı xaç kimi
gəzən təyyarə kölgəsi?

Atan öldü cəbhələrdə,
sən almadın sorağını.
Bəlkə anan götürmüşdür:
onun döyüş yarağını?!

Bəlkə, Krım havasında
sən gəzəndə gecəyarı,
Barselona yollarında
bomba qırır balaları?!

Bəlkə dostun kiçik Xoze
əlində məktubun sənin,
daş altında ölür indi,
bir küncündə Valensenin?!

Bəlkə indi Toledoda
beş-on Mərakeş əsgəri,



öldürməyə aparırlar
bir qəhrəman pioneri!

Bəlkə qoyub gedib Karmen
kuklasını quru yerdə,
bağlamaqçın igidlərin
yarasını cəbhələrdə?!

Fəth edərək yoldaşların
bəlkə düşmən təpəsini.
Oxuyurlar orda indi
qalibiyyət nəğməsini?!

Sən bu azad torpaqlarda
ən sevimli bir qonaqsan.
Burda çoxdur anan sənin!
Böyük xalqdır burda atan!

O balaca yumruğunu
büküb, məğrur duranda, mən
inandım ki, məğlub olmaz
İspaniya, ana vətən!

Azad eldə, bəlkə bir gün
çıxıb yola biz səninlə,
Asturiyanın dağlarını
dolaşarıq gülə-gülə.

İnqalesyo baxır, susur...
Qara gözlü, açıq alın.
Birdən əlini qaldırıb
Bağırır: Viva Stalin!

*Yalta, 1938*

## MADRİD

Salon.
Tavanda işıqlar
oxşayır bahar çiçəyinə.
Paris "Karmen"ə gəlmiş yenə.
Gələnlərin sayı artır.
Çıraqban olmuş "Qrand-teatr",
Lojalar sıra ilə gəzdi
durbinlərin şüşəsini
Allah kəssin
bu centlmenlərin peşəsini,
Kimi görməyə gəlib,
kimi görünməyə.
Kimi son modadır deyə,
süfrə alıb bürünməyə.
Kirpikləri *tikan*.
Dodaqları çiyələk.
Salonun çoxu
Paris xanımlarıdır,
qısa desək.
Başlandı ölməz akkordları
Bizenin.
Nədənsə,
ruhumda yaralı bir ənin;
könlümdə
boğuq bir hıçqırıq gəzər.
Toreodor nəğməsi
titrəyir nədən?..
İlan görmüş kimi,
gözüm
heç ayrılmır səhnədən.
Birdən Karmeni gördüm.
Gördüm Karmeni...
Karmen yaşlı gözlərlə
süzürdü məni.
Xoze açdı tökdü dərdini,



dinmədi Karmen.
Dəli bir eşqin alovunda
isinmədi Karmen.
Üzündə elə bir ələm vardı ki...
Gözlərindən elə şikayət axırdı ki...
Baxışı yandırdı bağrımı.
Paris göyləri
Karmenin böyük dərdinə sığırmı?
Salonda artıq səslər.
Bu nədir?
Dirijor
eynəyini düzəldir.
Bir an
dinməsə Karmen əgər...
Rejissor yıxılacaq
durduğu yerdə...
Bir an da susarsa,
pərdə!
Yox,
yox!
Tərlan könül coşdu yenə.
Cilovsuz yel doldu
Karmenin ətəklərinə.
Səsləndi çarparalar.
Orkestr gurlayır.
... Cəngənə rəqsi...
Gözləri Karmenin
alışır, yanır.
Səslənir sümük çarparalar.
Fırlanır Karmen.
fırlanır.
Salon titrəyir çəpik səsindən
Paris məcnunlaşıb
dəli nəşəsindən.
Birdən dayanıb səhnədə bağırdı
Karmen:
– Meyxanələr deyil yerim!

Silah verin!
Silah verin!
Çarparaları tulladı
Dirijorun başına.
Salon heyrətlə dondu,
Karmenin
bu proqramda yazılmamış
savaşına.

*Bütün salon bir-birinə dəydi. Xanımlar ipək quyruqlarını yığaraq lojaları tərk etdilər. Qaraçıların birindən silah qaparaq səhnədən özünü çölə atan Karmenin bu əcaib hərəkəti Fransanın "nəcib" tamaşaçılarının başında bomba kimi partladı.*

*Deyirlər Karmen rolunu oynayan ispaniyalı bir qızmış.*

Göylər qızarır
günəş çıxana yaxın.
Bəzən üfüqdə durur
qanlı nəhəng buludlar.
Bəzən ötürlər,
axın-axın...
Günəş bir az böyük,
bir az isti,
bir az da ağır-ağır qalxır.
Səhər səhərdir,
axşam-axşam –
dünyanın hər yerində;
yunkerlərin kölgəsi,
cani kimi dolaşmasa
Madrid küçələrində.
Binalar quru kəllə.
Bu – dünyalar gözəli Madriddir.
Yaxşı bəllə!
Hər küçəsindən keçmiş,
yüz tufan, yüz qasırğa.
Hər addımda ölüm gəzir,
ömürləri yığa-yığa.



Madridin nə gecəsi,
nə gündüzü var.
Gündüzləri təyyarələr kölgəsindən
qaralır,
gecələri güllələrdən alışıb yanır.
Cəbhə dolanmış boynuna
əfi bir ilan kimi;
Qıvrılmışdır üç dövrəsində,
gürzə qıvrılan kimi.
Toplar ovlayır körpələri.
Güllələrdən dolu yağır
Don Kixotun başına,
Cəlladlar kəsmiş yolu.
Torpağa düşmüş Sançonun qolu.
Nə Dulsineya?
Nə Rossinant?
"Qəhrəmanlıq" göstərirkən
nacins oğulları,
gəlsin, cəhənnəmə baxsın Dante!
Gəlsin,
zindan olmuş yurdun
böyük Dantesi,
Velaskesin güllələndiyi yerdə
qucaqlasın yurdu yanmış
Servantesi.
Əsrlərin əməyi sovrulur göyə.
Dağıdır gözəl Madridi
Faşizmin bir qarış oğlu;
özünü öyə-öyə.
Açılmış hərrac bazarı.
Millət – on təyyarəyə.
Vətən – beş topa.
Hələlik budur mallar;
bir də güllə, zopa.
Kasadlıqdır, tapılmır namus, vicdan,
Tələb də yox bunlara.
Əvəz verilirkən Əndəlis qızları,

faşist markalı qurşunlara.
Madrid, yaralı şəhər.
Bir az sakit kimidir bu səhər.
Günəş səkidə qan qurudur
Qayalar uçmuş kimi meydanlara.
Tüstüləyir binalar.
Madridin sakit başlayan günü, budur,
Qorxa-qorxa çıxır uşaqlar küçəyə.
hamının gözü göydə.
Qorxmuş kimi saralır
özü göy də.
Bitdimi?
Yuxu deyil ki, görəsən?
Küləkdirmi pıçıldayıb budaqlarda
əsən?
Hər şıqqıltı dəhşət verir insanlara,
Anasına qısılır körpə.
Analar sığınır divara,
saralan körpəsini öpə-öpə.
Guruldayan avtonu görüncə,
yavaş-yavaş,
bircə-bircə
addımlayır yolçular
dərin nəfəs alaraq.
Keçir qızlar əldə yaraq,
Keçir gənclər qatar-qatar.
Kimdir o, qaynar havasında
Madridin
qaşları düyümlü,
gözlərində kin?
Kimdir o,
qara saçları
ruzigarda axan,
yeridikcə arxada
qanlı bir iz buraxan?
Odur, o!
Parisi heyran edən



aktrisa Karmen.
Odur, bahar ömrünü,
ana Vətənə verən.
Birdən toplar qudurur.
Başlayır vurhavur.
Vur bunu!
Vur bunu!
Vur bunu!
Bağıran kim,
Daş altından,
əl uzadıb,
çağıran kim...
Qarışır aləm,
tufanda son bahar yarpaqları kimi.
havadan od yağır
çovğun qarı kimi.

*1938*

## HƏBƏŞİSTAN

Gəzəndə göylərdə
qanlıxaç təyyarələr,
kölgələri
çarmıxda insan kimi
qapı-qapı dolaşdı
qaralar ölkəsini.
İtalyanlar
parça-parça qopartdı
həbəşlər yurdunun hər tikəsini.
Bir gün,
meymunlar meşələrdə
tıxayanda qulağını,
bir həbəş qucağına
alıb qırıq ayağını,
italyana dedi ki:

– Öldürmə məni!
İtalyan baxdı,
baxdı,
gülləni
öz zabitinə çaxdı.
Bir gün,
suların rəngi günəşdən qızaranda,
bir həbəş bir italyana dedi ki:
– Qolunu boynuma sal!
Qaynar qumlar,
bir cüt yalın ayaq,
bir də qan izi...
Həbəş diqqətlə bağladı
düşmənin yarasını.
Qurumuş dodağına tutdu
su matrasını.
Bir gün,
Mussolini sarayından
Seyr edəndə səhəri,
top səsləri
silkələdi hər yeri.
Bir gün zabit,
min italyana dedi ki:
– Atəş!
Qaynar qumlar
sordu qan bulağını.
Son gülləsini atmış
həbəş
dişləri ilə gəmirdi
düşmənin qırtlağını.
Axşam.
Axşamın sahili uzaq.
Üfüqdə xəyal kimi,
titrəyir işıq adası.
Yırtılan buluddan
pəncərə açmış,
göydə batan günəşin



nurdan cidası.
Cənub axşamının
ılıq havası...
Gilyotin baltası kimi susur
italyan – həbəş davası.
Yalnız cəbhədən uzaq,
keçilərin sürüsü
dağılan yerdə
"Qardaşlar, vurun məni!"
– deyə, gülür bir həbəş.
Gülür,
güldükcə gülür.
Bağrı söküldükcə gülür.
Gülür, göz yaşıyla gülür.
Gülür, gülür,
ikiqat bükülür.
"Bir güllə, əsirgəməyin!" –
deyə, gülür.
Həyata,
ömrə söyə-söyə gülür.
Bağrına soxulmuş
Romanın zəhər havası.
Belədir faşizmin
"mədəniyyət" davası!
Analar "oğul" deyə,
düşdü küçəyə:
"Təbrik teleqramı" getsin Düçeyə!
Yer qalmadı
göylərdə uçan quşlara.
Havalar oylaq oldu
yerə ölüm yağdıran,
qanadı yanmışlara.

*Tabu bir həbəş kəndlisidir. Onu müharibəyə aparmadılar. Tabu özü getdi. Tabunun silahı yox idi. Birinci döyüşdə düşməndən bir yara, bir də silah aldı. Tabunun Xədicə adlı arvadı, Tano adlı oğlu yoxsul komasında qaldı. Tabunun müharibəyə getdiyi iyirmi gün idi. Xədicə*

*hər gün qapıda oturar, onun yolunu gözlərdi. Kiçik Tano olmasaydı, Xədicə də onunla gedəcəkdi. Lakin ömürlərinin yeganə nəşəsi olan uşağı buraxıb gedə bilmədi. Axşam günəşin son işıqları meşə arxasında gizləndi. Dünəndən bəri get-gedə daha aydın eşidilən top-tüfəng səsi azaldı, günəş batınca, tamam susdu. İndi ətrafı bürümüş sükut bayaqkı gurultulardan daha dəhşətli idi. Xədicə körpəsini qucağına alıb koma qabağında oturmuşdu. Cənub axşamının ılıq havasında həzin bir səs titrəyirdi. Bu, Xədicənin səsi idi*

Keçilərin qarası,
Layla, körpəm, a layla!
Ürəyimin parası!
Layla körpəm, a layla!
Külək tozu qaldırır,
Layla, körpəm, a layla
Yurdumuzu aldılar,
Layla, körpəm, a layla!
Yanan evlər sönmədi,
Layla, körpəm, a layla!
Gedən geri dönmədi.
Layla, körpəm, a layla!

Nəğmə – qəm, qüssə, kədər
yayılır, dörd bir yana.
Qadın yavaş sızlayır.
Qorxur körpə oyana.
Tano şirin yuxuda
qalın dodaqlı Tano.
Ana qəlbi təşvişdə,
ana qəlbi qorxuda.
Qıvrım saç, qara sifət
Tonbul ayaqlı Tano.
Uyuyur mışıl-mışıl.
Xurmalıqlar yamyaşıl.
Toranlığın içində
kədərin rəngi yoxdur.
Hər şıqqıltı, səs-səmir



Xədicəni qorxudur.
Həmin layla səsində
sanki yatır dağ-dərə.
Yanğılı bir zümzümə
yayılır boz çöllərə.

Elə baxma üzümə!
Layla, körpəm, a layla!
Dodaqlarını büzmə!
Layla, körpəm, a layla!
Tano dedim adına,
Layla, körpəm, a layla!
Tanrı çatsın dadına,
Layla, körpəm, a layla!
Layla, körpəciyim a...

Aman...
qırıldı layla.
Bir od çovudu, gəldi;
layla deyən ananın
qara başı əyildi.
Günəş getdi...
Ay da yox...
Ulduzlar uzaq...
Kim versin bu ölümdən
Tabuya soraq?!

*1936*

## HƏLƏ BU HARASIDIR!

Divarda dünya xəritəsi.
Əlvan rənglərlə ayrılmış bir-birindən
ölkələr.
Yan-yana düzülmüş
açıq rənglər,

yumşaq kölgələr,
tünd ləkələr.
Göy, qəhvəyi, narıncı, yaşıl.
Baxırsan göz qamaşır.
Əcaib bir heyvan ləpirinə oxşayır
adalar, qitələr.
Əyri-dolay dağılıb
xətlər,
nizamsız səpələnib nöqtələr.
Bu dolaşıq yolların,
bu saysız – nöqtələrin içində
axtarıram kəndimizi...

Xəyalımda canlanır
uzaq, uzaq bir dünya.
Cağlı arabası yol uzunu ağlayan
babam.
Quranı taxçada,
qat kəsmiş toy paltarını
sandıqda saxlayan
nənəm.
Quşların səsindən,
yağışın nəğməsindən,
tez-tez qırılan
quş lələyi kimi
yüngül yuxum.
İstəyirəm açım sizə bir
sirrimi.
Bilmirəm, bir mən beləyəm,
ya hamı belədirmi?
Yada saldıqca keçən günləri
hər gün bir rəngdə görünür mənə;
Şənbə sarı görünür.
Bazar ağ.
Cümə qırmızı.
Yadıma gəlir qonşumuzun
qara, uzun kirpikli qızı



və qızın boynundakı
göz muncuğu.
Yadıma gəlir nənəmin
göy gözləri,
şirin nağılı,
babamın qaş-qabağı, acığı.
Yollar yadıma düşür.
Tozlu yollar,
yulğunlu, yovşanlı yollar,
turaclı, dovşanlı yollar.
Qarğı tütəyim yadıma düşür.
Sümsüm yadıma düşür,
qarğı cəngərəklə
əlçatmaz budaqdan üzdüyüm
zingirə-zingirə
əlvan üzüm yadıma düşür.
Köbərləri qazıb
çıxartdığımız boyaq
yadıma düşür.
Bağlardan yığdığımız
şirin – əvəlik,
dağlardan yığdığımız
sumax yadıma düşür.
Bərkini, boşunu dişimdə yoxladığım
rəngli bayram yumurtaları,
bir də qoç döyüşü,
bir də havası
gah isinib, gah soyuyan
çərşənbələrin
pilənbəri tonqalları
yadıma düşür.
Yadıma düşür dağlar,
günöyündə novruzgülü;
kölgöyündə quzey qarı.
Yadıma düşür
Üç gün, üç gecə toylar,
lopabığ qaradavoylar.

İstilər, küləklər, sazaqlar,
atlı, qamçılı kazaklar.
Bir də nənəmin nağılları.
Qara qullar, kənizlər...
Fikir xatirələr yolunda dolaşır,
Yadıma Bərşad arxı düşür.
Çiləkənli şır-şır,
bir də üstündən
söyüd kölgəsi əskilməyən
qara burulğan,
bir də
yanı üstə əyilmiş çolaq pəyənin
saman suvaqlı divarında gördüyüm
qara ilan.
Hər dəfə ilandan danışanda,
Babam deyərdi:
"Xalasına lənət!
hardasa ziyanlıq elədi".
İndi babam yoxdur,
ilanlar var.
Dünyanın işi belədir.
İlan, ancaq yolu əyri gedib
yuvasına düz girən,
qanı soyuq,
ağzında zəhər olanlar deyil.
İlan, ancaq
dayqovanlar,
gürzələr,
şahmar ilanlar deyil.
İnsan var boyuna biçilib
Əqrəblər arasında birinci yer.
İnsan var, ilan desən,
ilanlar səndən inciyər.
Nə baxışında bir mehribanlıq,
nə sözlərində bir ülfət.
Baxırsan, baxırsan.
babasına lənət!



...Torpaq adi torpaq,
divar adi divardır.
İki adam boyu divarın
bircə qarış kölgəsi vardır.
Afrika günəşi zenitdədir.
Məhkumların həyat möhləti
qəbir daşı kimi sakit,
qəbir daşı kimi soyuq,
üzü təmiz qırxılmış,
geyimi təptəzə zabitdədir.
Zabit baxır üç əqrəbli saatına.
Saniyələri sayır.
Bir yerdə qərar tutmur
saniyə əqrəbi kimi.
Deyir: – Çağırın
Ruhanini, həkimi.
Qayda-qanun gözləyir belçikalılar.
Ölüm hökmünü də
səliqəli çıxarırlar.
Ruhani olsun gərək,
eşitməyə məhkumların
son rizasını.
Həkim olsun gərək,
"Ölüdür" – deyə
sənədə qoysun imzasını.
Zabit yaman tələsir.
Səbirsizlikdən, hiddətdən
dodağı titrəyir, dili əsir.
Görüşü var
saat filan, dəqiqə filanda.
Orda hazır olsun gərək,
dostlar yığılanda.
– Kim bilir, – deyir, –
ruhani ata nə zaman,
həkim nə zaman buyuracaqdır.
Söykəyin divara!
Vaxtdır!

Planşetdən çıxarır
məhkumların sadalağını.
Qələmi axtarır döş cibində.
– Bir qələm verin!
Vərdişli sağ əli açır
qoburunu
yeni markalı revolverin.
Oxuyur adları.
Məhkumlar bir-bir çıxır qabağa.
Hər yan süngü hasarı.
Qarovullar sağda, solda.
Kiminsə ayağı dolaşır
həyatla ölüm arasındakı
bir qarış yolda.
Yıxılır!
Sındırır sükutu.
Zabit qaldırır başını.
İki göz sancılır ona.
Zabitin sinəsində, elə bil
sıxılır ürək.
Elə bil, dişləyir onu
bir xırdaca milçək.
Ancaq bu qədər.
Bir quş yuxusu qədər.
Yenə zabit olur qəbir daşı
soyuq, soyuq.
Qəlbi yox, duyğusu yox.
Sən!
Sən!
Sən!
Soldan altı nəfər,
Bir də...
Barmağı ilə nişan verir
addımını tamamlaya bilməyən
yaralı dustağı.
Ayağında, qolunda zəncir
qalxır yavaş-yavaş



Laabu – zənci.
Kürəyini verir divara.
Ayaqlarını bir az aralı qoyur,
yorğun başını dik saxlayır.
Toplayır son gücünü,
divar daşlarının arasına keçirir
barmaqlarının ucunu;
yıxılmasın deyə.
Zabit bir də oxuyur adları.
Soruşur:
– Bəlkə sözü olan var?
Qara qranit qayalar kimi dayanıb
məhkumlar.
Laabu dərin bir nəfəs alır.
hava ilə doldurur sinəsini.
Mən eşidə bilmədim
onun səsini.
Bilmədim nə dedi,
Bəlkə həyatla ölüm haqqında
üç kəlməlik bir əfsanə dedi.
Bəlkə dedi:
"Hərənin bir yeri,
hərənin bir yurdu var.
Harda ömür keçirsin
ölkəsizlər, yurdsuzlar?!
Yoxsul olsun, ya zəngin,
qara, ya ağ,
insan torpaq üstündə yaşayır.
İnsana gərəkdir torpaq!"
Bu, doğrudur.
Ancaq ömrün qırbacı
insanları beledən-belə qovur.
Torpağı satın alırlar,
zəbt edirlər,
mənimsəyirlər.
– Bura bizim idi!
Bura da bizim oldu! – deyirlər.

İnanmasan,
Səs bir pərdə yüksəlir,
daha qəzəbli gəlir:
– Bizimdir!
Bizim oldu!
– Yox! – desən,
Söz verilir topa, gülləyə.
Yenə inanmasan,
susmalı olursan
zəncirlərin nəğməsini dinləyə-dinləyə.
Yenə inanmasan,
yenə qane olmasan,
yenə desən "mənimdir bu torpaq!"
Onda "qaldır başını, – deyirlər –
O gedər-gəlməz qapısına,
o yellənən kəndirə bax!
Kimin yenə sözü var?
Kimin yenə bu torpaqda gözü var?"
...Bəlkə də Laabu bunları demədi.
Bəlkə daha sadə oldu
onun sorğuları.
Bəlkə sözünü bitirə bilmədi.
Bəlkə Vətən sözünü gətirəndə dilə,
cavab verdi ona
birdən açılan yeddi güllə.
Kim qumlu səhralarda
adsız qəbirləri axtarasıdır,
hələ bu harasıdır,
hələ bu harasıdır...

Gözlərim zillənib
divardakı xəritəyə:
Axtarıram, axtarıram
kəndimiz hanı? – deyə.
Rənglər.
Ləkələr.
Canlanır gözümdə



neçə-neçə müstəmləkələr.
Qulaqlarıma dolur fəryad səsi,
inilti səsi,
bir də üfüqdən-üfüqə yayılan
qəzəb nəğməsi.
Nəğmə deyil bu.
Bir üsyan yaylımı,
qisas qumbarasıdır.
Hələ bu harasıdır!
Hələ bu harasıdır.

Baxıram xəritəyə,
Sanki dil açıb danışır
qitələr, ölkələr.
Danışır uzaq, yaxın müstəmləkələr.
Eşidirəm minlərlə insan səsini.
"Hanı yollar?
Hanı illər?
Hanı nəsillər?
Çox arzu əfsanəsi eşitdik,
çox ümid dastanı.
Hanı gələcəyin qızıl səhəri?
Hanı yuxuların dincliyi?
Ömrün baharı hanı?"
Xəyal qayıdır geri.
Canlanır gözümdə uşaqlıq illəri.
Yadıma yuxularım düşür.
Yuxular, ah, yuxular!
Uşaq aləminin əlvan yuxuları.
Hər dərdə təsəlli.
Hər müşkülün həlli,
ağlamalı, gülməli yuxular,
qəribə yuxular,
məzəli yuxular...
Düşünürəm:
Niyə o yuxulardan ayıldım, niyə?
Baş alıb getmədim

yolu bələdçisiz bir heçliyə?
Qəlbim qəmdən azad
Nə könlümdə nigaranlıq,
nə dilimdə fəryad.
Dünyanın müşkülünü görmədən,
riyasını görmədən,
düşmənin bayramını,
dostun yasını görmədən.
Çevirmədən həyatın
ağlı-qaralı səhifələrini.
Görmədən birinin xumarını,
birinin alın tərini.
Qəlbimdən bir səs gəlir:
"Yox!
İnsan ömrü mübarizədir, axtarışdır!
Günlər var bahar havalı,
günlər var qışdır.
İnsan, ancaq zövq üçün,
Nəşə üçün doğulmamışdır.
Ömrün acısı var, şirini var.
Yaşamaq – yaşatmaqdır,
Dünyanı cənnət edə bilər
İnsanlar".
Xatırlayıram
yuxularımı ərşə çəkən
vahiməni, dəhşəti.
Qır qazanlı cəhənnəmi,
qıl körpülü cənnəti.
Çəkdiyim qorxular yadıma düşür.
Əjdaha.
Zümrüd quşu.
Yeddi qıfıl,
Yeddi açar yadıma düşür.
Qulağımda səslənir
nənəmin nağılları.
Anasının üzünə ağ olan oğul.
Ağ qıza bənd olan qara qul.



Bir çubuqla cildini dəyişən insan.
İlanların dilini bilən
hindli qoca.
Ən çox qara quldan,
Bağdaddan,
Nəmrud, Şəddatdan danışardı nənəm.
Danışardı həzin-həzin,
mürgüləyə-mürgüləyə,
əsnəyə-əsnəyə.
Bəs niyə
bu gün də
canlanır gözümdə
xatirələr arxasında qalan
uzaq keçmiş, bəs niyə?
Axı günlər keçib.
İllər dəyişib.
İndi kəndimiz kolxoz olub.
Çox daşlar ayaq altında ovxalanıb,
Toz olub.
Neçə cağlı arabanın
sınıq-salxaq skeleti,
çolaq daxmaların daş-torpağı,
nənəmin pas atmış yun darağı
tökülüb çala-çuxura,
həyət-baca düz olsun, deyə.
O gündən nə qalıb indiyə.
İndi yollara asfalt döşənib.
Yollar şüşə kimi olub.
Göz muncuğu nə gərəkdir.
Qonşumuzun qara kirpikli qızı
İndi göz həkimi olub.
İndi yerdə oturub
göylə danışırlar.
İndi şahmat oynayır
maşınlar.
İndi gün kimi lampalar yanır
hər evdə, hər otaqda.

İndi pəyələrin damı şiferdir,
döşəməsi taxta.
Mal-qaranın fərdi su çanağı var.
İnəkləri elektriklə sağırlar.
Bəs niyə xatırladım o günləri,
nənəmin nağıllarını?!
Niyə uzaq günlər
Nisyan çayından çıxdı gəldi,
qaça-qaça?
Niyə yadıma düşdü qara qul?
Niyə yadıma düşdü hindli qoca?

Baxıram xəritəyə, qəlbim qan olur.
Fikirlərim qarışır,
beynimdə tufan olur.
Bir səs eşidirəm:
"Afrikam! Afrikam!
Su yerinə axır qan".
Qabarlı insan əlinə
bənzəyir
xəritədə Afrika
İnsana əl gərəkdir:
yaratmaq üçün,
insanı yaşatmaq üçün.
Afrikanın sinəsi boyanıb qana,
qaralar yurdunu
qanayan bir ələ oxşatmaq üçün.
Göy qançırdır Afrikanın
hər gölü, hər çayı.
Bir qabardır
Afrikanın hər dağı.
Afrika!
Qulların qabıq qoyduğu
qalın dodaqlı, qıvrım saçlı
insanların torpağı.
Qara – matəm rəngidir,
qırmızı – bayram.



Üzünün rəngi deyil,
ömrünün günləridir
qaraları ağlardan ayıran.
Ağlar ağa gəlib o torpağa,
qaralar qul açıb gözünü dünyaya.
Ürəkləri göynədən
Afrikanın yarasıdır.
Hələ bu harasıdır
Hələ bu harasıdır!

Gözümün qarşısında xəritə.
Ağlı, qaralı ləkələr.
Danışır Afrika.
Danışır müstəmləkələr:
"Biz körpü olduq,
üstümüzdən keçdi zaman,
ağır yüklü günləriylə.
İnlədik.
Eşitmədilər.
Çağırdıq,
Hay vermədilər.
Yalvardıq,
baxmadılar.
Ağladıq,
görmədilər.
Qolumuzun zəncirini göstərdik,
– Açın, – dedik.
Açmadılar.
Yaralı düşəndə belə
bizə yanaşmadılar.
Ən insaflısı dedi:
Bir əlacın var.
Öl, qurtar!..
Nə gözümüzdə yaş qaldı,
nə qəlbimizdə məhəbbət.
İlanın ağına da,
qarasına da lənət!"

Yaraları göz-gözdür Afrikanın.
Nə yazmaqla bitəsi,
nə deməklə qurtarasıdır,
Hələ bu harasıdır!
Hələ bu harasıdır!

Yolları yara kimi açıldıqca
Afrikanın,
adı adil, xeyirxah,
dosta ağır gündə pənah
qoyuldu minlərlə ev yıxanın.
Afrikaya dedilər:
– Sən hələ uşaqsan,
bəsitdir şüurun.
Biz əmr edək,
siz şəhər salın!
Yol çəkin!
Körpü qurun!
Kim yaşamaq istəyir
bu, yeganə çarasıdır.
Hələ bu harasıdır!
Hələ bu harasıdır!

Ağalar çağrılmamış gəldi
Afrikaya;
bütün çağrılmamış gələnlər kimi.
İnsan taleyi, insan şərəfiylə
əylənənlər kimi.
Hamar, daşa bənzər bir şey verdilər,
afrikalı baxdı,
özünü gördü.
Elə bil, durğun suya baxdı,
sevindi uşaq kimi
elə ki, güzgünü gördü.
İşıltılı, dənə-dənə şeylər verdilər,
boynuna taxdı.
Əvəzində sarı qumunu apardılar.



Qum nədir?
Qızıl tozu!
Almazını apardılar.
Almaz nədir?
O da şüşədir:
Həm də xırda, kələ-kötür.
Muncuqlara bax!
Əlvan-əlvan,
qatar-qatar.
Al, götür!
Sal boynuna.
Tax qoluna!
Yeridikcə işıq salsın yoluna.
Afrikalı, döz!
Afrikalı, döz!
Afrikalı, təşəkkür et
vəliyyi-nemətinə!
Onun ədalətinə, onun mərhəmətinə.
Sənə zəhmət verməz.
Nəyin var aparmalı
özü daşıyıb aparasıdır;
Hələ bu harasıdır!
Hələ bu harasıdır!

Bir səs eşidirəm:
"Uzaqlarda bir qan gölü ada var.
Oğlumuzu ora qul apardılar.
Yük üstündən yüklədilər yük ona.
Qəlbin yanır, dərdlərini bük ona!"
Düşünürəm:
Bəlkə torpağın səsidir bu,
fırtına kimi əsən,
şaxta kimi kəsən?
Bəlkə də tanımadığım, görmədiyim,
uzaq elli qardaşım,
sənsən qəlbimlə danışan,
Sən!

Bilirəm, bitməyib sözün...
İllər keçir.
Güman – İnam olur.
Meh – Tufan olur.
Göz yaşı qəlbinə axan,
dan yerinə həsrətlə baxan
minlər, milyonlar varsa da hələ,
səninlə səngərdaş olub
Vaxt – böyük Fəhlə.
Bilirsən,
azadlıq nə xurmadır,
gözləyəsən yetişsin yığasan;
nə alçaq bir təpədir,
həvəslənib yüyürəsən, çıxasan.
Zəncirləri qırmaq azdır!
Zəncirlərin dünyasını,
gərək yıxasan!
Zülmətləri yara biləsən, gərək!
Daxmalara günəş,
könüllərə sevinc
apara biləsən, gərək!
Diz üstə çökdürüb
ömrünə zülmət çökdürənləri,
torpağına nəhr-nəhr
qan-tər, göz yaşı tökdürənləri!
Gur səsinlə deyəsən:
– Hələ bu harasıdır!
Hələ bu harasıdır!

Məzlumların qəzəbi
çox tufanlar qoparasıdır.
Uğur olsun, qardaşım!
Eşidirəm azad nəğmələrin
səsini.
Şəfəqlər salama gəlir
qaralar ölkəsini.
Fırtınalar, tufanlarla



qapıları döyür bahar.
Qarşında sevinc var,
Günəş var.
Həyat var.
Qarşında yollar açılır;
Şərəfli,
Çətin,
Ağır.
Başını dik saxla, qardaş!
Bayrağını, silahını möhkəm tut!
Dünya sənə baxır,
tarix sənə baxır.
Hələ çox bağlı qollar
zəncirlərini
həlqə-həlqə qoparasıdır,
Hələ bu harasıdır!
Hələ bu harasıdır!

*1961*

# *Yer oğlu*

## YER OĞLU

MÜRACİƏT

Üzəri insan dolu
planetim mənim!
Ulduzlar içində ilk vətənim!
Yolu başlanğıcsız, nəhayətsiz, təkrarsız
yığın-yığın işıq ilindən keçən
ilk insan yurdu!
Qoynu həyatla isinmiş məskənim,
planetim mənim!
Nə fəzadan sənə baxdığım olmuşdu,
nə başına dolandığım.
Nəsildən-nəslə şirin bir xatirə kimi keçib
göylərində qanad çalmaq həsrətilə yandığım.
Nə ulduz kimi göylərində axdığım olmuşdu,
nə kosmik günəşində alovlandığım.
İlk dəfə qoynunda qışqırmışam;
bir bədəndən ayrılıb
yeni bir canlı olduğum zaman.
İlk dəfə sənin qoynunda
ayaq üstə dayanmışam.

## ETİRAF

Mən – sənin övladın insan!
Günəşi sən göstərmisən mənə,
öz başına hərlənə-hərlənə.
Ulduzları sən göstərmisən mənə,
Ulduzlardan sən ayırmısan məni
axşamlana-axşamlana,



səhərlənə-səhərlənə.
Bu gecələrə, gündüzlərə ömür dedim.
Qoynundan ilkin ana südü əmdim.
Torpağında yetişən meyvələrdən yedim.
İçdim suyunu ovucla;
yarısını dodağımdan açıq sinəmə tökə-tökə.
Ürüyüb artdım.
Dağıldım diyar-diyar, ölkə-ölkə,
Planetim mənim!
İlkin sənin qoynunda olub
həyat uğrunda davam mənim.
Nə sevincim səndən ayrı olub
Nə kədərim.
Mənim dənizim, düzüm, dağım, dərəm,
axşamım, səhərim.
İl keçib, əsr keçib
min illər milyonlara calaşdı.
Yollar haçalaşdı.
İnsan yeyib həmcinsinin ətini
gah aclıqdan,
gah acıqdan,
gah gizli-gizli,
gah açıqdan.

## İNSAN, SƏNİN OĞLUN

Ancaq kim deyə bilər ki, o,
yalnız acı, ağrı, fəlakət
gətirdi sənə.
Yox, o, İnsan adı kimi
bir ziynət gətirdi sənə.

## ÖMÜR YOLUM

Öz-özünü dərk edib
yüksəldi pillə-pillə;
dövrdən-dövrə, min ildən-min ilə.
Sənin qoynunda duydu

ulduzların uzaq tənhalığını;
günlərin qarasını, ağını.
Duydu əllərilə yaratdığı
çörəyin dadını.
Eşitdi dalğaların vahiməli səsini,
küləyin xısın-xısın söhbətini,
quşların nəğməsini,
həmcinsinin gülüşünü, fəryadını.
Dağıldı geniş sinən üstünə
diyar-diyar, iqlim-iqlim.
Mübarizələrdə artdı biliyi,
zənginləşdi şüuru,
kəskinləşdi əqli.
Sirrini bilmədiyi hadisələr,
qorxu olub,
yuva saldı beyində,
şüurunda, allahlaşdı.
Köməksiz qalıb göylərə əl açdı.
İnsafsızlıq da öyrəndi,
necə eləyim də dedi, neyləyim də.
Qırıldı min-min,
Ömrün ölüm-dirim savaşında.
İlkin odu tapdı
sənin adi ağacında.
Qalib gəldi qaranlığa.
Açar tapdı vahimələrin qapısına,
nigaranlığa.
Yaşadı qəbilə-qəbilə.
Üz-üzə gəldi neçə rəqiblə:
zəlzələ, yağış, dolu.
Gah düşməni yırtıcı heyvan oldu,
gah həmcinsi – insan oğlu.
Güclü oldu, gücsüz oldu.
Təklərin boyunduruğunda
min oldu, yüz oldu.
Adı insan,
özü qul, ağa.



Burda sahib oldu,
orda həsrət qaldı torpağa.
İki əli, iki ayağı
sinəsində bir canlı ürək.
Tər tökdü ovuc-ovuc,
ət tökdü köynək-köynək.
Neçə həmcinsi,
iki əlli, iki ayaqlı,
sinəsində daşdan ürək
minlərin tökdüyü təri döndərdi pula,
yığdı kürək-kürək.
Ağalar
"sözümüz qanundur" dedi.
Güclülər gücsüzlərə
qan uddurdu.
Göz yaşına döndü sular.
Qan bahasına çıxdı çörək.
Doğrulmadı arzular,
Planetim mənim.

## XÜLYA

Bir-birinə bənzəsə də
düzlərin, bağların, suların,
bir-birindən ayrıldı
insan oğlunun arzuları.
Gah qan tökdü sinəsinə,
gah göz yaşı çilədi.
Gah illərlə qurduğunu
bir gündə heç elədi.
Uzundur keçdiyim yol,
uzundur hekayətim.
Çoxdur insandan-insana
gileyim, şikayətim.
Nə bir günüm qayğısız oldu,
nə bir addımım yoxuşsuz.

Nə qədər günlərim qara keçdi,
gecələrim yuxusuz.
Böldülər sinəni neçə parçaya,
neçə ölkəyə –
"Bu mənim, bu da mənim,
bu da, bu da mənim" deyə.
Bir ağıza yüz pay götürən də oldu,
insanlıq şərəfini itirən də,
Azadlıq bayrağını qaldıran da
mən oldum,
dünyaya səadət gətirən də.

## QÜRUR

Adım – insan.
İşim müxtəlif,
məqsədim müxtəlif.
Keçdim sınaqlardan, mübarizələrdən
gah yıxılıb, gah dikəlib.
İlk evim, ilk yurdum,
Planetim mənim!
Suyun – ana südü
havan – ana nəfəsi,
qoynun, ilk beşiyim kimi,
əziz olsa da mənə,
əsr-əsr həsrətlə, ümidlə
baxdım göylərinə.
Çırpındım qanadlı quşlarını görüb,
həsrətim, arzum bir ağrıya döndü
göydə ulduz qatarı görüb.
İlk beşiyim sən idin, doğrudur, ancaq
necə əziz olsa da,
"Beşikdə kim əbədi qalıb,
kim qalacaq!"
Neçələri qanadlanıb
ayrılmaq istədi sinəmdən,
çəkdin qüvvətlə onları geri.



Yolumda keçilməz sədd oldun
vaxtın sonsuzluğu,
məkanın tükənməz pillələri.
Lakin bilirdim gələcək o gün,
ayrılacaq sənin çəkim hasarından,
qalxacaq fəzalara
adını iftixarla deyib öyündüyün
İnsan.

## SEVİNC

İnsanlıq tarixində
bu səadət
ilkin mənim baxtıma düşdü.
Bu gün mənim vaxtıma düşdü.
İlkin qalxdım,
çıxdım ulduzlar yoluna
arzular dünyasından –
xəritəsində
dörd qızıl hərf yazıldı
SSRİ-dən.
Agah olum, deyə,
bu günəcən açılmamış sirdən.
Gözlərimi yumdum, açdım.
Mənə elə gəldi ki,
görünməz qollarınla qucaqladın məni.
Bir anmı, uzun bir zamanmı
ağır təzyiq altında saxladın məni.
Qucaqladın məni,
balasından ayrılmaq istəməyən
ana kimi.
Sıxdın məni, sıxdın,
gözlərim qaralana kimi.
Sonra yolumu işıqlı görüb
get dedin.
Boşaldı qolların.
İtirdim çəkimi.

Oldum quş lələyi kimi.
Açıldı qarşımda
ulduz yolları.
Lakin səndən ayrılmadım.
Sanki bir səs eşitdim:
"Soyuq fəzaların yolçusu insan!
Yerin istisini qəlbində saxla!
İndi milyard-milyard yer vətəndaşı
sənə baxır ümid, sevinc, maraqla!"
Mən də sənə baxdım.
Qəlbimə fərəh gəldi, –
torpağa bahar gələn kimi.

## İLK DƏFƏ GÖRDÜM SƏNİ

Baxdım sənə heyran-heyran.
Nə gözəlsən, planetim mənim!
Nə qəşəngsən
kosmik buludların mavi dumanında.
Nə əziz, nə mehribansan
fəzaları dolduran
saysız aləmlər ümmanında.
İlk dəfə eyni vaxtda gördüm
sahilsiz okeanını da,
qarlı dağlarını da.
İlk dəfə gördüm
gündüzlə gecəni ayıran dodaqlarını da.
Elə bil, ovcumda tutmuşam səni.
Baxıram maraqla, heyrətlə.
Günlərin, fəsillərin gəlib keçir,
ayağımın altından;
təsəvvürə sığmayan bir sürətlə.
İlk dəfə səni belə böyük, belə əzəmətli,
belə tənha görürəm.
qəlbim dolur riqqətlə
Anam mənim, Yer!



## TORPAĞIM

Yaraşıqlı dünyam.
Çiçəkli, küləkli,
qoynu nur çeşməli dünyam!
Havası ciyərim qidası.
Suyu ağzım dadı.
İşığı gözüm nuru.
Adı qəlbim qüruru.
Məhəbbəti xəyalım qanadı.
Yer adlım mənim!
Keçmiş xatirəli,
bugün ünvanlı,
gələcək soraqlı,
həyat dadlım mənim.
Ulduzlar aləmində sorsalar məndən
bütün insanlıq adından
iftixarla mən Yer oğluyam deyərəm.
Yerdə bir yerlər yeri var,
ordanam, səhər oğluyam deyərəm.

## QÜSSƏ

Nə gözəlsən, anam Yer.
Ayrıldığım bir saat deyil,
həsrətinlə ürəyim yanır,
burnumun ucu göynəyir,
yaman səni görəsim gəlir.
Qoynuna həsrət çəkirəm,
istinə, soyuğuna həsrət çəkirəm.
Həsrət çəkirəm quş nəğməsinə,
körpələrin səsinə.
Radio dalğaları
ulduzluğa alqış şimşəkləri yayır.

## SƏSİM

Qoynundan gələn insan səsi
mənə doğmadır, əzizdir.
Məni alqışlayan
xalqımı alqışlayır.
İnsan əməllərinin gözəlliyi
bizim gözəlliyimizdir.
Bilirəm, sən varsan,
Yolum var geriyə.

## SƏDAQƏT

Mənə elə gəlir ki,
yüz min illik olsa bu yol,
yenə keçərdim onu yorulmadan:
həsrətinlə sürünə-sürünə,
yeriyə-yeriyə
Üzümü qoyardım
ən adi, tozlu torpağına:
"Yurdum!" deyə,
"Anam!" deyə.
Mən sənin oğlunam.
Yerdə köləlik zəncirini,
göydə imkan hasarını qıran
İnsanam deyə.
Planetim mənim!
Göylərin əsrarlı gözəlliyi
heyran qoydu məni.
Sən hamıdan gözəlsən,
Planetim mənim!
Sən – böyük qəlbli
insan Vətəni!

*Bakı, 1960*



# *Tənhalığın sonu*

## TƏNHALIĞIN SONU

Üzümü tutdum
vaxt axarının
geri yönünə.
(Vaxt vaxtdır,
arxası nə,
önü nə!)
Çağırdım keçib getmiş
ömür illərimi.
Üzünün əziz cizgiləri
duman arxasında qalmış
doğma insanlar kimi;
gəldi birər-birər
illər – ömürdən səhifələr.

## AY HƏSRƏTİ

Əvvəlcə çocuqluğumu gördüm;
üzüqoylu uzanmışdı
ala-bula kilim üstündə.
Qarşısında,
lopabığ Müzəffərəddin şah
və üstü lapar-lapar rəng ləkəsi
kağız-varaq.
Uşaq özü – ala göz,
qara saç,
rəng boyalı ağız, burun
rəng boyalı dodaq.
Dilini çıxardıb
gah sola, gah sağa

çalışırdı boyaları
dairə içinə salmağa.
Çalışırdı
rənglər yayılmasın
cızıqdan kənar.
Çəkdiyi qızartdaq bir aydı
dörd yanında
sarı, yaşıl ulduzlar.
Niyə ay qırmızı,
niyə ulduzlar yaşıl, sarı?
Kimdir anlayan,
kimdir məntiq ipinə düzən,
kimdir uşaq olduğu üçün danlayan
uşaqları.

## NƏNƏM DEYƏRDİ

Baxdım, baxdım
uşağın çəkdiyi şəklə.
Gözlərimdə onun marağı, heyrəti.
Qulaqlarımın yaddaşında
nənəmin hekayəti:
"Anasını incidən oğlan – ay!"
Ana xamır yoğuranda
təndir başında,
dəcəl oğlan – ay,
doqquz yaşında
təngə gətirib arvadı.
Ana bir şillə vurub
ayın üzünə.
Xamırlı əlin yeri qalıb
dəcəlin üzündə.
Oğlan – ayın işi
bir oyun, bir marəkədir.
Diqqətlə baxsan üzünə
çopur-çopur,
ləkə-ləkədir".



Qulaqlarımda susdu səs,
Düşündüm: hanı bəs,
hanı bu əfsanələrə inandığım
bəxtiyar çağlarım.
O zaman ki, yeriyəndə
yerdən bir qarış hündür
gedərdi ayaqlarım.

## KÖRPÜSÜZ UZAQLARDA

Bir bahar axşamı
mavi qaranlıqda
üfüqə yayılıb
Tənhalıqdan gələn
işıq sarısı.
Gəncliyimi gördüm
O, tək deyildi;
gəncliyim mənim.
Əlində xurmayı saçların qulacları
şülək-şülək;
ipək-ipək.
Dodaqlarında
isti bir nəfəsin
hər şeyi unutduran dadı.
Yuyunurdu
Tənhalığın utancaq işığında.
Tənhalıq – qüssə, arzu, məhəbbət
eyni rəngin
ayrı-ayrı çalarıdır.
Tənhalığın, qüssənin
rəngi varsa,
sarıdır!
Gəncliyimin sevdalı gecələrindən biri.
Bir mən, bir o, bir də
Tənhalıq aləminin
bu dünyalığa bənzəməyən
həzin işığı.

Gəncliyim mənə baxdı.
Üzünü xəzana çevirdi bahar.
Baxışlarında sual!
Deyimi dil yandıran,
həsrət, arzu
oyandıran sözlər.
Sanki deyirdi:
– Qoca, nə var?
Aramızda körpülər yanıb.
Vaxtın meteoritləri – günlər
aramızda dayanıb.
Nə sənin geriyə yolun var,
nə mənim səngilə.
Boyanıb yolun
sarı bir rəng ilə.
Baxdım üzünə gəncliyimin.
Baxdım gözünə gəncliyimin.
Qəlbimdə qulaq asdım
onun təəssüf dolu sözünə.
Qarşımda canlandı
bir bahar axşamı.
Mavi toranlıq içində
üfüqlərə yayılmışdı
tənhalıqdan gələn
işıq sarısı.
Eşitdim səsini o günlərin.
Dinlədim gəncliyimin
ümid, inam, həvəs
və qayğısız nəğməsini.
İnsan yüz yaşasa
barmaqla göstərirlər.
Çiçək var axşama qalsa, solar,
səhər dərirlər.
Bir gün tənha qalsaq,
qüssə gəmirər bizi
qurd kimi;
təsəllimiz olmasa
Ümid kimi.



Bu tənhalığın yaşı çoxdur.
Bəlkə də, bəlkə də
Min üstü yüz işıq ili.
Axırı varmı?
Əvvəli yoxdur.
Nə insan tənhalığına
bənzəyir o,
nə səhrada bitən
ağac tənhalığına.
Nə bir bulaq suyuna ki,
damcı-damcı süzülür,
qayalara sığına-sığına.
Nə fəryadı vardı onun,
nə şikayəti, gileyi, umu-küsüsü.
Bu kainata məxsus bir tənhalıqdır;
kainat kimi böyük,
sonsuz, sirli.
Nə təbəssümü,
nə pis üzü.
İnsan oğlu pillə-pillə qalxır
zəkanın qələbələr yolunu.
Gecənin zülmətindən başlayır
yeni Gün, yeni Səhər yolunu.
Bu yol gedir
İkarın qanadlarından
Qaqarinin gəmisinə.
İnsan oğlu bu yollarda
neçə-neçə fəlakətə gərib sinə.

## MÖCÜZƏ VƏ YER ÜZÜNDƏN XƏBƏR

Mavi ekran.
Ətrafında ürəyi səksəkəli
neçə insan.
Qəlbim çırpınır.
Baxıram,
udub nəfəsimi, səsimi.

Baxıram,
unudub özümü, sözümü.
Bir dünya faciəsi baş verməsin, deyə,
Tənhalığın bu son anlarında.
Sanki qəlbimdəki
nigaranlıq içində
cəsarət, inam addımlayır.
Qəlbim bağlıdır
yer üzünün qəlbinə.
Aman!
Bir yanlış olmasın.
Aman!
İnsanlığın böyük ümidi solmasın!
Lakin bilirəm,
nə olur olsun.
Bu gün sonsuz Tənhalığın
Sonudur – gerçək!
Kölgəsiz bir aləmə
insan kölgəsi düşəcək.
Gözlərimizdə mavi ekran,
oturmuşuq neçə insan.

## MÖCÜZƏ

Süd aydınlıq bir ay üzü.
Ekranda bir ay düzü.
Bir polad quş endi, endi.
Açıldı bağlı qapı.
Bir insan göründü.
İnsan duruxdu bir az.
Sanki gözünə inanmadı.
– Bəlkə bu gün bir qat daha
şərəfli oldu insan adı.
İnsan gah basdı ayağını
ay üzünə,
gah qaldırdı.



Basdı yenə
tənhalığın son dəqiqəsinə.
Nəsil-nəsil baxdığımız ayda
insan ləpirini – izini gördük.
Böyük Tənhalığın son dəqiqəsini gördük.
Nə o dünyada, nə yuxuda –
Gördük diri-diri,
ayıq-ayıq.
Tarix nə zaman görüb
ay üstündə insan gəzə,
tamaşasına
bir dünya insan yığıla.
Hayıf, hayıf ki,
bu mənzərəyə yaxşı baxmağa
qoymadı mığmığalar.

## EPİLOQ

Gələcək illəri çağırdım.
Gəldi biri.
Yaxşı seçə bilmədim;
yaxındı, ya uzaqdı.
Bir otaq.
Bir yataq.
Yataqda bir qoca.
Yatağın baş ucunda
möhürlü, surğuclu kağız.
"Onkoloji dispanserdən".
Bu nə bədbinlik,
nə vahimədir.
Belə mizansız getsə
dünyanın işi;
hər şey ola bilər.
Kim kimədir.

*Bakı – Buzovna, iyul – sentyabr, 1969*

# *Küçələr*

## KÜÇƏLƏRDƏN BİRİ

Biri vardı, biri yoxdu,
dünyada küçə çoxdu.
Bir qoca küçə vardı.
Şəhər bina olanda
ilkin bura küçə dedilər.
Hələ zireh geyməmişdi
daşdan.
Hələ üstü təmizlənməmişdi
taxta-tuxtadan,
ağacdan.
Nə sinəsi kölgəliydi,
nə səkiləri qranit köbəliydi.
Üstü toz-torpaq idi;
şəhər bina olanda.
Hələ küçələşməmişdi bu yol.
Sinəsində ayaq gördü;
irili-xırdalı,
ayaqqabılı, yalın.
Təkər gördü;
dəmirli, rezinli.
Bəzən ayaqlar ağır oldu;
sahiblərinin qəlbindəki yükdən,
bir adam ağırlığı artıq.
Bəzən yüngül oldu;
qəlbin fərəhi ilə
yüngülləşmiş bədən qədər.
Günlər keçdi,
yol küçələndi.
Gah gündüzləndi,



gah gecələndi.
Qalxdı iki yanı
mərtəbə-mərtəbə.
Bu küçədən
Küçələr ayrıldı –
zavoda gedən,
dənizə gedən,
bizə, sizə gedən,
doğum evinə,
bağçaya, məktəbə,
məzarlığa gedən,
xəstəxanaya – azarlığa gedən.
Ortası təkərlərin oldu,
kənarları ayaqların,
Keçdi maşınlar:
rezin papışlı,
keçdi insanlar;
fikirli, gülüşlü.
Möhkəm addımlı,
tay qıçlı.
Küçələri dinləsək
xatırlayar, deyərlər,
balaca ayaqların
böyüdüyünü.
Xatırlayarlar
Torpaq,
daş,
asfalt sifətlərini
necə külək, yağış döydüyünü.
Xatırlayarlar
neçə ayaq kəsildi burdan,
neçə yenisi gəldi.
Pəncərələrdə işıq
yandı-söndü;
Günəşin salamını,
vidasını onlara tapşırıb.
Neçə ağac pöhrələdi,

göyərdi – barsız.
Neçəsi bar gətirdi.
Neçə külək – mülayim nəfəs,
neçəsi qar gətirdi.
Küçələri dinləyən olsaydı,
xatırlayardılar:
necə göylər bulud oldu,
ayaz oldu.
Necə qış keçdi,
yaz oldu.
Mən dinləmişəm küçələri;
gecəyarıdan sonra
tək-təkə qalıb.
Onların söhbətindən
ürəyimdə neçə arzu,
neçə səksəkə qalıb.
Küçələrin həm dili var,
Həm yaddaşı.
Dinləyək,
danışsın küçələr,
görüb götürdüklərini
yaxşı-yaxşı.

*1968*

## BAŞ KÜÇƏ

Mən baş küçəyəm.
Qayğısız görünürəm üzdən.
Gecələrim seçilmir gündüzdən.
Təpədən-dırnağa daş küçəyəm
Sevincim də var,
kədərim də.
Çox adam görmüşəm,
çox şey eşitmişəm
yan səkilərimdə.



Binalar ucalıb iki yanımda,
bir-birindən uca,
bir-birindən iri.
Bəzən açıq,
bəzən qapalı olur
günəşə pəncərələri.
Sinəmdə hər gün neçə
ayaq izi qalır.
İncimirəm.
Bu küçəliyin payıdır;
taleyimə bu düşüb.
Bəzən məndə ucqar küçələrin
gözü qalır.
İncimirəm.
Bəzən bir qız, bir oğlan
sinəmdə ayrılır;
bir söz üstə küsüşüb.
İnciyirəm görəndə belə adamları.
Mən bilirəm, axı
neçə ayaq səsi kəsilib sinəmdə,
bir də eşidilməyib.
Bilirəm neçə gəlin
ağ soyunub
qara geyinib.
Sözümə qulaq asın!
İstəyirəm bir də
mənim sinəmdə
bir-birindən inciyən,
bir-birindən küsən olmasın.
Dözərəm hər ağrıya,
hər inciyə,
təki, insan səsi susmasın
sinəmdə.
İnsan əli ilə yaranmışam,
küçələr küçəsi mən də.
İşığım da insandır,
nəğməm də,

evlərimə çağırılmamış
gələn kədər də, qəm də.
Eşitmişəm səssiz küçələr var
Xirosimada,
Ürdündə.
Həyat susur,
baş küçələr xərabəyə dönür
bir gündə;
tikən, yaradan əllər
küçələri qorumasa əgər.
Mən baş küçəyəm,
qoynumda neçə insan yuvası.
İnsan nəfəsiylə isinir
ən şaxtalı gündə
mənim kimi neçə küçənin havası.
Sevincim, kədərim var,
arzum, ümidim var sinəmdə.
İnsanla xoşbəxtəm,
insansız bədbəxtəm.
Küçələr küçəsi mən də.

*22 mart 1970*

## YETİM KÜÇƏ

Təbrizdə bir küçə var –
"Yetim küçə".
Bu adı mən vermişdim ona,
yanıqlı bir gecə.
Yanaşıdır, çəpəkidir
Təbrizin küçələri.
Gah ayrılır bir-birindən,
gah bir-birini kəsir
Təbrizin küçələri.
Gördüklərimdən yüzdə biri
qalmayıb xatirimdə.



Ancaq bu gün olmuş kimi
qalıb yadımda
bir uşaq hıçqırığı da,
bir qadın da.
Bir səs eşitdim;
yana-yana ağlayan
uşaq səsi.
Səkidə bir qaraltı,
bir qadın oturub
arxasını dayamışdı divara,
qucağında uşaq.
Küçədə çapırdı atını
Belədən-belə
sazaqlı külək – avara.
Soyuq, şinelimin içində
göynədirdi sinəmi, qollarımı.
Ana!
Ana!
Səsi
sancılırdı qulağıma
iynə-iynə.
Yaxınlaşdım.
Bacım qalx!
Bacım...
Ayaqlarım sancıldı yerə.
Donmuş qadını qucaqlayaraq
Ana!
Ana! – deyə
fəryad edirdi uşaq.
Xatırladıqca Təbrizin
o sazaqlı, o qaranlıq gecələrini;
deyirəm: məşəl kimi yandırıb qəlbimi
isindirə biləydim
dünyanın bütün
yetim küçələrini.

*fevral, 1970*

## QƏMLİ KÜÇƏ

Bu gün də beşi getdi,
dünən də.
Başıma evlər dolanır
yolçuların ürəyi
nizamsız döyünəndə.
Bir qoca bu gün
son mənzilə yola saldı
tələbə oğlunu.
Bir ana dünən
göz yaşıyla islatdı
gəlin qızının toy noğulunu.
Yəqin xoşbəxt küçələr də var;
bayramlı, toylu.
Mən olmuşam
insanların son mənzil yolu.
Mən qəmli küçəyəm, qəmli.
Sinəsi yoxuşlu,
səkiləri əynəmli.
Bir gün ayrıldım
gecənin səksəkəli yuxusundan.
Baş ucumda yeni binaların
əzəlini gördüm.
Dirsəkləndim qranitə;
anam şəhərin
mavi gözlü gözəlini gördüm.
Aynasında neçə
göyəzən kölgəsi.
Qoynunda insan səsi,
həyat nəfəsi.
Bildim mənim payıma
qüssə düşüb, qəm düşüb.
Sinəmdə son mənzil səfərləri
üst-üstə düşüb.
Bəzən bir neçə adamlı olur
bu səfər,



bəzən gur izdihamlı.
Mən bilirəm kim qərib gedir,
kim tanışlı, arxalı.
Kim soyuq nəfəsli,
kim cırılmış yaxalı.
Eşidirəm ötürənlərin
söhbətini.
Kiminin yanıqlı təəssüfünü,
kiminin qeybətini.
Bəzən, az qalıram yarılam
qəzəbimdən.
İnsanlar xəbərsizdir
daşlarımın əzabından.
Qibtə edənlər də olur
əzəmətinə son səfərin.
Duymuşam ürək ağrısını
bir gedənə min nəfərin.
Mən qəmli küçəyəm, qəmli.
Bilirəm kim gedir
üstümdən, soyuq nəfəsli,
kim keçir ağır matəmli.
Bir arzum var;
Son mənzilin yoluna
ağlamayan ürəklə
gəlməsin insanlar.
Sevincə, qeybətə,
qərəzli qiymətə
başqa yer tapılar.

## SİNƏSİNDƏN YOL AÇILMIŞ KÜÇƏ

Sinəm doludur
gecə, gündüz.
Maşın, insan
keçir gedir
könüllü, könülsüz.

Bəzən bir-birinə
dirənir təkərlər, ayaqlar.
Bəzən...
Yarılır axın.
Sinəmdə bir yol açılır.
Bu səkidən o səkiyə keçir
bağçalı uşaqlar.
Nə qəm görər,
nə möhnət görər,
yolu açıq olsa,
körpələr və
küçələr.

## DALAN

Mən nə xiyabanam;
küçələr küçəsi,
nə işlək küçəyəm;
səs dolu gündüzü,
nur dolu gecəsi.
Mən dalanam,
adicə dalan.
Məndə bir oğlan yaşayırdı.
Onu bir görən,
bir də görüm deyərdi.
Qırxbirdə getdi,
qayıtmadı.
Çox gözlədik onu
mən, bir də,
bir də, qara saçlı qız.
Bir günümüz keçmədi
həsrətsiz, yanğısız.
Onun gözü yolda,
mən özüm yolda.
Mən dalanam,



adicə dalan.
Nə küçəyəm,
nə meydana çıxa bilirəm.
Gözləyirik,
ağ saçlı qızla.
Gözləyirik
bəlkə gəldi
qırxbirdə gedən oğlan.

*1968*

## KÜÇƏMZİN ADI

Üstü qırmızı kirəmit bir evdə
mən anadan olmuşam.
O zaman,
kölgəsi meydan çinarın,
şirəsi dərman
gülöyşə narın
şöhrəti hələ
gəzmirdi dildən-dilə.
Küçəmizin adı yoxdu belə.
Bizim məhləyə Arvanüstü deyərdilər;
evimizin qabağından axan
Arvan çayının adına görə.
Yüz meyvənin
yüz adı vardı;
rənginə görə, dadına görə.
Məni illər apardı, gəzdirdi
Xatirələrin dolaşıq yollarında.
Ancaq həsrətim
hərdən dillənirdi həzin-həzin.
Fikrim külək aparmış əlçim kimi,
elə bil, dolaşdı qaldı
Qoşaarxın yaxasındakı

böyürtkən kollarında.
İndi illər keçib.
Çox şey dəyişib.
İndi küçəmizin adı var:
"Füzuli!"
Elə sevinirəm ki, bu ada,
Füzuli bu küçədə
yaşamış olmasa da.

*1961*

## UZAQ KÜÇƏ DEDİ...

Bir qaranı qovurdu
yeddi ağ.
Qara ayaq səsləri
döyünürdü üstümdə
ürək kimi,
tak, tak.
Yeddi cüt ayaq döyürdü sinəmi
dəmir yumruqla,
tak, tak.
Qara ayaqlar
dayandı birdən,
titrədi, sərildi yerə.
Bir yırtıcı həvəsi gəldi
yeddilərə.
Güldülər, bağırdılar
harın-harın;
qırmızı rəngini görüb
qara ayaqların.

*1970*



## YENİ KÜÇƏ ADLARI

Şəhərimizdə küçələrin adı var;
tarixlə bağlı,
insanla bağlı.
Bu adlardan
dəyişəni də olur,
arabir.
Küçə də var
adı yoxdur,
sadəcə filan nömrəlidir.
Bəlkə də dəxli yoxdur
şerə bunun,
çox nasiri bir məsələdir;
bəlkə də insan üçün
ən dəyərli məziyyət,
səbrdir, hövsələdir.
Mən,
doğrusu,
razıyam ürəyimdən,
aritmiklik bir yana,
hər tənəyə, töhmətə dözür
ancaq,
salmır içinə gələn sözü
"nə deyərlər" – deyə,
xısın-xısın
içini yeyə-yeyə.
Bəlkə bayatı sayağı desəm
fikrim daha tez çatar olar.
Məqsədim aydın,
sözüm düzgün qatar olar.
Meynələr, ay meynələr,
Nə gördünüz deyin, nələr.
Bir gün gələ, küçələr
sizdən paltar geyinələr.
Gəlin küçələrə ad qoyaq.
Qoyulmuşlar da qalsın.

Bir yeni küçə "Söyüdlü"
biri "Xançinarlı",
biri "Meynəli" adı alsın.
"Qərənfil" də gözəl olar,
"Şah dağı" da,
"Xəzər" də,
"Göyərçin" də.
Küçələrimiz oyansın
yeni adlarıyla,
gül-çiçəklər içində.
Həm qulağa xoşdur onlar,
həm də tez-tez
dəyişmərik bu adları.
Həm də
ruhu şad elərik
adları döngələrə qısılmış
ustadları.

*fevral, 1970*



# *Dəniz haqqında nəğmələr*

## DƏNİZ

*Bakı Xəzərin sahilindədir*

Göydə bulud oynayanda,
həm o yanda, həm bu yanda,
dalğaların qaynayanda,
mən sənə heyranam, dəniz!

Havanın sərxoşluğunda,
aydınlığın xoşluğunda,
gecələrin boşluğunda
nə gözəlsən, sonam dəniz!

Duyğu coşub, ürək dolub,
könül eşqinlə qovrulub.
Nə xoşdur bir fanar olub
yollarında yanam, dəniz!

Mən çoxdan vurğunam sənə.
Böyük arzum budur yenə:
dönüb bir göy göyərçinə,
sahilinə qonam, dəniz!

Mən səndən olmaram bezar.
Mənim böyük bir eşqim var.
Sənətkar duyduğun yazar.
Anam dəniz! Anam dəniz!

*Pirşağı, 1937*

## DƏNİZ, DALĞALAR, DAMLALAR

Ləpələr elə bil,
göy dəvə karvanıdır.
Dəvələr qızıb, ağzı köpüklü.
Hər dalğa bir dəvədir:
göy tüklü,
ağ mərmər yüklü.
Dəvələr dənizin üstündə
döşünü qabardıb gəzir.
Başqa təşbeh tapmayanda
demək olar:
böyükləri sanki şahdır,
kiçikləri vəzir.
Kiçiklər böyüklərin dalınca gəzir,
Və həmişə başıaşağı
Onların başından yuxarıdır
iri dalğaların qurşağı.
Dəniz də dalğalardan
və damlalardan
yaranmış bir cahandır.
Sanki hər damla bir insandır.
Damla dənizdən ayrılsa,
tez buxar olar,
göyə qalxar,
duman olar.
Damla sahilə düşsə.
qumlarda pünhan olar.
Ayrılmasa,
qüvvəti sonsuzdur, sonsuz.
Amma kim bilir ki,
dəniz onunla belə qüvvətlidir,
ya onsuz.
Damla bir deyil,
min olsa, yenə
nə bir rəng verə bilər,
nə bir ahəng verə bilər
dənizin sinəsinə,



onun gözəlliyinə.
Dəyişmək üçün
dənizin yatağını,
damlalar toplansın,
dəniz olsun gərək.
Damla neyləyə bilər
dənizdən ayrı, tək!
İsti var,
Soyuq var.
Yaş var.
Quru var.
Şaxta onu daşa döndərər.
Günəş onu qurudar.
Damla dənizdə yaxşıdır.
Hər dalğa
milyon-milyon damlanın axışıdır.
Damla dənizdə yaxşıdır.
Damlasız dəniz olmaz.
Dalğa dənizdə yaxşıdır.
Dəniz ləpəsiz olmaz.

*1959*

## DƏNİZİN HAQQI

Dünən qara buludların qarmağı
dənizi qaldırdı göyə.
Dəniz qızdırmalı kimi
çırpınırdı yatağında,
sahili döyə-döyə.
Bu gün dəniz sükuta qərq olub.
Bəlkə sükut qərq olub dənizə.
Qayalar da əyilib, elə bil,
axtarır qərq olmuş sükutu.
Yox, aldanma, bu səssizliyə!
Yaxın gəl!
Qulaq as!

Bu sərin mehli aydın səhər
sahilin çınqıllarıyla danışır
oğrun-oğrun,
gəlib çəkilən ləpələr.
Sanki dəniz heyran-heyran
ləpə dodaqlarıyla sahilə pıçıldayır,
milyon illərlə deyib
qurtara bilmədiyi məhəbbət dastanını.
Bəlkə də
ayrı düşdüyü qayaların
ümidsiz həsrətiylə
susur həzin-həzin,
Fırtınadan sonra
dincəlməyə haqqı var dənizin!

1961

* * *

Balıq dənizdə doğuldu,
dənizdə böyüdü.
Yaşadı.
Bir gün öldü.
Canlı dalğalar atdı onu sahilə.
Sonra qayıtdılar dənizə
gülə-gülə.

1965

## DƏNİZİN RİQQƏTİ

Dəniz döydü qayaları
qəzəblə.
Döydü gecənin qaranlığında.
Döydü zülmətin acığına.
Nəriltisi yayıldı
ulduzların açığına.



Qayalar dinmədi.
Biri də diksinmədi.
Boylandı üfüqdən səhər.
Riqqətə gəldi dəniz.
Yaladı qayaların
oyuq-oyuq yaralarını.
Sığalladı qayaları
qırçın-qırçın ləpələr.
Qaya olmaq istəyirəm
mən də;
dəniz qəzəblənəndə,
dəniz riqqətlənəndə.

*Bakı, dekabr, 1966*

## DƏNİZDƏN BÖYÜK

Dünya nə kədərli olardı,
dəniz olmasaydı.
Dəniz düşündürür məni.
Dəniz inandırır məni
həyatın gücünə.
Dəniz aparır məni
ən uzaq,
ən heyranlı
xəyallar bürcünə.
Dənizdən sevinc alıram,
dənizdən kədər alıram.
Ona baxdıqca qürurlanıram
insan olduğuma.
Həm kainata bənzərliyimə,
həm quma.
Mən dənizdən nə istəsəm alaram
balıqdan tutmuş
şerin möcüzəsinə qədər.
Mən dənizə nə verirəm!
Heç nə.

Mən dənizsiz qala bilmərəm
dəniz mənsiz keçinər.
Dənizlə gecə söhbətimdə
bu qərara gəlmişik:
qəlbim dənizdən böyükdür,
dəniz qəlbimdən kiçik.

*1968*

## DƏNİZLƏRDƏN AYRI DƏNİZ

Dəniz yenə tövşüyür.
Dalğalar qatar-qatar
qaçır sahilə sarı.
Sanki onlar da indi
bu havada
üşüyür.
Nə qayıq var, nə bulud,
nə qağayı izdihamı var bu gün.
Qum təpəciklərindən
sahil də düyün-düyün,
ip kimi uzanmışdır
dənizin qırağında.
Dəniz dəniz rəngində.
Dəniz dəniz əngində.
Uzanıb görmək olur
yaxını da, uzağı da.
Dənizin yaxasında
köpüklü dalğalardan
düymə-düymə xal qonub
titrəyən üfüqlərə.
Elə bil ki, dənizin
bugünkü tənhalığı
onun gurultusundan
qopub düşüb bu yerə.

*1969*



## DƏNİZ NİYƏ ƏSƏBİDİR

Yenə səsin gəlir, dəniz!
Dünən quzu kimi yatıb,
mürgü döyür,
dincəlirdin.
Nə ağ köpük qabarıqlı,
nə göy dalğa pəncəliydi.
Nə pıçıltı,
nə uğultu,
nə gurultu,
nə yalvarış,
nə də yorğun
səs gəlirdi.
Belə ağır, dərin sükut.
Fatihəsiz bir hüzürdü.
Bəlkə, batan gəmilərin
matəmindən
Fikirliydi yəqin dünən.
Bəlkə bəlkə qatarından
ayrı düşmüş durnalara
mənzil başı uzaq olub
yorğun-yorğun qanadları bükülləndə.
Uçan gümüş ulduz kimi,
sınmış qarlı budaq kimi,
sınıq qəlpə bir buz kimi,
avazımış yarpaq kimi
göy üzündən
göy sulara tökülündə
dalğaların susub durub.
Bəlkə səni
sahillərin qəmi yorub.
Bəlkə işıq dəryaların
həsrətiylə üşümüsən.
Bəlkə gəlim-gedimlərin
hikmətini düşünürsən.
Gəl özünü yorma, dəniz,

Bu hikmətin açarını
mən yazıqdan sorma, dəniz.
Dəyişiklik – bu dünyanın təməl daşı.
Biz ki müdrik qocalarıq,
bizə sükut çox yaraşır.
Yenə səsin gəlir, dəniz.
Yenə yazıb-yaratmağa
çox həvəsim gəlir, dəniz.
Görünür ki,
boyun boyda sükuta da
sığmır bizim
ürəyimiz.

*1970*

## DƏNİZ HAQQINDA NƏĞMƏLƏR

### GİLEY

Dəniz dedi ki,
sahillər sıxır məni,
Darıxıram qayaların
əbədi çəmbərində.
Dalğaların rəqsinə baxma.
Üstümə pul-pul tökülən şəfəqlərə,
sinəmdə itib gedən üfüqlərə
baxma!
Dərdim çoxdur dərində.
Darıxıram sahilin çəmbərində,
Mən davam etdim yoluma;
düşüncələrə bürünüb.
Dənizə baxmadım,
Getdim fit çala-çala,
ləpirimi qumlara sala-sala.
Getdim sürətlə, qəsdən;
bəlkə uzaqlaşam
məndən cavab istəyən



bu səsdən.
Mən getdim, dəniz gəldi arxamca.
Gəldi səsli-küylü
Dedi: – Bəlkə məndən bir ovuc
aparasan!
Bəlkə bir damla dərdimi
sinəmdən qoparasan.
Küləklər şillələyir məni, – dedi, –
Günəş qurudur məni, – dedi, –
Qayalar parçalayır dalğalarımı.
Eşidirsənmi, ey!!!
... Ayaq saxladım bir an.
Bağırdım səsim gəldikcə:
Nə qaraqışqırıq salmısan!
Əli qoynunda durmuş balıqçılardan
xəbərin varmı?
Səndən kiçik deyil
ürəklərinin tutumu.
Neçə dünya yerləşir orda:
Nəsimi qəlbi kimi.
Onların da qəlbi
çəmbərindədir.
Xəzri susdurur onları,
səni nərildədir.

### RİQQƏT

Gözlərimdə dəniz:
hələ kimsənin ad verə bilmədiyi
rəngləriylə.
Qulaqlarımda dəniz:
dalğalarıyla, səssizliyiylə.
Qəlbimdə dəniz:
həsrətiylə,
tənhalığıyla,
əbədiyyətlə.
Gəlirəm sahilə;
dənizin şıltaqlığını bilə-bilə.

Mən susuram,
o, nərə çəkir.
Dalğalar axıb gedir
üstü köpüklü.
Elə bil ağ saçlı bir qoca
Bir göy rəngli bərə çəkir.
Sakit ol, dənizim!
Uşaq deyilsən ki...
Maşallah, sinənin qabarığı,
üfüqdən-üfüqə qədərdir.
Səni sahilə bağlayan nə tale,
nə qəzavü-qədərdir.
Sən dənizsən.
Qurğular necə olar,
ayaqlanıb gəzsən...
Sakit ol!
Gəl öpüm duzlu dodaqlarından.
Mən də kövrəlib ağlayaram ha...
Sən ağlasan.

SUSUZLUQ

Dənizi görməsəm hər gün,
elə bil acam.
Hər gün onu görsəm də
mən dəniz təşnəsiyəm,
mən dənizə möhtacam.

DƏNİZİN DƏNİZLİYİ

Dənizi dalğasız görəndə
yazığım gəlir.
Deyirəm; ya küsdürüblər,
ya intizardadır.
Göl də sudur,
gölməçə də.
Dənizin dənizliyi
dalğalardadır.



DƏNİZ DEYİR

Gecələr aysız olanda
baxa bilmirəm dənizə.
Gözlərimi yumub dinləyirəm onu,
Dəniz danışır mənə
xısın-xısın,
qaranlıqda nələr olduğunu.

SƏHƏR DƏNİZİ

Dənizdə bir aləm olur,
günəş qalxanda sulardan.
Elə bil, qızıl süzülür saçından.
Sarı balıqlar
şütüyüb düşür
dalğaların yamacından.
Üfüqlər, elə bil,
çəkilir dal-dalı
Rənglər gizlənqaç oynayır;
dəniz sakit olsun, ya dalğalı,
İstəyirəm gün doğmamış
qalxam Buzovna qayalarına
qışqıram: – Hey... adamlar!!
Qalxın, qalxın!
Qaldırın pəncərə pərdənizi!
Dənizə baxın!
Yatmaq olarmı,
oyananda səhər dənizi.

MƏHƏBBƏT

Bu gecə öpdüm dənizi
sahildən ayrılanda.
Dodaqları duzlu idi;
göz yaşı kimi
Düşündüm: niyə öpdüm onu?..
Yaxşı deyil.
Düşündüm, yaxşı ki,
dəniz göz yaşı deyil.

## YUXUSUZ DƏNİZ

Dənizim!
Bu gecə nə özün yatdın,
nə məni qoydun yatam.
Axı sən dənizsən,
mən adam.
Sən yatmasan da olar.
Nəyin var,
duzlu sudan qeyri.
Mən gecə-gündüz səni dinləsəm,
kim yazacaq,
yuxusuz gecələrimə keşik çəkən
yeni şeri.

## SƏHƏR NİGARANÇILIĞI

Pəncərəmi açmışam dənizə.
Səhər hələ yoldadır.
Ay gecənin qapısında,
qarovuldadır.
Dəniz də oyaqdır.
Nə gözümdə yuxu var,
nə çimir.
Sahil boş,
dəniz doludur.
Dənizdə dalğalar çimir
Suya baş vurub qalxırlar
Boylanırlar tez-tez,
Yəqin onlar da,
səhərçin darıxırlar.

## DƏNİZİN YERİNƏ OLSAM

Dənizdə buruq salıb adamlar;
topa-topa,
tək-tək.
Polad sütunları əyər dəniz.



Dəmir körpüləri sökər dəniz.
Adamlara bata bilməyəcək.
Dəniz hələ sakitdir.
İnanmayın bu sükuta,
Dəniz külək gözləyir.
Dəniz durub pusquda.
Mən dənizin yerinə olsam,
nə hirslənərəm, nə dava gəzərəm
Deyərdim, necə Xəzərdim,
yenə Xəzərəm.
Tənhalığım yoxalıb
Mən dənizin yerinə olsam,
qürurla qabarar sinəm;
baxdıqca buruqların kölgəsinə,
qulaq asdıqca,
gecə-gündüz kəsilməyən,
insan səsinə.
İnsansız dəniz nədir,
bir nəhəng təknə dolusu,
şor su.

## DƏNİZ VƏ BALIQÇILAR

Dəniz...
Balıqçı qayıqları.
Qayıqda balıqçılar,
Yanlarında tor.
Çörək.
Şirin su
Ürəklərində
ömürlük qayğıları –
fırtına qorxusu.
Üfüq ardında qaldı sahil...
İndi qızarar dan yeri,
səhər açılar:
uğurlu ovun ilk səhəri – balıqçılara,
uğursuz yolun son səfəri – balıqçılara.
Dəniz xumarlanır

Biganədir o.
Bu səhər də,
bu səfər də.
Birdən ayılır dəniz,
Üzündə əsəbi qırışıqlar.
Coşur dəniz,
hər dalğası qızmış nər kimi/
Deyirsən, siləcək üzündən qayıqları
gilə-gilə tər kimi
Üç gün sürdü insanla dənizin savaşı.
Vuruşdular,
yoruldular:
yaxşı-yaxşı.
Sakit, səssiz bir səhra olub indi
qızğın döyüşlərin mavi səngəri
qayıqlar dənizlə dodaq-dodağa
sularla tən gəlir.
Ağırdır qayıqların ləngəri.
Yanlarında neçə gözü qırılmış tor,
içi boş su bardağı,
çörək bağlaması.
Ürəklərində –
yeni fırtına qayğıları.
Dəniz heyrətlə ötürür sahilə
işləri aləmə deməli,
balıqçıları
Üstü yorğun nəğməli
qayıqları.

DƏNİZ GECƏLƏRİ

Dənizin gecələri
sahil gecələrinə bənzəmir.
Sahildə işıqlı evlər –
Papiros közü,
işıqlı küçələr.
Dənizdə bir gecədir,
bir də qapqara su.



Bir də qaranlıqda
yolunu tor zindanı gözləyən
balıq ordusu.
Dənizin gecələri tənhalıq olur
Balıqlar səssiz.
Qayalar səssiz.
Hərdən ildırım çaxır
Buludlar görünür:
üzü çapıqlı xəyal kimi.
Dəniz gecəsinə bənzəmir.
sahil gecələri.
Sahildə qatar-qatar düzülüb
günəş nəğməsinin
hecaları.

DƏNİZİN AD GÜNÜ

Yer üzündə
İnsandan qabaq
su vardı.
Bəlkə çox idi.
Bəlkə az idi.
Bir yerdə dərin idi,
bir yerdə dayaz idi.
Belə tənha deyildi Xəzər də.
Üzülməmişdi əli
dəniz qardaşlarından.
Duyurdu babası okeanın nəfəsini
küləklərdə.
Yer üzü göz işlədikcə su idi.
Aylar keçdi, illər dolandı.
Sulara ad verdi insan.
Buna "göl" dedi,
ona "okean".
O vaxtdan dəniz də "dəniz" oldu.
Mən bilmirəm hansı gündür
dənizin ad günü.
Odur dənizi təbrikə gəlirəm
ömrün hər adi günü.

## DAHA DƏNİZ QOXULU

Neçə gündür
beynimdə, fikrimdə dənizdir.
Gözlərimdə dəniz,
qulaqlarımda,
qəlbimdə
Dəniz, dəniz, dəniz...
Lakin hələ tapmamışam dənizi
O, yanımdadır.
Fikrimdə, xəyalımda, yuxularımdadır.
Ancaq tapmamışam dənizi.
Tapa bilmirəm –
elə yazam ki,
oxuyan görsün onu;
baxıb gördüyü kimi.
Lakin bir az daha dəniz qoxulu,
bir az da daha real.
Səsini eşitsin.
Olduğu kimi.
Lakin daha yadda qalan olsun bu səs
Daha artıq dənizlərin səsi olsun.
Neçə gündür,
dənizlə yatıb, dənizlə dururam.
Elə bil,
dalğalar yalayır gözlərimi, qulaqlarımı
Dalğalar qəlbimdən keçir.
Gözlərim dənizi görür.
Qulaqlarım dənizi eşidir.
Qəlbim dənizi duyur.
Dodaqlarım dəniz içir.
Lakin
tapa bilmirəm onu.
Olduğu kimi yox;
buna nə var ki,
Ola biləcəyi kimi
hamıya göstərə biləm
dənizsiz dənizi gördüyümü.



## DƏNİZİN RƏNGİ

Dəniz nə rəngdədir.
Mavi,
Eləmi?
Ancaq mən dənizi yaşıl görmüşəm
Dəniz yaşıl olur,
Eləmi?
Ancaq mən dənizi qara görmüşəm,
Dəniz qara olur;
eləmi?
Ancaq mən dənizi ağ görmüşəm.
Mən dənizi üşüyən görmüşəm.
Mən dənizi acıqlı da görmüşəm,
gülən də.
Nə rəngdədir dəniz?

## DƏNİZÇİ QOCA DEDİ

Qoca dənizçi danışdı mənə
– Fikirli olur, – dedi,
– məkrli olur, – dedi,
– sirli olur, – dedi,
– təmiz olur,
– kirli olur, – dedi, – dəniz.
Sonra da əlavə etdi:
– İnsan kimi.
Bir qədər düşündü
dedi:
– Zaman kimi.
Söhbətimiz kəsildi.
Mən susdum.
O susdu.
Dəniz də insan kimi!
Dəniz də zaman kimi!
Deməli, bir sözümüz
qalmadı onsuz da!

DƏNİZİN YURDU

Yol!
Elə bil, tozlu kəndir asılıb
görünməyən ulduzdan.
Gün doğmamış yola çıxdıq.
Gün batabatdır indi,
neçə yoxuş, neçə kənd qalıb hələ
yolumuzda.
İldırım vurmuş qayanın
dik divarında yubandı qürub.
Hər balıqqulağında
bir qığılcım oldu
çıldır-çıldır.
Xəyalıma axdı
dənizin maviliyi
gözlərimdən süzülüb,
qəlbimdən keçib.
Gördüm qayada
dənizin ləpirlərini.
Nə zamansa, dəniz,
burdan köçüb.

*1965*



# *Rənglər*

## UVERTÜRA

Ağ, qara, sarı, yaşıl, qırmızı;
hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
biri dərdimizi, biri arzumuzu.
Hərəsində bir məna arayıb,
bir səbəb görən var.
Kim bilir, kim sınamış,
kim bunu ilk dəfə demiş;
Qara – matəm,
qırmızı – bayram,
sarı – nifrət rəmzi imiş.
Kim bilir, keyfinin nə vaxtında,
kim olmuş, rəngləri belə damğalayıb,
belə ayıran.
Qırmızı qan da ola bilər,
bahalı üzük qaşı da,
göz yaşı da.
Qara matəm rəmzi də ola bilər,
məhəbbət rəmzi də,
nifrət rəmzi də.
Ağ gözümüzü nurdan sala bilər,
çiçək-çiçək bəzəyə bilər süfrəmizi də.
Biri yaşıl görür yarpağı,
biri qırmızı.
Ancaq yarpaq öz rəngində qalır.
Yaşıl olur, qızarır, saralır.
Rənglər könlümüzdən keçir
isti, sərin küləklər kimi,
nəğmələr, sözlər, səslər

qəlbimizə dolur müxtəlif rənglər kimi.
Rənglər xatirələr oyadır,
duyğular oyadır.
Gördüyümüzdən artıq görmək istəməsək,
hər rəng adicə boyadır.
Rənglərin də musiqi kimi ahəngi var.
Ağrının, sevincin, ümidin də
rəngi var.
Düşündükcə açılır,
əlvan səhifələri rənglərin.
Canlanır gözümüzdə rəngi,
ömrün, mübarizənin,
qəlbin, nifrətin,
gecənin, səhərin
və insan taleyinin.

AĞ RƏNG

Yuxulu körpənin təbəssümü.
Ümid.
Təmənnasız yaxşılıq.
"Sizdə xərçəng yoxdur!"
sözlərinin deyildiyi dəqiqə.
İnsan səadətinə səbəb olan
hər şey...
hətta,
təsəlli üçün deyilmiş yalan.
Bir də
insan ülfəti.

AĞ RƏNGİN SEVİNC ÇALARI

Nənə qurşağı.
Vətən torpağı.
Çiçəkli bahar budağı.
Göyərçin qanadları.
Quzey qarı.
Bir körpənin südə bulaşmış üz-gözü.



Şorbaya yanböyür batırıb çıxardığı
qaşıqdan aldığı ləzzət.
Şübhələrin dağıldığı gün.
Dost əli.
Açılmış düyün.
İnsan adına layiq
işlər, işlər, işlər.

AĞ RƏNGİN MƏHƏBBƏT ÇALARI

Ömrün mənası.
Qəlbin aynası.
Bahası və satım meydanı olmayan var.
Tək bir qəlbin qapısına düşən açar.
Anlayan, duyan
İnsan.

ŞİRMAYI

Afrikanın dərdi.
Babamın saqqal darağı.
Ucuz gəlir sorağı.
Qaraların taleyi.
Masallar masalı.
Yuxularda
insanların arzularla vüsalı.
Ölümdən gələn qazanc.
Zindan barmaqlığı.
İlməkli kəndir.
Məftilli qırbac.
Fil ölümünə bəhanə.
Həsrət dünyası.
Naxışlı yeddi kürəciklərin
yeddiillik zəhməti.
Ağrıdan ulayan ölkələrin
Səkinəsi, Səlmanı, Əhmədi.

*1963*

BOZ

Çoxlara qatışıb itənlər,
Hər torpaqda bitənlər.
Cansız barmaqlar arasında
sönmüş siqaretin uzun külü.
Vağam güllər – selofana bükülü.
Boş günlər,
boş ürəklər.
Həm elə, həm belə adam.
Vərdişli könülsüz gülüş.
Soyuq tənhalıqdan
saçlarda qalmış gümüş.
Yetim bir qız uşağının
dəyişiksiz dizliyi.
Vaxtın rəngsizliyi.

GÜMÜŞÜ

Yaraqların yararsızlığı.
Dəbdən düşmüş kişi bığı.
Bizə ilkin əlifba öyrədən müəllimin
zaman arxasında qalmış surəti.
Köpüklü ləpələr.
Baba, nənə haqqında xatirələr.
Dumanlarda oyanan səhər.
Şeyx Şamil
və onun toqqasından asılmış,
qəbzəsi dua yazılı xəncər.
Küləyə qərq olmuş
qovaq yarpaqlarının
gizlənqaç oynaması.
Gəlin aynası.
Qan-tərin, yorğunluğun,
yuxusuz gecələrin
bahası.
Şimallı budaqların soyuq üstü.



Yorğun bir yolçuya qüvvət verən
uzaq tüstü.
Qızılın kiçik qardaşı.
İnsanın bəlalı başı.

PÜSTƏYİ

Yaz başında dəniz.
Yuxudan kal oyanmış bahar.
Ehtirasla açılmış dodaqlar.
Qəzəllər,
gözəllər.
İnsan baxışı.
Salxım söyüd budaqlarında
ilk yarpaqların naxışı.
Ala gözlərdə kədər.
Gənclik düşüncələrindən səhifələr.

MAVİ

Dalğasız dəniz.
İztirabsız məhəbbət.
Səmanın dərinliyi.
Deqanın "Rəqqasələr"i.
Körpə bir rəssamın çəkdiyi günəş.
Gözlərin dincliyi.
İnsan düşüncələri.
Buz adaları arasında
su küçələri.

MAVİNİN TƏSƏLLİ ÇALARI

Mərəzlərin ən dəhşətlisi:
mütiliyə bəraət hissi.
Yükü Təbrizdə qalmış dəvənin
bir gün gələcəyinə ümid.

Aldanışın şirin zəhəri.
Qızmar səhrada
qaratikan kolunun naxışlı kölgələri.
Evi damanların
qəlbinə süzülən
göylərin maviliyi.
Bir də,
insan adına yaraşmayan:
"Nə qəm!
Yaxşı ki, mən deyiləm!"

XURMAYI

Səhrada dəvə karvanı.
Babamın zər naxışlı Quranı.
Müstəmləkələr.
Mübarizələrin sönməyən alovu.
Torpağı yandırıb qovuran hərarət.
Təsəllisiz dərd
Ağır salxımlarını
yaşıl yarpaqlar arasına alan,
ucaldıqca ucalan
fil xortumlu ağacların
kədəri çökmüş üzlər.
Gözlər, gözlər, gözlər.

TÜND QƏHVƏYİ

Günəşin səhra qumlarına tökülmüş
qəzəbi.
Balzak haqqında xatirələr.
Yanmış ürəklər.
Sönmüş kürələr.
Taiti adasında
Qogenin ləpirləri.
Dəryalarla göz yaşı.
Milyonlarla qəbir daşı.



Namərd tənəsi.
Yer üzündə cəhənnəmin şöbəsi.
Gülən, ağlayan
insan, insan, insan.

NARINCI

Min bir gecə nağılları.
Qürub qarı.
Xorasan kürkü.
Nəfəs darıxdıran bürkü.
Bir aylıq balası kəsilmiş
bir inəyin mələməsi.
Məstan pişiyin
nazlanıb şıltaqlıq eləməsi.
Sevimli qadının
xəyaldan keçən kölgəsi.
Səfəri mümkünsüz
xatirələr ölkəsi.

KÜRƏN

Arxadan vurulmuş bıçaq
Bahalı buxov-qolbaq.
Tünd mavidə gizlənmiş yaşıl:
Kiçiyin ögey qardaşı.
Günəş boyalı saçlar.
Cənublu ağaclar.
Suda boğulanın
pənah gətirdiyi saman.
Tək-tək insan.

QIZILI

Ömürlük dustağın qısa yuxusu,
Aylı gecədə buludların köbəsi.
Torpağın səxavəti.
Van Qoqun "Günəbaxanlar"ı.

Məhəbbətin barmağa dolaşmış
damğası.
Qul ağası.
Söz bəzəyi.
Otsuz-ağacsız səhralarda
mal təzəyi.
Buğda dağı.
Saçların saçağı.
Qəhrəmanın göz yaşı.
Ölümdən qaçmışın
məzəndəli başı.
Şərabın yaşı.
Vaxt.
Muzeydə, mürgüləyən taxt.
Gümüşün böyük qardaşı.
Cinayətin yaşıdı.

## SARI

Dolu dənli sünbül dənizi.
Şikəst bir övlad anasının bənizi.
Payıza bürünmüş ağaclar.
Payını güclülər yemiş aclar.
Məhəbbətə ləkə salan
cingiltili metal,
həyatdan ayrılmış xəyal.
Simlərin fəryadı.
Yol çəkən gözlər.
Qüdrətli nərgizlər.
Debüssinin "Kürən saçlar"ı.
Sallaqxana qapısından girən
qafil öküzlər.
Ağıllı dəli.
İnsan əməli.



## SAMAN SARISI

Anadan olduğu evin
çılpaq divarlarına həsrət.
Peşmanlıq qoxuyan həqiqət.
Qürubun şəfəqlərində
yaralı qəlbinə meydan oxuyan
Nazim Hikmət
və onun ağrılı məhəbbəti.
Bir xırmanı bir külfətə,
bir doyumçun az olan
arpanın küləşi.
Qış günəşi.
Göy ətəyində bir an görünən
aypara.
Acı xatirələrin yadigarı;
dostlara, insanlara.
Gözə görünməyən,
yandıqca sönməyən,
yara!
Bir sim ki,
artıq gərək olmayacaq
soyumuş barmaqlara.
Günəşsiz sarmaşıqlar,
Mahnısını itirmiş aşıqlar.
Bir də saman sarısı!
Doyumsuz, böyük insanın
son eşqi,
son ağrısı.

## BƏNÖVŞƏYİ

Qış günlərində bahar qoxusu.
Şaxta qorxusu.
Hicran qorxusu.
Ağ qırovda
günəşin çimdikləri.

Ala gözlərin qəzəbi.
Qırılmış sim.
Boynuburuq yetim.
Göydə qatarlanan durna səfi.
Bir də
nənəmin
dolaşıq kələfi.

BADIMCANI

Əyyaş burnu.
İlk dərs günü
yanıqlı göz yaşına səbəb olan ləkə
və körpə əllərinin naxışı.
Günəşli zanbaqlar.
Əyri-üyrü qaytanla
göydən asılmış dağlar.

SÜRMƏYİ

Zəngin süfrənin yaraşığı.
Ağır təzyiq altında sıxılıb
qatılaşmış mavi.
Dənizin qəzəbi.
Xalçada göllənmiş ilmələr.
Ehtiraslı öpüşün acı xatirəsi.
Gözlərin köbəsi.
Zülmün təbəsi.
Aylı gecədə
qarlı dağ təpəsi.

ÇƏHRAYI

Bülbülə atılan böhtanlar.
Ucuz səadət.
Qayğısız kənd
və onun təsvirini vermiş həpənd.



Arpa suyunun məzəsi.
Bayağı dostun təzəsi.
Cüt çarpayı örtüyü.
Yaralanmış qızıl qazın
havaya sovrulmuş tükü.
Ömər Xəyyam
və onun şərab kuzəsi;
nadanlar təsəvvüründə.
Gündüzlə gecənin ayrıcına tökülmüş
şərab.
Riyakar çeşməyi.
Varağı çox, məzmunu az kitab.
Xoş ətirli yarpaqlar –
qızılgül tufanı.
İşdən, məhəbbətdən qızarmış
yanaqlar.
Həya.
Can qurtaran boya.

AL QIRMIZI

Unudulmaz mənzərə:
poladlaşan dəmir.
İnsan yuvasında
Prometeyin töhfəsi.
Dağlarda lalə gölləri.
Ovod və onun faciəsi.
Dalaşqan uşaq.
Qatil əlində bıçaq.
Yağışlı gündə silahlı üsyan.
Qəti döyüşdə xalqın qəzəbi.
Doğru sözün qısa məzmunu.
Zəfər bayraqlarının rəsmi keçidi.
Daxmalı, qazmalı kəndin
minarəli məscidi.
Bir də insan bəzəyi.

## QIRMIZININ ÜMİD ÇALARI

Uzaq ulduzların yaxın yolu.
Bir də insan:
alnı açıq,
gözləri etibar dolu.

## QIRMIZININ İNAM ÇALARI

Dözüm.
Günəş içmiş üzüm.
Ümid yolu.
Geniş meydan – nəğmə dolu.
Güllələrin, vədələrin gücsüzlüyü.
Qəlbi səksəkəli atanın
ilk övladı.
İnsan adı.
Ölümün dadı.
İnsanlara məhəbbət.
Çılpaq həqiqət.

## FİRUZƏYİ

Xatirələrdə qalmış məhəbbət ağrıları.
Dənizin yaraşığı.
Yaşıl abajurdan
mavi divara düşmüş
lampa işığı.
Yoxsul qız barmaqlarının həsrəti.
Cəfər Cabbarlının Bakısı.
Dünyadakı gözlərdən
ancaq ikisi.



## İNNABI

İki nəfər
hərləndilər dağı-dərəni,
yolu tapa bilmədilər.
Gecə kəsmişdi bəndi-bərəni.
Üfüqə sancılanda səhər,
yolu tapdı
iki nəfər.

## SUMAĞI

Nənəmin gəlinlik şalı.
Kabab qoxusu.
Döyüşdən çıxmış Qıratın nalı.
Gecənin tabutuna salınmış örtük.
Qəssab baltası altına düşmüş kötük.
Dodaqlar, dırnaqlar,
Yaralı ov izində qar.

## QIRMIZI VƏ QARA

O gələndə ümid gedirdi.
Onu görüb yubandı.
Nəfəsi güzgünü belə
tərlətməyən xəstənin
damarına axanda
qan,
Ümid qayıtdı geri.
Adamların gözündə göründü.
Baxışında, üzündə göründü.
Buz nəfəsli qaraltı
çəkildi qapıdan;
yavaş-yavaş,
peşman-peşman.
Dərindən nəfəs aldı insan.

## QARA

Namərd düşmən.
Şüurdan gizlənmiş qorxu.
Əbədi ayrılığın ağrısı.
Yaşamaq üçün sürünənlərin çoxu.
(Şikəst olub sürünənlər xaric)
Ağ yalan.
Dodaqları yandıran ah.
Edam gününə açılan sabah.
Ləkəli sözlər.
Gözlərin alovu.
Saçlar, qaşlar.
Qaranəfəs olmuş ceyranın əti.
Bir də
bəzi insan niyyəti.

## QARANIN DƏRD ÇALARI

Həsrətli gözlər.
Pərişan saçlar.
Titrək dodaqlar.
Sürət yolunda dəstəbaşı çolaqlar.
Söz eşidə bilməyən qulaqlar.
Sındırılmış puçurlu budaqlar.
Nəğməsiz dağlar.
Kor bulaqlar.
Ovsuz ovlaqlar.
Odsuz ocaqlar.
Yaşamalı ölülər.
Ölməli sağlar.
Dili ali məclislərdən qovulan
qolları buxovlu olan,
qəbilələr, xalqlar.



## ALA-BULA

İnsan ömrü.
Taleyin şıltaqları.
Ənənəçi mötəbərin otaqları.
Arzular, ümidlər.
Arxiv qəfəslərində dincələn
əlyazmaları.
Göylərin bulud yamağı.
Ağlı-qaralı donuz.
Xatirələrdə qalmış
tapşırıqlı yolumuz.
Əbədiyyətin gecə-gündüz səhifələri.
Ala düşmüş insan üzü.
Güvə dəymiş dəri.
Uzunqunc corabların
kilkə yun kələfləri.
Sevincin, kədərin,
inamın, ümidsizliyin
çeşidləri.
Zebr balası;
böyük olsun, kiçik olsun.
Xoşbəxtlərin sevinci,
bədbəxtlərin yası,
İnsan dünyası.

## ƏL VURMAYIN, RƏNGLƏNİB

Dodaqlara yapışmış təbəssüm.
Buqələmunlar.
Təcrübəli meymunlar.
Qara qatıq.
Ağ qurum.
Yeməli qum.
Məhəbbətin surraqatı.
Məqsədli alqışlar.

İnsan qəlbinin
boş olduğu anlar.
Fil görünən birələr.
Səməd Mənsur haqqında xatirələr,
Doğruya bənzəyən yalanlar.
Şalvarlı, köynəkli,
donlu, əlcəkli adamlar.
hər cürə boya.
Toydan yasa,
yasdan toya
tələsən addımlar.

*1960–1962*



# *Rəngli yuxular*

## İLK DUYUM

Rəngli yuxular görürəm:
qırmızı, sarı, yaşıl;
rəssam Toğrulun lövhələri kimi.
Rəng rəngə dirsəklənir,
rəng rəngə dolaşır.
Ağ-qara yuxularım
cansıxan söhbətlərə bənzəyir.
Bəzən acı xatirəyə,
bəzən şipşirin
qafiyəyə bənzəyir.
Yorulmuşam
rəngsiz yuxulardan
adilikdən,
əzbər bilikdən
yorulan kimi.
Rəngli yuxular acıyam –
O qədər ki, ayılanda
– Nə az oldu – deyə
acım-acım acıyam.
Yuxularıma girən
qayğılı dünyamın
rəngləridir.
Bəzən gümüş damcı –
alın təri,
bəzən çeşid-çeşid
ömür mənzərələri.
Rənglərin aləmindən
yazardım, yazar, yazar;
neçə ədəbi pəltək,

tək-tək buqələmun, yassar
rənglərə rəng yaxmasalar.
Ağ-qara yuxularım
köhnə fotolara bənzəyir,
bir də
sığallı şerə.
Rəngli yuxularım
əlvandır;
həyat kimi.
Minbir çiçəkdən içdiyim
ətir,
müxtəlif meyvədə duyduğum
dad kimi.

## RƏNGLƏR PIRTPAŞIĞI

Neçə gündür
Rəngli yuxular görürəm,
"Tanış olmayan bir qadına
yazılmış məktub" düşür yadıma.
Rəngli yuxular görürəm
gecələr.
Qapalı gözlərimin qaranlığında,
apaydın,
apaçıq,
al-əlvan,
çap-çalarlı,
rəngli-ahəngli.
Yuxularımın
dolaşıq rəngi
düşündürür məni,
yuxuda, ayıqlıqda.
Bəzən ayılıram yuxudan
yuxu içində.
İnanmıram gördüklərimə.
O rənglər pırtlaşığı,



o çalarlardakı ərimə
o rənglərin fırtına qarışığı,
parıltılar,
rənglərin qışqırıcı düzümü
həqiqətə bənzəmir.
Dağamı – qalxdım.
endim düzəmi,
girdim dənizəmi
doymuram rəngli yuxulardan
məhəbbətdən umsuq
uşaq kimi.
Rəngli yuxum tağ qurur
gözlərimdə
göy üzündə,
yarı çənbər,
yeddi rəngli,
yüz çalarlı,
qurşaq kimi.
Ayrılsam da
varımdan, yoxumdan,
ayrılmaq istəmirəm
rəngli yuxumdan.
Rənglər!
Sevincim,
ağrım, incikliyim!
Sizsiz nə rahatlığım,
nə dincliyim.

## HƏYAT ADAMI

Dünyanı rəngli gördüm
yuxuda.
Gördüm
ağsız, qarasız.
Dənizlər –
dəniz rəngli;

gömgöy,
mavi,
sarımtıl.
Meşələr –
meşə rəngli;
yaşıl,
səməndi,
kəhər,
qızılı
və narıncı.
Göy üzü
gümüş pul-pul.
İnsanların da rəngi
içindən üzə çıxdı.
Gözlərimin önündə
hər yerdə
hər nə varsa
apaydın, apaçıqdı.
Çıldır-çıldır dağılan
rənglərin fırtınası
mənə nələr söylədi,
nələr anlatdı mənə.
Hər çalarda bir aləm,
hər çıldırda bir səhnə.

## GÖRDÜM

İsti sarını gördüm
rəngində xəzəllərin.
Soyuq yaşılı gördüm
gözündə gözəllərin.
Neçə insan üzündə
ömür yolunu gördüm:
çal-çarpaz,
qırış-qırış.
Neçə insan saçında



qəmi, həsrəti gördüm
qaranı ağ boyamış.
Neçə gənc baxışında
rəngi dupdurulmamış
Ümid!
Arzu!
Oyanış!

## HƏYATDAN PARÇA

Yuxularım rənglidir
həyatın özü kimi.
Yaxşı, pis insanların
əməli, sözü kimi.
Düşündüm:
qara rəngi,
gərəksiz insanların,
səksəkəli, calaşıq
yuxularına atım.
Rəngli yuxularımı
canlı, rəngli dünyamın
minbir çalarlı,
əlvan
ölməzliyinə qatım.
Yuxular da həyatın
bəzən eyni,
bəzən də dəyişik aynasıdır.
Nə qədər şirin olsa
insan, tez-gec,
yuxudan
bir vaxt oyanasıdır.
Ancaq, qara yuxudan
oyananda sevinib
dərindən nəfəs alaq;
Əlvan rəngli yuxudan
oyananda,

təəssüf, nigaranlıq duyğusu
qəlbimizə dolmasın.
Rəngli əlvan yuxular
uğurlu olsun,
ancaq,
təkcə yuxu olmasın.

## RƏNGLƏR ALƏMİNDƏ

Yuxuda bir uşaq gördüm
gözləri qapqara,
badamı.
Yuxuda xatırladım
Vyetnamı.
Gördüm qırmızı bir qan gölməçəsi,
Gölməçə yanında bir uşaq;
gözləri zilqara,
badamı.
Ölüm növbəsində qoyulub neçəsi.
Yuxuda gördüm Vyetnamı.
Göyü qırmızı lapar-lapar gördüm,
torpağı külrəngi.
Yollar şırım-şırım;
alapələngi.
Ağacların barmaqları
qapqara.
Sarı alov rəngi axırdı
dağlara, daxmalara.
Yuxuda bir uşaq gördüm
gözləri tünd qara,
badamı.
Qıpqırmızı –
əli, ayağı,
qıpqırmızı –
dili, dodağı.
Gözləri – göylərin



qara sükutu.
Və...
Birdən ildırım çaxdı.
Göy parçalandı.
Çilik-çilik doğradı, tökdü sükutu.
Bir an keçdi... ya
xeyli zaman keçdi.
Gördüm təyyarə meydanında
sıralanıb
uzaq səfərli
neçə-neçə
gümüş rəngli insan tabutu,
üstündə lent – qara atlaz.
Bir də üfüqü ağır-ağır qaldıran
alov rəngli qisas.

## AĞ TOVUZ

Yuxuda tovuz quşu gördüm
bir dəstə;
içlərində biri ağ;
ağın-ağı.
Qapqara iki ayağı.
Qalanlar neçə rəngli,
neçə çalarlı.
Ağ tovuz quşu qaldı yadımda.
Yuxuda ölkələr gəzdim
meşələri yaşıl, sarı,
qırmızı, narıncı.
Ağ tovuz quşu çıxdı qarşıma
hər addımda:
qəmli idi, küskün idi;
çox küskün.
Həsrəti yuxumdan
ayıqlığıma keçdi,
düyün-düyün.

Ağ tovuzum, ağ tovuzum,
səni xatirimdə necə saxlayım,
necə pozum?
Ağ tovuzum,
bu rəngli yuxumu necə yozum?
Xatirimdən necə pozum?

## BAHAR

Yuxum bahar yolundan keçir.
Rənglərin ətrindən məstəm.
Güllər topa-topa,
çiçəklər dəstə-dəstə.
Yaşıl söyüdlər çaydan su içir.
Səpələnib hər yana
dünyanın rəngləri:
Məhəbbət, nifrət, sevinc.
Kədər.
Hərəsi bir duyum oyadır çiçəklər.
Çöllər çəmənlidir, dağlar qarlı.
Yuxum həyat dadlıdır, dünya baharlı
Arzularımdır – açılıb əlvan.
Baxıramənginlərə
gözlərim doyumsuz,
qəlbim ümidli.
Bir yanda Şahdağı,
bir yanda Savalan.
Arzulardan doyarmı,
rəngsiz yuxulara uyarmı
ümidi, diləyi sağ olan?!



# MÜNDƏRİCAT

## QARABAĞ – BABA YURDUM

Sənin adın ........ 7
Daş üstü ........ 8
Bulaq suyu ........ 9
Nəğmələr doğulanda ........ 10
Tonqal yerində çiçək ........ 11
Piri babanın bağı ........ 12
Nəsildən-nəslə ........ 14
Şuşam mənim ........ 16
Bir heykəl, iki qoca və mən ........ 20

## MİRZƏ CƏLİLİN NİSGİLLƏRİ

Ölülər ........ 25
Nazlılar ........ 26
Zeynəbin qisası ........ 28
Bəlkə də qaytardılar ........ 28
Kamança ........ 29

## TƏYYARƏDƏ DÜŞÜNCƏLƏR

Qanadlar amanında ........ 31
Fikrim tələsir ........ 31
Qürubu qova-qova ........ 33
Qəlbin dili ........ 34
Fikrim çırpınır ........ 36
Məni huş aparmışdı ........ 37
Torpaq həsrəti ........ 38
Tənhalıq ........ 38
Arzu ........ 39
İki nöqtə arasında ........ 39
Bağışlayın məni ........ 40
Yenə qanadlar amanında ........ 41

## HİNDİSTAN DƏFTƏRİNDƏN

Tac-Mahal ........ 42
Fil və filban ........ 43
Əllər iş istəyir, ağızlar çörək ........ 45
Dilənçilər ........ 47

SURİYA DƏFTƏRİNDƏN

Ərəb qızı .... 50
Palmira .... 51
Daş izdiham .... 57
İnsan .... 57
Torpaq və düşüncələr .... 58
Səslər .... 59
Ümeyə məscidi .... 60
Dəməşqi görməyə yüz gün gərək .... 61
Təzadlardan biri .... 61
Yollar .... 62

İRAQ XATİRƏLƏRİ

Bağdad .... 63
Ümid .... 64
Maşın olanda nə olar .... 67
Yolda .... 68
Kərbəla .... 70
Ana, dərdin nədir? .... 71
Sabirlə görüş .... 73
Şəttülərəb .... 75

YAPONİYA MOTİVLƏRİ

Zəlzələlər üstündə .... 76
Keyşə .... 77
Xirosimanın iki yüz minlik qurbanı haqqında sətirlər .... 78
Təzad .... 78
Tufan önündə .... 78
Gözlərin matəmi .... 79
Bombardman .... 80

PRAQA XATİRƏLƏRİ

İki tanışlıq .... 82
Yan Qus .... 83
Qəmli görüş .... 85
Bir güllə, bir saat, axıb gedən vaxt və on iki həvari .... 88
Güllük .... 90

QARA DƏNİZ SAHİLİNDƏ DÜŞÜNCƏLƏR

Bolqarıstan! Bolqarıstan .... 94



CƏLLADLARI DURDUR

Çapey .... 101
Si-Au .... 108
Cəlladları durdur .... 112
Zənci balası Villi haqqında ballada .... 125
Almaniya .... 129
Səhifələr .... 131
"İş başında" .... 139
İnqalesyo .... 151
Madrid .... 154
Həbəşistan .... 159
Hələ bu harasıdır! .... 163

YER OĞLU

Yer oğlu .... 180
Etiraf .... 180
İnsan, sənin oğlun .... 181
Ömür yolum .... 181
Xülya .... 183
Qürur .... 184
Sevinc .... 185
İlk dəfə gördüm səni .... 186
Torpağım .... 187
Qüssə .... 187
Səsim .... 188
Sədaqət .... 188

TƏNHALIĞIN SONU

Tənhalığın sonu .... 189
Ay həsrəti .... 189
Nənəm deyərdi .... 190
Körpüsüz uzaqlarda .... 191
Möcüzə və yer üzündən xəbər .... 193
Möcüzə .... 194
Epiloq .... 195

KÜÇƏLƏR

Küçələrdən biri .... 196
Baş küçə .... 198
Yetim küçə .... 200
Qəmli küçə .... 202

Sinəsindən yol açılmış küçə ..... 203
Dalan ..... 204
Küçəmizin adı ..... 205
Uzaq küçə dedi ..... 206
Yeni küçə adları ..... 207

DƏNİZ HAQQINLDA NƏĞMƏLƏR

Dəniz ..... 209
Dəniz, dalğalar, damlalar ..... 210
Dənizin haqqı ..... 211
Dənizin riqqəti ..... 212
Dənizdən böyük ..... 213
Dənizdən ayrı dəniz ..... 214
Dəniz niyə əsəbidir ..... 215
Dəniz haqqında nəğmələr
Giley ..... 216
Riqqət ..... 217
Susuzluq ..... 218
Dənizin dənizliyi ..... 218
Dəniz deyir ..... 219
Səhər dənizi ..... 219
Məhəbbət ..... 219
Yuxusuz dəniz ..... 220
Səhər nigarançılığı ..... 220
Dənizin yerinə olsam ..... 220
Dəniz və balıqçılar ..... 221
Dəniz gecələri ..... 222
Dənizin ad günü ..... 223
Daha dəniz qorxulu ..... 224
Dənizin rəngi ..... 225
Dənizçi qoca dedi ..... 225
Dənizin yurdu ..... 226

RƏNGLƏR

Uvertüra ..... 227
Ağ rəng ..... 228
Ağ rəngin sevinc çaları ..... 228
Ağ rəngin məhəbbət çaları ..... 229
Şirmayi ..... 229



Boz ..... 230
Gümüşü ..... 230
Püstəyi ..... 231
Mavi ..... 231
Mavinin təsəlli çaları ..... 231
Xurmayı ..... 232
Tünd qəhvəyi ..... 232
Narıncı ..... 233
Kürən ..... 233
Qızılı ..... 233
Sarı ..... 234
Saman sarısı ..... 235
Bənövşəyi ..... 235
Badımcanı ..... 236
Sürməyi ..... 236
Çəhrayı ..... 236
Al qırmızı ..... 237
Qırmızının ümid çaları ..... 238
Qırmızının inam çaları ..... 238
Firuzəyi ..... 238
İnnabi ..... 239
Sumaği ..... 239
Qırmızı və qara ..... 239
Qara ..... 240
Qaranın dərd çaları ..... 240
Ala-bula ..... 241
Əl vurmayın, rənglənib ..... 241

RƏNGLİ YUXULAR

İlk duyum ..... 243
Rənglər pırtlaşığı ..... 244
Həyat adamı ..... 245
Gördüm ..... 246
Həyatdan parça ..... 247
Rənglər aləmində ..... 248
Ağ tovuz ..... 249
Bahar ..... 250

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 13.12.2004. Çapa imzalanmışdır 27.06.2005.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 16. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 171.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.